**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

# Tarix, insan və cəmiyyət

***Elmi-nəzəri və elmi-metodik jurnal***

**2017, 3 (18)**

***ISBN: 90000000060074***

**BAKI-2017**

# Tarix, insan və cəmiyyət

Elmi-nəzəri və elmi-metodik jurnal № 3(18), 2017

*Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 16 aprel 2005-ci il tarixdə qeydə alınmış (№ 1279), 2005-ci ildən Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutnda nəşr edilmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən 2011-ci ildən tarix, tarixin tədrisi metodikası, 2015-ci ildən psixologiya və pedaqogika elmi istiqamətləri üzrə də "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısı"na daxil edilmişdir. 2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin təsisçiliyi ilə nəşr edilir.*

## REDAKSİYA HEYƏTİ

**Cəfər Cəfərov** (baş redaktor), **Asəf Zamanov, Bəxtiyar Əliyev, Urxan Ələkbərov, Yaqub Mahmudov, Vəli Əliyev, İzzət Rüstəmov, Abbas Seyidov (**baş redaktorun müavini**), İradə Hüseynova, Oqtay Sultanov, Anar İsgəndərov, Ramiz Əliyev, Fərrux Rüstəmov, Rüfət Hüseynzadə, Sevinc Quliyeva** (məsul katib)

**UOT 94(479.24)**

# НАЧАЛО АРМЯНСКОГО ТЕРРОРА В ШУШЕ В 1905 г.

***Ф.Р.Джаббаров***
*Национальний музейистории*
*Азербайджана*

***Ключевые слова:*** *армяно-азербайджанская резня, армянский террор, Шуша, Елизаветпольская губерния*

В статье повествуется об одной из трагических страниц армяно-азербайджанского конфликта 1905-1906 гг. – резне в Шуше. Она стала началом второго этапа армяно-азербайджанских столкновений. Армяне учли все обстоятельства своих предыдущих неудач в Баку, Нахчыване и Эриване и подготовились к погромам в Шуше более основательно. Впервые именно в Шуше армяне стали осуществлять нападения и убийства азербайджанского населения с целью сокращения его численности и дальнейшего вытеснения с насиженных мест. Преступления, совершённые дашнаками против мусульманского населения региона рассмотрены на основе первоисточников.

# 1905-ci İLDƏ ŞUŞADA ERMƏNİ TERRORUNUN BAŞLANMASI

***F.R.Cabbarov***

***Açar sözlər:*** *erməni-azərbaycanlı qırğınları, erməni terroru, Şuşa, Yelizavetpol quberniyası*

Məqalədə 1905-1906-cı illərdə baş vermiş erməni-azərbaycanlı münaqişəsinin faciəli səhifələrindən biri olan Şuşa qırğınlarından bəhs edilir. 1905-ci il Şuşa qırğınları erməni-azərbaycanlı toqquşmalarının ikinci mərhələsinin başlanğıcı oldu. Məqalədə qeyd olunur ki, Bakı, Naxçıvan və İrəvan şəhərlərindəki məğlubiyyətlərinin əvəzini çıxmaq istəyən ermənilər Şuşa qırğınlarına daha əsaslı hazırlaşmışlar. Məhz Şuşada hücumlar təşkil edən ermənilər təkcə azərbaycanlı əhalini qırmaq deyil, eyni zamanda onu yaşayış yerlərindən qovmaq taktikasını həyata keçirməyə başlamışlar. Daşnakların bölgənin müsəlman əhalisinə qarşı törətdiyi cinayətlər dövrün ilk mənbələri əsasında araşdırılır.

# THE START OF ARMENIAN TERRORISM in SHUSHA in 1905

***F.R.Jabbarov***

***Keywords***: *armenian-azerbaijani massacres, armenian terror, Shusha, Elizavetpol province*

This article is about Shusha massacres, one of the tragic stages of armenian-azerbaijani conflict, in 1905-1906. In 1905, Shusha massacre was the beginning of the second stage of the armenian-azerbaijani conflict. The article says that the Armenians who wanted to take revenge for the defeats in Baku, Nahkchivan and Erivan cities were better prepared for the Shusha massacres. The Armenians who organized attacks especially in Shusha have not only slaughtered the Azerbaijani population but also started to implement expulsion tactics of Azerbaijanis from their native homes. Crimes which committed by armenians against muslim population of the region is carried out on the basis of initial sources of that period.

Август 1905 г. ознаменовал новую веху в истории армяно-азербайджанского конфликта 1905-1906 гг., положив начало ещё более кровопролитным столкновениям, охватившим всё новые и новые города и уезды Южного Кавказа. Во второй половине августа 1905 г. в Шушинском уезде Елизаветпольской губернии вспыхнула армяно-азербайджанская резня. То, что она началась именно здесь, было не случайным. Древний азербайджанский город Шуша, бывшая столица Карабахского ханства, в результате проводимого российскими властями переселения превратился в регион массового проживания армян. Итогом данной политики стало увеличение численности армян, в частности, в середине XIX в. они составляли 70,7 % жителей Шуши [5, 139]. В начале XX в. Шуша превратилась в один из главных центров армянского национал-экстремизма. Как писал в 1903 г. Елизаветпольский губернатор, именно в Шуше «пропаганда армянских революционеров свила себе настолько прочное гнездо, что борьба с преступной деятельностью их приобретает значение всё более и более серьёзной задачи правительства» [12, 6 об.]. В жандармских донесениях за 1904 г. Шуша и вовсе называлась не иначе, как «место пребывания главного центрального комитета армян» [4, 28].

Как и в других городах Северного Азербайджана с этнически неоднородным населением, в Шуше армяне и азербайджанцы тоже расселялись компактными массами. Верхняя часть города была занята азербайджанцами, а нижняя – армянами. Подобные преимущества создавали благоприятную почву армянам для терроризирования азербай-

джанского населения Шуши и условия для их выживания с населённых мест с целью создания этнически однородного анклава в Карабахском регионе. Находившаяся в менее выгодном положении в плане вооружения азербайджанская сторона начала предпринимать меры в данном направлении. Так, из Шуши неким Гулиевым была отправлена в Елизаветполь на имя почётных лиц – Х. Рафибекова, И. Зиядханова и А. Хасмамедова телеграмма с просьбой о немедленной высылке оружия для отпора армянам [13, 29].

Предвестником резни в Шуше стали отдельные эпизоды столкновений между двумя нациями. 8 августа в Шуше армяне убили фонарщика Мамедгусейна Усуб оглу. Азербайджанцы несколько дней требовали от армян выдачи убийц, но тщетно, те заявляли, что фонарщика убили сами мусульмане, чтобы вызвать резню. Напряжённость нарастала и обострилась после вести о перестрелке между спустившимися с кочевий крестьянами азербайджанского селения Джинни с армянами селения Дашанлы. В перестрелке было убито и ранено несколько человек с обеих сторон. В связи с этим азербайджанцы соседних с Шушой сёл начали предпринимать меры по обузданию разгула армянского террора. Они стали подстерегать армян, бродивших по дорогам вооружёнными шайками, задерживать их и отбирать оружие [3, 7-7 об.; 13, 65].

Как видно, межнациональная вражда в Шуше уже достигла такого предела, когда достаточно было одного повода, чтобы она вылилась в масштабные кровавые столкновения, начавшиеся 16 августа. Судя по архивным документам, отправленным полицейскими и гражданскими властями из Елизаветполя и Тифлиса в Петербург, повод к началу противостояния точно не был выяснен. По версии армянской стороны, столкновения начались из-за ранения их соплеменника жителями селения Зарисли. Существовало предположение, что армянина ранил казак за отказ выдать оружие. Раненый армянин, окровавленный, отыскивая то пристава, то врача, несколько раз прошёлся по самым людным улицам города. Народ вызвали по звону церковного колокола на улицы, вышедшие туда армяне рассыпались по домам, а затем вновь собрались на площади армянского базара, уже вооружённые ружьями. Здесь начали произноситься возбуждающие речи о том, что мусульмане убивают армян, за городом зарезаны четыре человека и т. п. наэлектризованные такими выступлениями, армяне убили двоих азербайджанцев, затем начались погромы и поджоги торговых лавок азербайджанцев в армянской части города. Стрельба велась с обеих сторон: армяне, засевшие на высотах, обстреливали шоссе, ведущее к Шуше. Азербайджанцы отвечали стрельбой и начали поджигать дома армян в своей части. В первый день резни точное число жертв не было установлено [3, 4-4 об.; 6, 3; 7, 3]. Если

даже принять за правду армянскую версию событий, то сразу бросается в глаза, что армяне решили воспользоваться удобным случаем и при первой возможности начали убивать азербайджанцев. Судя по приведённому свидетельству, собравшиеся по призыву церковных колоколов на улицах затем побежали в свои дома и выходили оттуда уже вооружённые. Следовательно, подготовка к резне велась заранее, армяне решили использовать факт ранения своего соплеменника, как оправдание нападения на азербайджанцев, причём детали этого ранения так и остались невыясненными и не известно точно, было ли это делом рук азербайджанцев или ему нанёс увечья кто-то другой. Примечательно также, что для нагнетания страстей инцидент был специально раздут. В частности, врач Машурянц, заметив, что армянин легко ранен и ему сделана перевязка, опасаясь, что такой малозначительный случай не произведёт должного впечатления на толпу, сорвал с раненого перевязку и повёл его, истекающего кровью, по главной улице, а сам кричал: «Вот как поступают с нами татары» [7, 3].

Продолжая бесчинства в городе, армяне залили керосином и подожгли улицу, составлявшую границу между азербайджанской и армянской частями Шуши, чтобы не допустить мусульман в армянскую часть. Среди архивных материалов сохранилось свидетельство, как действовали армяне во время поджогов домов: «под прикрытием стариков мальчишки подбегали к татарским домам, подкладывали под деревянные части ворот и забора тряпки, обливали их керосином и поджигали. У мальчиков было специальное снаряжение: сумки с тряпками и бутылки с керосином» [10, 64]. Убийства и грабежи азербайджанцев производись при полном безучастии полиции во главе с приставом Гурамовым, на глазах которого армяне стреляли и убивали проходивших и торгующих на армянском базаре азербайджанцев [7, 3].

Тем временем азербайджанская сторона тоже стала предпринимать меры для защиты от армянского террора. В ответ на поджоги домов азербайджанцы стали отвечать тем же, причём более активно, чем армяне. Серьёзным успехом азербайджанской стороны было овладение 17 августа церковью, которая была превращена армянами в стратегическую базу, откуда вёлся обстрел [8, 3]. В ходе боёв отрядам азербайджанской самообороны удалось оттеснить армян, занимавших на возвышенной части города более выгодные позиции. Это угрожало уничтожением целого армянского квартала. На защиту шушинских армян пришли войска и казаки, залпами орудий оттеснившие мусульман, «неустрашимо взбиравшихся по крутым подступам, ведущим в армянскую часть», как указывалось в официальном донесении [3, 8]. Столь энергичное и оперативное вмешательство в дело войск, не характерное на всём

протяжении шушинской резни, объяснялось, прежде всего, интересами самих властей. Дело в том, что Шуша расположена на склоне высокой, скалистой и труднодоступной горы. На верхней части её склона расселились армяне, а на нижней – азербайджанцы. Все правительственные учреждения, почта, телеграф располагались в армянской части. Поэтому, когда азербайджанские силы были близки к взятию под контроль армянских кварталов, власти, опасаясь разрушений и пожаров в этой части Шуши, обеспечили её оборону. Тем более, что из-за пожаров были повреждены телеграфные провода.

17 августа была предпринята попытка прекратить кровопролитие: армянская сторона предложила азербайджанцам встретиться в армянской части Шуши и просила шушинского уездного начальника М.И.Пивоварова быть посредником в переговорах. Азербайджанцы заявили, что не пойдут в армянскую часть города и предложили встретиться в доме принца Фатали мирзы, как самом удобном месте для совещания, ибо к нему можно пройти как по армянским, так и по мусульманским улицам. Когда М.И.Пивоваров сообщил это условие армянам, те ответили, что для окончательного согласования вопроса они должны ещё кого-то пригласить. Из этой ситуации уездный начальник сделал вывод, что стороны не спешили с окончанием переговоров и прекращением перестрелки. М.И Пивоваров подчёркивал, что армяне всё время требовали применения со стороны войск оружия в их защиту, но он не соглашался, т.к. не замечал военного перевеса у азербайджанцев. В то же время он признавал, что не имел достаточных сил для жёстких мер против обеих сторон [3, 4 об.].

18 августа стороны пытались достичь перемирия. Инициативу в этом деле взяли на себя местные власти и армяне. М.И.Пивоваров в своём рапорте писал, что когда утром 18 августа стала очевидной победа азербайджанцев, он, по поручению елизаветпольского вице-губернатора В.Н.Барановского, «бросился» в мусульманскую часть Шуши, имея уже согласие армян встретиться с мусульманами, где угодно. Представители азербайджанцев заявили, что народ так ожесточён потерями и поджогами домов, что трудно будет призвать его к перемирию. В связи с этим они просили подождать до вечера, затем, приняв меры, чтобы с утра огонь не открывался, приступить к переговорам. М.И.Пивоварову удалось с помощью убеждений, молений, ссылок на положение губернатора добиться того, что духовенство и почётные мусульмане обещали употребить все силы к прекращению перестрелки к 4 часам пополудни. При этом азербайджанцы требовали, чтобы и с армянской стороны не было произведено ни одного выстрела [3, 5].

Однако выстрелы со стороны армян продолжались, поэтому азербайджанские представители не пришли в дом принца Фатали мирзы,

где планировалось договориться о перемирии. 19 августа в Шушу приехал вице-губернатор В.Н.Барановский. Вице-губернатор через влиятельных азербайджанцев и при содействии шейхульислама А. Ахундзаде, который прибыл в город по поручению наместника 20 августа, стал уговаривать азербайджанскую сторону прекратить нападения и пойти на перемирие [3, 8]. В тот же день влиятельный шушинский бек Джавад ага Джаваншир вместе с М.И.Пивоваровым и армянским епископом отправились сначала в армянскую часть города, а затем с губернским казием и архимандритом – в азербайджанскую часть. После обхода города был достигнут мир, но не окончательный. В этот день были сожжены два азербайджанских и два армянских дома [3, 5 об.].

20 августа возобновилась сильная перестрелка. Воодушевлённые перевесом в силе, азербайджанцы решили положить конец армянским провокациям. К 9 утра вице-губернатор В.Н.Барановский уговорил мусульман пойти на примирение. В одном из своих поздних донесений он писал: «…татары в Шуше не только помогали мне, но проявляли рыцарство в своём поведении». С другой стороны, опасаясь новой вспышки насилия, он настоял и на том, чтобы армянское духовенство с крестом и хоругвями двинулось вниз по азербайджанской части Шуши. Там, соединившись с мусульманским духовенством, мирная процессия посетила мечети и поднялась наверх, в армянскую часть. К вечеру того же дня в городе установилось спокойствие, стороны обменялись заложниками и трупами [3, 5 об.-6, 29]. По словам очевидца, когда процессия вышла из мечети, выстрелом с армянских позиций был убит азербайджанец. Невзирая на такое вероломство, мусульмане, давшие слово покончить с враждой, не ответили. Впоследствии оказалось, что армяне после примирения убили ещё 17 персидско-подданных мусульман, работавших в строящемся помещении реального училища [8, 4].

26 августа 1905 г. елизаветпольский вице-губернатор В.Н.Барановский отправил донесение наместнику, в котором изложил свои оценки шушинской резни и общей ситуации в губернии. По его словам, причиной межнационального кровопролития стала вековая вражда азербайджанцев и армян, в основе которой лежало презрение первых ко вторым, ибо азербайджанцы считали армян нацией трусливой и не способной к благородным порывам. В.Н.Барановский писал, что такие отношения хотя и вызывали проявление отдельных случаев вражды, но до массовых беспорядков дело не доходило, пока армяне не объединились в комитеты, не стали проявлять большую уверенность в своих силах и не внушили массе, что она может оказать сопротивление мусульманам. «Армяне в этом отношении за последние годы сделали большие успехи и, не будучи в состоянии ограничиться ими, стали проявлять слишком большую

кичливость и, руководимые горячими головами, зашли слишком далеко». По мнению чиновника, единственным средством борьбы с междоусобицами в крае должно быть беспощадное преследование деятелей армянских комитетов, от которых хотят избавиться обе нации. Если это не сделает правительство, само армянское население обратиться к самосуду, считая существование этих комитетов вредным для себя [3, 28-29].

В другом донесении елизаветпольский вице-губернатор выражал обеспокоенность распространявшейся в газетах информацией о том, что предполагается образовать милицию из армян под руководством офицеров армии. По его мнению, это вызовет возмущение азербайджанцев, которые составляют большинство в Елизаветпольской губернии. «Население и без того страшно сильно вооружено, причём армяне получают оружие извне, а татары отбирают его у них силой для себя», – отмечал В.Н.Барановский [3, 29]. Упомянутый В.Н.Барановским план создания милиции по этническому признаку был инициирован армянами, причём получил одобрение в лице помощника наместника по полицейской части генерала Е.Н.Ширинкина. Как видно из его телеграммы наместнику (28 августа 1905 г.), явившаяся к генералу депутация армянской интеллигенции просила разрешить для армянских селений Зангезурского, Джеванширского, Шушинского, Нахчыванского, Шарур-Даралаязского, Джебраильского, Шамахинского, Гёйчайского, Нухинского, Казахского, Арешского, Сурмалинского, Эриванского и Борчалинского уездов организовать сельскую стражу, т. к. эти селения расположены далеко от центра размещения правительственных войск. Обосновывали свою инициативу армяне якобы целями самозащиты [14, 15]. Обращает внимание, что создание подобной милиции планировалось во всех уездах Южного Кавказа, где армяне жили смешанно с азербайджанцами. Несомненно, что осуществление этого плана на практике могло привести к ещё большему осложнению межнациональной вражды. Видимо, понимая это, наместник оставил без последствий просьбу армян, несмотря на поддержку её со стороны Е.Н.Ширинкина.

Несмотря на достижение перемирия, армяно-азербайджанские столкновения в Шуше продолжались всю вторую половину 1905 г. Избегая частых нападений на азербайджанские сёла, армяне прибегли к тактике блокады азербайджанского населения Шуши. Дашнакские отряды заняли дорогу между Агдамом и Шушой у Аскерана. Это была одна из длительных блокад Шуши, начавшаяся в августе 1905 г. и длившаяся в 1906 г. Полное прекращение сообщения с городом угрожало населению голодом и полным уничтожением. Закрытие армянами тракта от Аскеранской крепости и всех просёлочных путей от Агдама до Шуши, привело к тому, что не только жители города, но и мусульмане

Шушинского, Джебраильского и Зангезурского уездов были лишены возможности получать продовольствие и предметы первой необходимости [15, 137 об.].

Командующий отправленных в Шушу войск генерал-майор В. С. Такайшвили в телеграмме помощнику наместника по гражданской части Н. А. Султан-Крым-Гирею от 23 августа сообщал, что мусульманское население продолжает пребывать в сильном волнении, ибо, несмотря на объявленное перемирие, армяне продолжают занимать Аскеранское ущелье и окрестные высоты, стреляя в проезжающих мусульман. Обстрелу был подвергнут даже конвой шейхульислама. По словам генерала, он встречал по дороге партии азербайджанцев, возвращавшихся из Аскеранского ущелья с убитыми и ранеными [14, 14-14 об.].

В дни шушинской резни армяне, как это уже было во время столкновений в Баку, Эриване, Нахчыване, Тифлисе, вновь пытались выдать себя за невинных жертв. В письме шушинских армян на имя наместника они обвиняли азербайджанцев в усиленном вооружении накануне резни, выставляя себя в качестве обороняющейся стороны. Вновь разыгрывая пресловутую карту «мусульманского фанатизма», умалчивая о том, кто из враждующих сторон понёс наибольшие потери, армяне убеждали наместника, что целью азербайджанцев в организации резни в Шуше было «нанести удар экономическому благосостоянию армян, ослабить христианский элемент, а невежественная, вечно возбудимая масса фанатиков готова была во всякую минуту ринуться на мирного соседа – её манила перспектива грабежей» [11, 163-164]. По поводу подобных объяснений армян генерал Е.Н.Ширинкин писал заведующему Департамента полиции Н.П.Гарину: «Обращает внимание желание армян после неудачного столкновения выставить себя несчастными жертвами, пользуясь тенденциозными корреспонденциями и ложными донесениями по телеграфу. Как пример, генерал-губернатор указывал, что по его распоряжению была устроена в Джеванширском уезде засада для задержания подозрительного вьюка, в котором между ученических тетрадей учителя Касапетского оказались начинённые бомбы. Виновные задержаны и производится следствие. Между тем в газете «Новое обозрение» в номере 199 напечатано, что будто бы татары напали на несчастного учителя Мирзоева и ограбили учебные пособия и деньги» [2, 4-5].

Данные о жертвах шушинской резни и материальные убытки точно не были определены. В отчёте елизаветпольского губернатора сообщалось о 250 убитых и раненых, без указания их национальной принадлежности и уничтожении около 200 домов [1, 603]. О более, чем 200 убитых и раненых сообщал также в Петербург помощник по полицейской части

генерал Е.Н.Ширинкин [14, 12 об.]. По данным помощника начальника Тифлисского губернского жандармского управления в Елизаветпольской губернии ротмистра М.Е.Хуциева, азербайджанцы потеряли до 300, армяне – около 100 убитыми. Этими же цифрами, но в обратном порядке выразилось и число сгоревших в Шуше домов. По мнению М.Е.Хуциева, столь значительная разница в потерях сторон объяснялась тем, что на помощь шушинским азербайджанцам прибыло из окрестных селений до 2000 человек. Иначе перевес был бы на стороне армян, превосходивших азербайджанцев в Шуше, как своей численностью, так и вооружением. В то же время М.Е.Хуциев подчёркивал, что и азербайджанцы, и армяне скрывали у себя в домах убитых, не включённых в вышеупомянутые цифры [3, 8]. В докладе прокурора Елизаветпольского окружного суда А.А.Скульского в Министерство юстиции об итогах резни отмечалось, что потерпевшей стороной в Шуше являлись азербайджанцы. А.А.Скульский подчёркивал, что армяне были лучше подготовлены и организованы: у них имелись отряды с начальниками, трубачами и даже сёстрами милосердия [10, 64 об.]. Эта же мысль подтверждалась в письме главы бакинского отделения Товарищества братьев Нобель Г.Эклунда в правление фирмы от 22 августа 1905 г. Г.Эклунд писал, что в Шуше, «при столкновении татар с армянами последние, благодаря своей многочисленности, одержали верх, а татары оказались сильно пострадавшими» [9, 2 об.].

Шушинская резня положила начало второму этапу армяно-азербайджанского конфликта. Они была примечательна в нескольких аспектах. Во-первых, армяне учли все обстоятельства своих предыдущих неудач в Баку, Нахчыване и Эриване и подготовились к погромам в Шуше более основательно. Во-вторых, впервые именно в Шуше армяне стали осуществлять нападения и убийства азербайджанского населения с целью сокращения его численности и дальнейшего вытеснения с насиженных мест. Только этим можно объяснить беспрерывные атаки на азербайджанскую часть города, закрытие жизненно важных дорог и блокаду азербайджанских населённых пунктов.

## ЛИТЕРАТУРА

1. «Армянский вопрос» на Кавказе. По материалам российских архивов и изданий. 1724-1914: в 3 т. Т.2: 1905-1906 / Сост. и коммент.: Гейдаров Т. К., Багиев Т. Р., Шукюров К. К. СПб.: Академия Исследования Культуры, 2011, VIII+614 с.
2. Архив политических документов Управления делами Президента Азербайджанской Республики: ф. 276, оп. 8, д. 111.
3. Там же: ф. 276, оп. 8, д. 571.
4. Государственный архив Российской Федерации: ф. 102 ОО 1906 г., оп. 235, д. 40.
5. Исмаил-Заде Д. И. Население городов Закавказского края в XIX - начале XX в. М.: Наука, 1991, 256 с.
6. К событиям в Шуше. // «Каспий», 28 августа 1905 г., № 166.
7. Муслим. Шушинские события. // «Каспий», 2 сентября 1905 г., № 169.
8. Муслим. Шушинские события. // «Каспий», 6 сентября 1905 г., № 172.
9. Российский государственный исторический архив: ф. 727, оп. 2, д. 87.
10. Там же: ф. 1405, оп. 110, д. 3461.
11. Центральный государственный исторический архив Грузии: ф. 13, оп. 15, д. 128.
12. Там же: ф. 13, оп. 27, д. 93.
13. Там же: ф. 83, оп. 1, д. 54.
14. Там же: ф. 83, оп. 1, д. 97.
15. Там же: ф. 83, оп. 1, д. 380.

**UOT 94 (479.242)**

# QƏDİM NAXÇIVAN TAYFALARININ İDEOLOJİ BAXIŞLARININ İZLƏRİ KURQAN ABİDƏLƏRİNDƏ

(e.ə.IV-II minilliklər)

***A.Q.Seyidov, G.Ş. Əlibəyova***
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*
*abbas.seyidov@gmail.com*

***Açar sözlər:*** *kurqan, qədim tayfalar, ibtidai icma quruluşu, tunc dövrü, ideoloji baxış*

Azərbaycanın ayrılmaz guşəsi olan Naxçıvan bölgəsinin tunc dövrü tayfalarının (e.ə.IV minilliyin ortaları ilə e.ə.II minilliyin sonları) ideoloji baxışlarını özündə əks etdirən, kurqanlarla müşahidə edilən dəfn adətlərinin tədqiqi elmi baxımdan mühüm əhəmiyyət kəsb edir. Bu dövr ibtidai-icma quruluşunun süqutu, sinifli cəmiyyətin tədricən təşəkkülü ilə xarakterizə edilir. Yüz ildən artıq bir dövrdə öyrənilən bu abidələrin hələ də müxtəlif elmi istiqamətlərdə tədqiqinə ehtiyac vardır. Muxtar Respublikanın Şərur, Ordubad, Culfa rayonları ərazisində İlk Tunc, bu bölgələr də daxil olmaqla Şahbuz, Kəngərli, Sədərək, Babək rayonları ərazisində Orta Tunc, Son Tunc və Erkən Dəmir dövrlərinə aid onlarla kurqan tədqiq edilib öyrənilmişdir.

## СЛЕДЫ ИДЕОЛОГИЧЕСКИХ ВЗГЛЯДОВ ДРЕВНЕНАХЧЫВАНСКИХ ПЛЕМЕН В КУРГАННЫХ ПАМЯТНИКАХ

(IV-II тыс. до н.э.)

***А.Г. Сеидов, Г.Ш. Алибекова***

***Ключевые слова:*** *курган, древние племена, первобытнообщинный строй, бронзовый век, идеологические взгляды*

Исследования сопровождающихся курганами погребальных обычаев, отражающих идеологические взгляды племен бронзового века (середина IV – конец II тыс. до н.э.) Нахичеванского региона – неотъемлемой части Азербайджана, имеют важное значение с научной

точки зрения. Этот период характеризируется упадком первобытно-общинного строя и постепенным возрождением классового общества. Десятки курганов эпох бронзы и раннего железа были исследованы и изучены на территории Нахичеванский АР.

## TRACES OF THE IDEOLOGICAL VIEWS OF THE ANCIENT NAKHCHIVAN TRIBES IN MOUNDS

(IV-II millennia BC)

***A.G. Seyidov, G.Sh. Alibeyova***

***Keywords:*** *mound, ancient tribes, primitive communal system, Bronze Age, ideological views.*

Studies of burial customs accompanied by mounds, reflecting the ideological views of the Bronze Age tribes (mid of the $4^{th}$ - end of the $2^{nd}$ millennia BC) of the Nakhchivan region – an integral part of Azerbaijan, are of great importance from the scientific point of view. This period is characterized by the decline of the primitive communal system and the gradual revival of class society. Dozens of mounds of the Bronze and Early Iron Ages were investigated and studied in the Nakhchivan Autonomous Republic.

Naxçıvan abidələrinin öyrənilməsindən bu günə qədər böyük zaman kəsiyinin keçməsinə baxmayaraq, tunc dövrü mədəniyyətinin mənşəyi və xronologiyası ilə bağlı bir sıra problemlər, o cümlədən mədəniyyətlərin bir-biri ilə qarşılıqlı münasibəti və genetik bağlılığı, qədim insanların dini-ideoloji baxışları tam lazımi səviyyədə tədqiq olunmayıb. Haqqında bəhs etdiyimiz dövr ibtidai-icma quruluşunun ən son və ən inkişaf etmiş mərhələsi olmaqla bərabər, sosial-iqtisadi, ictimai, siyasi və mədəni sahələrdə baş vermiş bir sıra ciddi dəyişikliklərlə fərqlənir. Belə ki, ana nəsli öz yerini ata nəslinə vermiş, patriarxal ailə münasibətləri təşəkkül tapmış, cəmiyyətdə ibtidai metallurgiyanın əsası qoyulmuş, məhsuldar qüvvələrin inkişafı nəticəsində sinifli cəmiyyətin ilk rüşeymlərinin yaranmasına rəvac verən ilk ictimai əmək bölgüsü meydana çıxmış, əkinçilik, maldarlıq, sənətkarlıq inkişaf edərək, dövrünə görə ən yüksək pilləyə çatmışdır. Bir qədər sonra baş vermiş ikinci ictimai əmək bölgüsü sənətkarlığın müstəqil sahəyə çevrilməsinə, iqtisadi-mədəni əlaqələrin genişlənməsinə şərait yaratmışdır.

Tuncun meydana çıxmasının erkən mərhələsini təşkil edən İlk Tunc dövrü Kür-Araz mədəniyyətinin (e.ə.IV minilliyin ortalarından – e.ə.III

minilliyin ortalarına qədər olan dövr) formalaşdığı və yayıldığı Naxçıvan-Urmiya və Şərqi Anadolu ərazilərində son illərin ən uğurlu arxeoloji qazıntılarından biri də bu yerlərdə kurqan tipli abidələrin tədqiq olunmasıdır. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, ibtidai insanların dünyagörüşünün inkişafı ilə əlaqədar bu yerlərdə İlk Tunc dövründə yeni tipli qəbirlər və dəfn adətləri meydana çıxmışdır.

Naxçıvanın Orta Tunc dövrü (e.ə.III minilliyin ortalarından - e.ə.II minilliyin ortalarına qədər) kurqanlarının dəfn adətləri, əhalinin ideoloji dünyası və bütövlükdə bu mədəniyyətin öyrənilməsi sahəsində müəyyən problemlər hələ də açıq qalır. Baxmayaraq ki, bu dövrün qəbir abidələrindən Azərbaycanın cənub rayonları üçün xarakterik olan boyalı qabların tapılması ilə bu mədəniyyətin ana vətəninin Azərbaycanın cənub rayonları olduğunu sübut edən dəyərli nəticələr əldə edilmişdir ki, bunların da ümumiləşdirilməsi və sistemləşdirilməsi mühüm elmi nailiyyətlərdəndir. Orta Tunc dövründə sosial təbəqələşmə güclənmiş, istehsal vasitələri və əmək alətləri təkmilləşmiş, insanın insan tərəfindən istismarı artmış, şəhər tipli yaşayış yerləri çoxalmışdır. Bu dövrdə sənətkarlığın əkinçilik və maldarlıqdan ayrılması nəticəsində ikinci böyük ictimai əmək bölgüsü baş vermiş, boyalı qablar mədəniyyəti formalaşmış, böyük tayfa ittifaqları meydana gəlmişdir. İctimai və əmlak bərabərsizliyinin dərinləşməsi də dövrün xarakterik xüsusiyyətlərindəndir.

Son Tunc dövrü (Son Tunc və Erkən Dəmir dövrü e.ə. XIV-XII əsrləri əhatə edir) kurqanlarının genezisi, xronologiyası və arxeoloji materialın təhlili, xüsusilə, son illərdə Naxçıvan ərazisində müxtəlif kurqanlardan aşkar olunan Xocalı-Gədəbəy mədəniyyətinə aid arxeoloji materialın varlığı bu ərazinin haqqında bəhs edilən dövr mədəniyyətinin öyrənilməsində yeni səhifələrin açılmasına imkan yaratmışdır. İbtidai icma quruluşunun sonuncu mərhələsi hesab olunan bu dövrdə maldarlıq və əkinçilik kimi təsərrüfat sahələri, sənətkarlıq bir-birindən ayrı inkişaf etdiyi üçün əmək məhsullarının mübadiləsi daha da genişlənir.

Naxçıvanda tunc dövrünün bütün mərhəllərinə aid olan qəbir abidələri aşkar edilmişdir. Bu qəbir abidələrinin öz aralarında həm oxşar, həm də fərqli cəhətləri vardır. Bu müxtəliflik çox zaman qədim insanların həyatında baş verən dəyişikliklər, bir yerdən digər yerə köç etmələri, təsərrüfat həyatındakı təkamül, cəmiyyətdəki sinfi bərabərsizliyin artması, dini görüşlərdə, inanclarda baş verən yeniliklər və ya digər hadisələrin təsirindən asılı olurdu. Müxtəliflik özünü qəbir abidəsinin həm quruluşunda, həm formasında, həm də daxili inventarında üzə çıxır [10, 201-214].



***Şəkil 1.* 4 saylı kromlexli Nəhəcir kurqanı**

Naxçıvanın tunc dövrü kurqan mədəniyyəti Ön Asiya və qonşu Qafqaz xalqlarının qədim mədəniyyətləri ilə birbaşa bağlı olduğundan, arxeoloji materialın ümumiləşdirilməsi və qəbir tiplərinin müəyyənləşdirilməsi zamanı qarşılıqlı elmi nailiyyətləri dəyərləndirməyə çalışmışıq.

Muxtar Respublika ərazisində ən qədim dəfn adətlərinə I Kültəpənin eneolit təbəqəsində rast gəlinmişdir [1, 39-52]. 85 qəbirdə skeletlər adətən bükülü şəkildə, arxası üstə və müxtəlif istiqamətlərdə aşkar olunmuşdur. Bu qəbirlər dairəvi formalı evlərin içərisində, yaşayış yerinin daxilində aşkar edilmişdir. Bükülü vəziyyətdə dəfn olunan ölülərin bəziləri qırmızı rəngə boyanmış, bəzilərinin isə başının altına daş qoyulmuşdur. Eneolit dövrünün sonlarına yaxın dəfn prosesləri əsasən yaşayış sahəsindən kənarda olmuşdur.

İlk Tunc dövrünə aid Culfa rayonunun Xornu nekropolundakı qəbir abidələri kurqan tiplidir. Alçaq təpə şəklində olan bu kurqanlar yerli əhalinin diqqətini çəkmiş və dağıdılmışdır. Onlardan birinin materiallarının araşdırılması zamanı məlum olmuşdur ki, dəfnlər daş qutu tipli qəbirlərdə inqumasiya (cəsədi olduğu kimi dəfn etmək) yolu ilə aparılmışdır.

Bu dövrə aid Maxta-Qarabulaq kurqanlarının tədqiqi dəfn adətləri və qədim insanların ideoloji görüşləri ilə bağlı ilkin ehtimallar irəli sürməyə imkan verir. Yerüstü hündürlüyü bir metrə çatan, kromlexlə (ətrafı daşlarla dairələnmiş) əhatələnmiş kurqanların diametri 15 metrədək olub, üzəri daş qarışıq torpaqla örtülümüşdür. Qəbir kameraları isə ya ana torpaq üzərində, ya

da ki, torpaqda qazılmış çalalarda olmuşdur. Bəzi qəbirlərdə 15-20 sm dərinlikdə çala qazılmış və iri sal daşlar şaquli vəziyyətdə düzülərək, düzbucaqlı formalı kamera qurulmuşdur. Tədqiq olunmuş İlk Tunc dövrünə aid 5 kurqanaltı qəbirdən ikisi tamamilə boş olub. Bu qəbirləri fərqləndirən əsas cəhət burada insan skeletinin olmamasıdır [9, 216-226].



***Şəkil 2.* 4 saylı kromlexli Nəhəcir kurqanı**

Plovdağdan cənubda yerləşən İlk Tunc dövrünə aid Xaraba-Gilan qəbir abidələri iri sal daşlarla və daş lövhələrlə örtülmüş daş qutu tiplidirlər. Daxili inventarı olduqca zəif olan bu qəbirlərdə bükülü şəkildə olan insan skeletinə rast gəlinmişdir [6, 48-56].

Bəzi qəbirlərdə insan skeletlərinin olması, bəzilərində isə olmaması ilə bağlı arxeoloqların fikirləri müxtəlifdir. Xüsusən, skelet olmayan qəbirlər barəsində fikir yürüdən müxtəlif tədqiqatçılar hesab edir ki, bunlar “yalançı” kurqanlardır. Belə kurqanları tikməkdə əsas məqsəd isə əsil qəbir abidələrini talandan qorumaq olmuşdur. Digər bir düşüncəyə görə bunlar döyüşlərdə və ya digər bədbəxt hadisələr zamanı itkin düşən, cəsədləri tapılmayan insanlara və ya yaşadığı yerdən kənarda ölən insanlar üçün qurulan qəbir abidələridir. Hər bir halda, bu qəbirlərdə insan skeletlərinə rast gəlinməməsi burada ümumiyyətlə, insanların basdırılmadığına və bu qəbirlərin simvolik xarakter daşıdığına işarədir. Belə kurqanlar birbaşa insanların dini-ideoloji baxışları ilə əlaqəli olub,

itkin düşmüş insan üçün düzəldilmiş "gor evi"dir. Müəyyən araşdırmaçılar isə belə qəbirlərdə kpemasiya (ölüyandırma adəti) olduğunu iddia edirlər. Lakin Naxçıvan ərazisində yerləşən Şahtaxtı, Qarabağlar, Maxta-Qarabulaq, Nəhəcir və s. kimi qəbirlərin heç birində kremasiyanı təsdiq edən urnalara (ölünün külünün qoyulduğu xüsusi qab) rast gəlinməyib. Qəbir abidələrində aşkar edilmiş gil qablar, bəzək əşyaları, silahlar və s. maddi-mədəniyyət nümunələri isə yenə də ideoloji xarakter daşıyaraq, axirət dünyası ilə bağlı olub, ölən adamın o dünyada istifadəsi üçün nəzərdə tutulmuşdur.

Plovdağ nekropolunun Orta Tunc dövrü kurqanlarının qurbangahları da vardır. Onların da ətrafı kromlexlə əhatə olunmuşdur. Bu qəbirlərdə skeletlərə rast gəlinir. Skeletlər böyrü üstə, qolları dirsəkdən, ayaqları isə dizdən bükülü vəziyyətdə dəfn edilib. Həmin dövrə aid Nəhəcir nekropolu daş qutu tipli və kromlexlə əhatə olunmuş kurqanaltı qəbirlərdən ibarətdir. Burada iyirmidən artıq kromlexli kurqanın ən kiçiyinin dairəsinin diametri 5,6 metr, ən böyüyününkü isə 20,5 metrdir. Kurqanın yer səthindən 3,5 dərinlikdə olan qəbir kamerasının uzunluğu 4 m, eni qərb tərəfdə 1,4 m, ortada 1,7 m, şərq tərəfdə 2 m arasında idi. Qəbirdə insan skeletinə rast gəlinməsə də, 22 ədəd müxtəlif formalı və həcmli saxsı qab aşkar olundu [11, 51-87]. Naxçıvanda Orta Tunc dövrünün ilk mərhələsinə aid qəbirlərdən insan skeleti aşkar olunmayıb. Son Tunc və Erkən Dəmir dövrü kurqanlarının da əksəriyyətində bu tendensiya davam etmiş, bəzi qəbirlərdə dəfn adətinə rast gəlinsə də, bir qismində skelet yoxdur. Xüsusən də, Qarabağlar kəndi ərazisində bir-birinə yaxın yerləşən və eyni dövrə aid Qalacıq qəbiristanlığında yolun bir tərəfində olan qəbirlərin hamısında skeletlərə və maddi-mədəniyyət qalıqlarına rast gəlinsə də, digər tərəfdə yerləşən qəbiristanlıqda yalnız eyni dövrə aid maddi-mədəniyyət qalıqları aşkar edilmişdir [12, 33-34].

Ümumiyyətlə, Naxçıvanın tunc dövrü yaşayış yerlərində aparılan arxeoloji qazıntılar qədim insanların dini inancları haqqında yetərli məlumat vermədiyindən, qəbir abidələrinin tədqiqi daha əhəmiyyətlidir. Bu dövrə aid qəbirlər tək, cüt, kollektiv dəfnlərlə müşayiət edilir. Onlar əsasən torpaq və daş qutu tiplidir. Bəzi qəbirlərin üzərində torpaq, ya da daş qarışıq torpaq kurqanlar düzəldilib. Bəzilərinin ətrafı (Nəhəcir və Şahtaxtı nekropolunda kromlexlə əhatə edilmiş, bəzilərininki isə sal daşlarla dördkünc planda dövrəyə alınmışdır [2, 44-45]. Müxtəlif baxışlı tədqiqatçılar Qəbirlər üzərində kurqan düzəldilmə-sinin, həmçinin onların kromlexlə əhatə edilməsinin Günəşə inamla bağlı olduğunu göstərənlər də vardır [7, 99].

Kükü, Şəhtaxtı, Çalxanqala Orta Tunc dövrü qəbirlərinin bir qrupunda da insan skeletinə rast gəlinməyib.

Boş qəbirlərə Gədəbəyin daş qutularında da rast gəlinib. Lakin oradakı qəbirlərin heç birində avadanlıq olmayıb. Arxeoloq C.Ə.Xəlilov bəzi tədqiqatçıların fikirlərini təhlil edərək, bu nəticəyə gəlir ki, həmin qəbirlər qəbilə üzvləri və yaxud tək-tək şəxslər tərəfindən ehtiyat məqsədilə tikilib [5, 64].

Kükü nekropolunda tədqiq olunan kurqanların birindən bütöv öküz skeleti aşkar olunub. Burada qəbir avadanlığının üzərini örtən torpaq təbəqəsinin üstündə nazik kül qatına rast gəlinib. Arxeoloqlar qeyd edir ki, dəfndən sonra qəbirin üzərində od yandırılmış, daha sonra kurqan düzəldilmişdir [4, 34].




***Şəkil 3.*** **4 saylı kromlexli Nəhəcir kurqanının planı**

Şahtaxtı nekropolunda Ə.K.Ələkbərovun tədqiq etdiyi qəbirlərin birindən [3, 47] və S.H.Aşurovun tədqiq etdiyi 1 saylı Maxta-Qarabulaq kurqanından [9, 217] bütöv at skeleti aşkar olunub. Qəbirlərdən bütöv heyvan skeletinin tapılması, şübhəsiz ki, qədim insanların axirət dünyasına inamı ilə bağlı olmuşdur.

Son Tunc və Erkən Dəmir dövrünə aid qəbir abidələri tək və kollektiv dəfnlərlə müşayiət olunur. Qəbirlərə məişət əşyaları, silah qoyulması, ev heyvanlarının, o cümlədən at, dəvə, qoyun b. ölən adamla birlikdə dəfn edilməsi axirət dünyasına inamla bağlıdır. Ölən adamın atı, ev heyvanları və qulluqçuları ilə basdırılması da bu inamı ifadə edir. Qəbirlərdə vəhşi heyvan sümüklərinə rast gəlinməsi, (Kükü, Sarıdərə, Haqqıxlıq nekropolları və s.) ehtimal ki, insanların məşğuliyyəti ilə bağlı müəyyən inancları əks etdirir. Belə ki, III Sarıdərə nekropolunda (3 saylı qəbir) dələ kəlləsinə rast gəlinib [8, 47]. Ə.K.Ələkbərovun fikrinə görə, vəhşi heyvan sümüklərinin qəbirlərdən tapılması onların ritual xarakter daşıdığını göstərir [3, 54].

Beləliklə, tədqiq olunan ərazinin tunc dövrü insanlarının dini-ideoloji təsəvvürləri haqqında hələlik onu demək olar ki, Naxçıvan ərazisində yaşayan insanlar göy cisimlərinə, oda, axirət dünyasına, iri və xırdabuynuzlu heyvanlara, müxtəlif ruhlara, dağlara və təbiətin digər atributlarına sitayiş etmişlər. Belə

sitayişlər onların mənəvi dünyasını zənginləşdirmiş, qədim tayfalar tapındıqları varlıqları düşündükləri, gördükləri kimi gil qabların, daşların üzərinə köçürmüş, qəbir abidələrində onları yaşatmağa çalışmışlar.

## ƏDƏBİYYAT


1. **Абибуллаев О.А.** Энеолит и бронза на территории Нахичеванской АССР. Баку, "Элм", 1982, 314 с.
2. **Агаев Г.Г.** Археологические иследования Гявургала. Тезизы докладов Всесоюзной археологической конференции, Баку, “Коммунист”, 1985. с. 44-45.
3. **Алекперов А.К.** Исследование по археологии и этнографии Азербайджана. Баку, Издательство АН Азербайджанской ССР, 1960, 249 с.
4. **Bakhşaliyev V.B.,** Nahçıvan Arkeolojisi, Arkeoloji va Sanat Yayınları, İstanbul, 1997, 140 səh.
5. **Xəlilov C.** Qərbi Azərbaycanın Tunc dövrü və Dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri., (Şamxor və Zəyəm çayları hövzələri). Azərbaycan SSR EA Nəşriyyatı, Bakı, 1959, 170 cəh.
6. **İbrahimli B., İmanova S.,** Ordubad rayonu ərazisində Orta Tunc dövrünə aid qəbir abidələri., “Tarix, İnsan və Cəmiyyət” jurnalı, №1 (14), 2016, s.48-56.
7. **Muradova F.M.,** Гобустан tunc dövründə. Bakı, “Elm”, 1979, 117 cəh.
8. **Novruzlu Ə., Baxşəliyev V.,** Şahbuz bölgəsinin arxeoloji abidələri, Bakı, “Elm”, 1992, 144 səh.
9. **Seyidov A.Q., Baxşəliyev V.B., Məmmədov S.M., Aşurov S.H.,** Qədim Şərur, Bakı, “Nurlan”, 2012, 466 səh.
10. **Seyidov A.Q.,** Naxçıvan e.ə.VII-II minilliləirdə. Bakı, “Elm”, 2003, 339 səh.
11. **Seyidov A.Q., Baxşəliyev V.B.,** Nəhəcirdə arxeoloji araşdırmalar., Bakı, “İqtisad Universiteti”, 2002, 201 səh.
12. **Seyidov M.M.** Naxçıvan ərazisində Son Tunc və Erkən Dəmir dövrü mədəniyyəti., Bakı, “Bakı Universiteti”, 2012, 188 səh.

**UOT 94 (479.24)**

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN TÜRKİYƏ İLƏ ƏLAQƏLƏRİ BƏZİ İRAN TARİXÇİLƏRİNİN ƏSƏRLƏRİNDƏ

***E.Y.Mədətli***
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*emadatli@gmail.com*

***Açar sözlər:*** *Azərbaycan Xalq Cumhuriyyəti, Türkiyə, İran tarixşünaslığı, erməni təcavüzü, saxtalaşdırma, Nuri Paşa*

Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920), onun xarici siyasət fəaliyyəti, xüsusilə Türkiyə ilə əlaqələri, eyni zamanda Osmanlı Türkiyəsinin, ondan sonra isə Mustafa Kamal Paşanın öndərliyində Türkiyə Böyük Millət Məclisi hökumətinin Azərbaycan siyasəti mövzusu təxminən yüz ildir İran tarixçiliyində, elmi, siyasi xarakterli araşdırmalarda, mətbuat səhifələrində yer alan yazılarda müzakirə obyektinə çevrilərək fərqli istiqamətlərdən dəyərləndirilməkdədir.

Bu cür qeyri-elmi araşdırmalara ötəri bir nəzər salsaq, türkə və Azərbaycana qarşı təbliğatlarda İrandakı bəzi tarixçilərin, eyni zamanda Azərbaycan mənşəli araşdırmaçıların daha çox səy göstərdiklərinin şahidi olarıq. Bu təbliğatlarda keçən əsrin birinci yarısında Təbrizli Əhməd Kəsrəvi qabaqcıl rol oynamışdır. Ondan sonra bəzi tarixçilər də bu yolla gedərək, tariximizi saxtalaşdırmışlar.

Beləcə, türk tarixi və Azərbaycan mövzusunda İranda zaman-zaman zərərli bir məktəb formalaşmışdır. Bu mövzu əhəmiyyətli bir tarixi dövrü əhatə etdiyi və çox geniş olduğu üçün təqdim edilən məqalədə yalnız son illərdə diqqəti daha çox çəkən bir neçə əsərdən bəhs ediləcək və onların elmi tənqidi veriləcəkdir.

## СВЯЗИ АЗЕРБАЙДЖАНСКОЙ НАРОДНОЙ РЕСПУБЛИКИ С ТУРЦИЕЙ В ТРУДАХ НЕКОТОРЫХ ИРАНСКИХ ИСТОРИКОВ

***Э. Я. Мадатли***

***Ключевые слова***: *Азербайджанская Демократическая Республика, Турция, историография Ирана, армянская агрессия, фальсификация, Нури Паша*

Азербайджанская Демократическая Республика (1918-1920), ее внешнеполитическая деятельность, ее отношения с Турцией, а также с Османской Турцией и тема азербайджанской политики правительства Великого Национального Собрания Турции под руководством Мустафа Кемал Пашы оцениваются в различные аспекты становятся предметом обсуждения в иранской историографии, научных, политических исследованиях и публицистических статьях, опубликованных на страницах прессы уже сто лет.

Если мы рассмотрим эти виды нехарактерных исследований антитурецкой и антиазербайджанской пропаганды, мы свидетельствуем, что ряд историков, в том числе исследователи Азербайджанского происхождения в Иране, с большим усердием. В этих пропагандистских кампаниях Ахмед Касрави изТебриза сыграл ведущую роль в первой половине прошлого века, многие историки также исказили эту историю.

Таким образом, в Иране время от времени формируется злонамеренная школа по вопросу истории Турции и Азербайджана. В статье рассматриваются несколько работ, которые в последние годы привлекают больше внимания, обеспечивает научный анализ этих работ, поскольку этот предмет очень обширен и охватывает важный исторический этап представленной статьи.

## RELATIONS OF THE AZERBAIJAN PEOPLE'S REPUBLIC WITH TURKEY IN THE WORKS OF SOME IRANIAN HISTORIANS

***E.Y. Madatli***

***Keywords****: Azerbaijan Democratic Republic, Turkey, historiography of Iran, armenian aggression, falsification, Nuri Pasa*

Azerbaijan Democratic Republic (1918-1920), its foreign policy activities, its relations with Turkey, as well as with Ottoman Turkey and subject of Azerbaijan policy of the Government of the Grand National Assembly of Turkey under the leadership of Mustafa Kemal Ataturk are assessed in various aspects becoming a subject of discussion in the the Iranian historiography, scientific, political researches and publicistic articles published in the pages of press for a hundred year.

If we look through these kinds of non-scientific researches at the anti-Turkish and anti-Azerbaijani propaganda, we witness that a number of historians including the researchers of origin of Azerbaijan in Iran are more and more zealous. At these propoganda campaigns, Tabriz Ahmed Kasravi has

played a leading role in the first half of the last century, a number of historians have distorted the history going this way.

Thus, a malicious school has been formed in Iran from time to time at the issue of Turkish history and Azerbaijan. The article studies several works that attracted more attention in recent years, provides the scientific analysis of these works, as this subject is very vast and covers the important historical stage in the article presented.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, xarici siyasət fəaliyyəti, xüsusilə Türkiyə ilə münasibətləri, həmçinin Osmanlı Türkiyəsinin, ondan sonra isə Mustafa Kamal paşanın öndərliyində Türkiyə Böyük Millət Məclisi Hökumətinin Azərbaycan siyasəti mövzusu təqribən 80 ildir ki, İran tarixşünaslığında, elmi, siyasi xarakterli tədqiqatlarda, mətbuat səhifələrindəki publisistik yazılarda müzakirə obyektinə çevrilərək müxtəlif yönlərdən dəyərləndirilməkdədir. Maraqlıdır ki, bu qədər zaman ötməsinə, hadisələrin tarixçilərin, siyasətçilərin süzgəcindən dəfələrlə keçməsinə, ələnib-xəlbirlənməsinə baxmayaraq, hələ də İrandakı mərkəzi və yerli nəşrlərdə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti, onun xarici siyasəti, xüsusilə də Türkiyə ilə əlaqələri, eləcə də Türkiyənin o zamankı Qafqaz siyasəti, Mustafa Kamal paşanın şəxsiyyəti və mübarizəsi müxtəlif səviyyəli araşdırıcılar tərəfindən birtərəfli təhlil edilir, bir sıra hallarda isə məqsədyönlü şəkildə saxtalaşdırılır [1]). İranda davamlı olaraq nəşr edilib yayılan bu cür əsərlərə nəzər saldıqda bir sıra tarixçilərin, xüsusilə də Azərbaycan mənşəli tədqiqatçıların daha çox canfəşanlıq etdiklərinin şahidi oluruq.

Azərbaycan xalqının tarixinə, dil və mədəniyyətinə qara yaxan araşdırmalarda keçən əsrin birinci yarısında Təbrizli Əhməd Kəsrəvi aparıcı rol oynamışdır [2] XX əsrin sonları və XXI əsrin əvvəllərində bu xətti bəzi tarixçilər, xüsusilə Kəsrəvinin ardıcıllarından biri olan İnayətullah Rza davam etdirərək, bir sıra kitab və məqalələrində Azərbaycana və Azərbaycan-Türkiyə münasibətlərinə zidd olan tamamilə əsassız fikirlər və müddəalar irəli sürmüşdür [3].

Bunlarla yanaşı, son illərdə türk düşmənçiliyi ilə ad qazanmış bir sıra erməni müəlliflərinin tarixi və bədii əsərləri də fars dilinə çevrilərək İranda nəşr edilmişdir. Bu sahədə ən çox canfəşanlıq edən alimlərdən biri türksoylu Kavə Bəyatdır. Öz tədqiqatlarında daha çox mühacir erməni tarixi-siyasi ədəbiyyatının, o cümlədən Qərbdə Türkiyə Cümhuriyyətinin, Atatürkün, 1918-1921-ci illərdəki Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətlərini saxtalaşdıran erməni ideoloqlarının təsiri altında olan bu tarixçi son illərdə diqqəti daha çox cəlb edir.

Əlbəttə, türk tarixi və Azərbaycan məsələsində İranda zaman-zaman bir zərərli məktəb formalaşdırılmışdır. Bu məktəbin vaxtilə müəllimləri olduğu

kimi, indi də şagirdləri vardır. Bəzi tarixçilər hələ də Azərbaycan Respublickasına, onun müstəqil daxili və xarici siyasətinə, qardaş Türkiyə Cümhuriyyəti ilə münasibətlərinə kölgə salmağa çalışırlar. Bu mövzu mühüm bir tarixi mərhələni əhatə etdiyi və çox geniş olduğu üçün burada diqqəti daha çox cəlb edən bir neçə əsərdən bəhs ediləcəkdir. Bunlardan biri Kavə Bəyatın «Sovetlərlə Türkiyənin sövdələşməsi: Azərbaycan Cümhuriyyətinin dağılması» məqaləsidir' [4]. Bu iri həcmli məqalə bir sıra İran tarixçiləri tərəfindən 1918-1921-ci illərdə Qafqazda, o cümlədən Azərbaycanda mürəkkəb tarixi-siyasi vəziyyətin subyektiv qiymətləndirilməsinə və məqsədyönlü şəkildə saxtalaşdırılmasına bir nümunədir.

Müəllif yazır ki, Mudros müqaviləsindən sonra Osmanlı imperatorluğunun düşdüyü vəziyyətdən istifadə edən Müttəfiqlər Türkiyənin ermənilər yaşayan hissələrini ermənilərə, qərb hissələrini yunanlara bağışlamağı planlaşdırmışdılar və İstanbulda yerləşən osmanlıların (?) da bu planların qarşısını almağa qüvvəsi yox idi. Müttəfiqlərin Osmanlı imperatorluğunu bölməklə əlaqədar aralarındakı fikir ayrılığı bəzi «nasionalist» qüvvələrin birləşərək mübarizəyə qalxmasına zəmin yaratmış oldu (?). Atatürk və Kazım Qarabəkir Paşanın qoşulması ilə Müqavimət hərəkatı qüvvətli bir hərəkata çevrildi. Çox keçmədi ki, Mustafa Kamal Paşa Müqavimət hərəkatının rəhbəri oldu.

Kavə Bəyatın bu ümumi dəyərləndirilməsi qismən doğru olsa da, onun yazdığı kimi «nasionalist» qüvvələr Müttəfiqlərin fikir ayrılığının nəticəsində deyil, çox-çox əvvəl demokratik, islahatçı və milli bir hərəkat kimi meydana çıxmışdı və bu barədə kifayət qədər elmi araşdırmalar mövcuddur.

Məqalədə göstərilir ki, Sovet dövləti hələ Mustafa Kamal Paşa Anadoluya gəlməmişdən əvvəl bu hərəkatın əhəmiyyətini başa düşərək, bunun Qafqaz respublikalarının taleyinə təsirsiz qalmayacağını dəyərləndirdi. «İzvestiya» qəzeti yazırdı ki, ingilis, fransız və alman imperialistlərinin təsiri altına düşən bu, necə deyərlər, «Qafqaz dövlətləri» təqribən eyni hisləri yaşayan Rusiya Sovet Respublikası ilə Türkiyə arasında bir məsafə yaradırdı. Riçard C.Hovanesyanın fikirlərinə əsaslanan məqalə müəllifinin fikrincə Rusiya Türkiyədə fəhlə inqilabı edilməsinə və sovetlərin təşkilinə maraq göstərirdi və əslində, Rusiyanı Türkiyə ilə daha çox onların düşmənlərinin ümumilliyi yaxınlaşdırırdı [5].

Osmanlı dövlətinin Azərbaycan Xalq Cümhuriyyətinin dövlət müstəqilliyinin və ərazi bütövlüyünün qorunmasındakı müstəsna rolunun üstündən sükutla keçən Kavə Bəyat bu geniş yazısında bir dəfə də olsun 1918-ci il iyunun 4-də Osmanlı Türkiyəsi ilə Azərbaycan Xalq Cümhuriyyəti arasında bağlanmış Dostluq və əməkdaşlıq müqaviləsinə işarə etmir. Gənc Azərbaycan dövlətinin birləşmiş Sovet-erməni qüvvələrinə qarşı 1918-ci ilin iyunundan həmin ilin sentyabrınadək apardığı mübarizədə Türkiyənin həlledici rolunu göstərmir. Yalnız onu təlqin etməyə çalışır ki, Türkiyənin Azərbaycan hadisələrində fəal

iştirakı onun Rusiya ilə əlaqələr qurmaq, gələcəkdə Rusiya yardımlarından Azərbaycan ərazisi vasitəsilə yararlanmaq istəyindən irəli gəlirmiş.

Kavə Bəyat qeyd edir ki, Mustafa Kamal Paşa hələ Ərzurum konqresində «qəhrəman rus xalqının» mübarizə təcrübəsini türklərin qarşıdakı mübarizəsində "birbaşa məşq" kimi qiymətləndirirdi. Bolşeviklərin 1919-cu ilin yayındakı uğurlu əməliyyatlarını izləyən Mustafa Kamal Paşa Xəlil Paşanı Azərbaycana göndərmişdi ki, orada o, Nuru Paşa ilə birlikdə bolşeviklərin yerli təşkilatı ilə əlaqə yaratsın. Burada K.Bəyatın Nuru Paşanın hələ 1918-ci ilin iyun ayından qoşun hissələri ilə bərabər Azərbaycanın Gəncə şəhərində yerləşdiyini, onun Azərbaycanın istiqlalının möhkəmləndirilməsi və Bakının bolşevik-erməni işğalından azad edilməsi uğrundakı mübarizələrdə fəaliyyətini pərdələyərək, yalnız bolşeviklərlə əlaqə yaratmaq üçün göndərildiyini iddia etməsi bir daha onu göstərir ki, müəllif tarixi həqiqətlərə söykənmək fikrindən çox uzaqdır.

Yenə Hovanesyanın məqaləsinə əsaslanan K.Bəyat yazır ki, Mustafa Kamal Paşa hələ Ərzurum konqresində Qafqaz cümhuriyyətlərinə necə yanaşmanın əsasını qoymuşdu. Guya, Mustafa Kamal Paşa deyibmiş ki, Türkiyənin mənafeyi Ermənistanın məğlub edilməsini, Gürcüstanın bitərəf saxlanmasını və Azərbaycanın isə Sovet Rusiyasına daxil edilməsini tələb edir. Ərzurum konqresinin materiallarında əksini tapmayan, fikrimizcə, əsası da olmayan bu fikirlər müəllifin fantaziyasıdır, yaxud onun istifadə etdiyi qeyri-elmi ədəbiyyatın təsirinin nəticəsidir.

R.Hovanesyanın fikirlərini öz fikirləri kimi təqdim edən K.Bəyat Ərzurum konqresinin materiallarına istinad etməyi belə ağlına gətirmədən tarixi həqiqətləri saymazyana bir kənara qoyaraq davam edir ki, 1920-ci ilin yanvarında Müttəfiqlər Azərbaycan, Ermənistan və Gürcüstanın istiqlaliyyətlərini de-fakto tanıyanda Atatürk ordu komandanlarına verdiyi fərmanda bildirmişdi ki, imperialistlərin bu cümhuriyyətləri gücləndirməkdə məqsədi Türkiyəni bolşeviklərdən uzaqda saxlamaqdır və əgər bu plan müvəffəq olarsa, Qafqaz xalqları möhkəm sədlə bizim ölkəmizin qarşısında durmuş olacaqlar və bu Türkiyənin müqavimətini aşağı salacaqdır. Bu cəhətdən tövsiyə etmişdi ki, bütün mövcud qüvvələri Şərq cəbhəsinə cəmləşdirib bu maneəni aradan qaldırmaq lazımdır. Qafqaz cümhuriyyətlərindən, xüsusilə Azərbaycandan tələb edilməlidir ki, müttəfiqlərin planları müqabilində öz mövqelərini aşkar şəkildə nişan versinlər. Əgər Qafqaz xalqlarının niyyəti bizə mane olmaqdırsa, onda biz də onlara qarşı bolşeviklərlə razılığa gələrik. K.Bəyat Hovanesyanın adı çəkilən məqaləsinə əsaslanaraq yazır ki, general Kazım Qarabəkir 1919-cu ilin yayında, ingilis qoşunları Qafqazdan çəkiləndən sonra Naxçıvanın başçılarının xahişi ilə Zəngəzurun Ermənistandan qoparılması (?) və Naxçıvanın Azərbaycana birləşdirilməsi (?) sahəsində fəaliyyətlər göstərsə də, amma Atatürkün rəyinin əksinə olaraq, Qafqaz cəbhəsində boyhaboy hücuma keçməyi uyğun hesab

etmirdi. Bu əməliyyatı gələn ilin baharında, Xəzər dənizinin şimalında buzlar əriyincə, dəniz yolu ilə Qafqaza çıxarılacaq rus qoşunları ilə bərabər həyata keçirməyi münasib sayırdı.

Müəllif kobud səhvə yol verərək (bəlkə də düşünülmüş şəkildə) həmin vaxtlarda Zəngəzurun guya, Ermənistana aid olduğunu, Naxçıvanın da sanki Azərbaycana mənsub olmadığını qəbul edir. Üstəlik, Mudros müqaviləsindən sonra Qafqazdan çəkilən Türkiyə bütün Qafqaz boyu necə hücuma keçə bilərdi?

Ərzurum konqresində Mustafa Kamal Paşanın və Kazım Qarabəkir Paşanın Naxçıvanın taleyi ilə əlaqədar məsələ müzakirə etmələrini, bundan sonra Naxçıvana qeyri-rəsmi surətdə əsgəri hissə göndərilməsini, həmin türk qüvvələrinin 1921-ci ilin martına qədər, yəni Moskva müqaviləsində Naxçıvanın taleyi birdəfəlik müəyyən edilənə qədər qaldıqlarından və Azərbaycan torpaqlarının erməni işğalçılarından müdafiəsində fədakarlıqla iştirak etdiklərindən xəbərsiz olan K.Bəyat məhz erməni həmkarının yazdıqlarını yeganə tarixi həqiqət kimi qəbul etməyi üstün tutur.(6) Bu mövzuda Türkiyə və Azərbaycan mənbələrinə, digər nüfuzlu beynəlxalq qaynaqlara deyil, yalnız erməni ədəbiyyatına söykənən müəllif birtərəflilik nümayiş etdirir.

K.Bəyat Qarabağda Ermənistan dövlətinin təşəbbüsü və yardımı ilə ermənilərin qaldırdıqları qiyamın yatırılmasında iştirak edən türk əsgər və zabitlərinin fəaliyyətini də saxtalaşdırmaqdan çəkinir. O, Azərbaycan Xalq Cümhuriyyətinin torpaq bütövlüyünü qorumaq uğrunda fədakarlıqla vuruşan, qəhrəmanlıqla şəhid olan türk əsgərlərinin mübarizəsinə qara yaxaraq iddia edir ki, Qarabağda vuruşan türk qüvvələrinin məqsədi Qarabağı, Zəngəzuru, Naxçıvanı ermənilərdən təmizləyib Türkiyənin Rusiya ilə ərazi əlaqəsini bərqərar etmək idi.

Məqalədə Hovanesyana istinadən qeyd olunur ki, Rus Sovet qoşunlarının Azərbaycan sərhədinə yaxınlaşanda Azərbaycan hökumətinin bəzi üzvlərinin Qarabağdakı 38 minlik ordunu oradan çıxarıb Rusiya sərhəddinə gətirmək təklifi, ilk növbədə orada komandanlıq edən Xəlil Paşanın müqaviməti ilə qarşılaşmışdı. Onun yazdığına görə Britaniya komissarı mayor Luk, hətta Azərbaycan dövlətinə belə bir zəmanət veribmiş ki, Azərbaycan öz qoşunlarını Qarabağdan çıxarıb Rus ordusunun qarşısına göndərə bilər və arxayın ola bilər ki, ermənilər bundan istifadə edib Qarabağa və digər bölgələrə hücum etməyəcəklər. Burada K.Bəyatın isbat etməyə çalışdığı budur ki, guya, Türkiyə Rus qoşunlarının asanlıqla Azərbaycana girə bilməsi üçün Azərbaycan qoşunlarının Qarabağda saxlanmasına maraqlı olmuşdur. Göründüyü kimi, Qarabağda və Naxçıvanda Azərbaycanın hakimiyyətini möhkəmləndirmək uğrunda Türkiyə dövlətinin bu inkaredilməz fəaliyyətlərini də K.Bəyat tamamilə başqa bir yozumda İran oxucusuna təqdim edir. Bakıda fəaliyyət göstərən türk kommunistlərinin fəaliyyətlərini, Azərbaycan torpaqlarını

müdafiə edərək canlarını qurban verməkdən çəkinməyən türk əsgərlərinin fəaliyyəti ilə eyniləşdirir.

Əgər yekun vursaq, K.Bəyatın məqaləsində başlıca niyyət oxucuda belə bir fikir yaratmaqdır ki, 1920-ci ilin aprelində Azərbaycan Cümhuriyyətinin süqut etməsi, məhz Atatürk Türkiyəsi ilə Sovet Rusiyasının sövdələşməsinin nəticəsində olmuşdur. Tərcümə etdiyi erməni müəlliflərinin kitablarına [7] aludə olan K.Bəyat bu irihəcmli məqaləsində obyektivlik naminə bircə dəfə də etiraf etmir ki, beynəlxalq imperializmin məngənəsində boğulan gənc Türkiyə hökuməti ən təhlükəli qonşusu olan Sovet Rusiyasının cənuba və şərqə doğru hərəkətlərini durdurmaq imkanında deyildi. Eyni zamanda Sovet Rusiyasının yardımına ehtiyacı da vardı. Belə mürəkkəb tarixi şəraitdə milli maraqları naminə Rusiya ilə əməkdaşlıq münasibətləri qurmağa çalışmaqla yanaşı, Türkiyə Azərbaycanın torpaq bütövlüyünün qorunması, xüsusilə Naxçıvan, Zəngəzur və Qarabağın Azərbaycanın hüdudlarında qalması üçün müstəsna fəaliyyətlər göstərmişdir.

Naxçıvana əsgəri qüvvələr göndərilməsi Naxçıvan əhalisinin Ərzurum konqresinə müraciəti əsasında Atatürk və Kazım Qarabəkir Paşa tərəfindən məsləhət görülmüş və bu qüvvələr axıra qədər öz qardaşlıq borclarını şərəflə yerinə yetirmişlər. Diqqətəlayiq haldır ki, Nəriman Nərimanov Naxçıvanın qorunub saxlanmasındakı xidmətlərinə görə Türkiyə hökumətinə minnətdarlığını bildirərək Mustafa Kamal Paşaya və Kazım Qarabəkir Paşaya qiymətli hədiyyələr göndərmişdi [8, 17-18]. Məhz Türkiyənin səyi ilə Moskva və Qars müqavilələrində Azərbaycanın mənafeləri qorunub saxlanmış, Ermənistan və Gürcüstanla sərhəd məsələləri nizama salınmışdı [9, 32].

Tam əsas və qətiyyətlə deyə bilərik ki, Türkiyənin Qafqaz siyasətində dövrün bütün çətinliklərinə, qüvvələr nisbətinin qeyri-tarazlığına baxmayaraq, həmişə Azərbaycanın ərazi bütövlüyü, xalqın erməni təcavüzündən qorunması, Azərbaycanla qardaşlıq münasibətləri aparıcı rol oynamışdır.

Haqqında bəhs edəcəyimiz ikinci məqalə Yəhya Şəhidinin «İki Azərbaycan tarixinə dair bir tədqiqat» məqaləsidir [10]. Məqalədə yalnız ənənəvi ermənipərəst tədqiqatlara istinad edən keçmiş hərbçi polkovnik Türkiyənin Qafqaz, o cümlədən Azərbaycan siyasətini təhrif edərək, onu tamamilə əyri güzgüdə təqdim etməyə çalışır [11]. Yəhya Şəhidi yazır ki, Çarlıq Rusiyası öz səltənətinin axırlarında Fars körfəzinə, isti dənizlərə əl uzadırdı, Osmanlı türkləri isə öz təsirləri altında bir «vahid islam dövləti» qurmaq istəyirdilər. Bu məqsədlərə uyğun olaraq, Bakıda 1911-ci ildə bir partiya-«İslam partiyası və demokrat Müsavat» (?) təsis edildi. Bu partiya hər iki istiqaməti: dini və siyasəti əhatə edirdi. Bu partiyanın əsas məqsədi «Osmanlıların rəhbərliyi ilə vahid islam dövləti və milləti yaratmaq idi (?). Bu partiya 1917-ci ildə «Türk federalistləri» ilə birləşdi və «Türk demokrat federalist Müsavat partiyası» adlandı.

Müəllif heç bir tarixi həqiqətə söykənməyərək yazır ki, I Dünya müharibəsinə və daxili çəkişmələrə başı qarışan Rusiya Qafqaz məntəqələri olan Ermənistanı, Gürcüstanı, Arranı və Şirvanı müstəqil elan etdi və Müsavat dövlətini yaratdı. Bir il sonra Qafqazın Arran hissəsi «Müstəqil Azərbaycan Cümhuriyyəti» kimi elan olundu və iyun ayında Gəncədə bərqərar oldu.

Göründüyü kimi, müəllif Qafqazda müstəqil dövlətlərin meydana çıxmasını, bütün tarixi-elmi mənbələri bir tərəfə qoyaraq, Rusiyanın adı ilə bağlayır. Azərbaycanın tarixi-coğrafi ərazisini dilə gətirməkdən çəkinən müəllif Arran və Şirvanda Müsavat hökumətinin yaranmasını Rusiyanın xidməti hesab edir. Məqalədə Arran və Şirvanın Azərbaycana aid olmadığı iddia edilir.

Yəhya Şəhidi saxta fikirlərinə elmi don geydirmək üçün Əhməd Kəsrəvidən sitat gətirir. 1918-1920-ci illər hadisələrinə Pəhləvi rejiminin gözü ilə baxan Ə.Kəsrəvi yazırdı: «Bilmirdik ki, bizim Arranlı qardaşlarımız öz torpaqları üçün azad hökumət yaradanda və ona ad qoyanda, nə üçün tarixi və qədim adı bir kənara qoyaraq Azərbaycan adına əl uzatmışlar. Bundan nə fayda əldə etmək niyyətində olmuşlar. Bizim Arranlı qardaşlarımız özlərinin milli və azad həyatının başlanğıcında öz məmləkətlərinin tarix və keçmişinin arxasına təpik vurmaqla o qədər ziyan etmişlər ki, tarix hələ belə şey eşitməmişdir» [12, 265].

Yəhya Şəhidi yazır ki, 1920-ci ilin əvvəllərində Çar Rusiyası süqut etdi, bolşeviklər iş başına gəldilər (Göründüyü kimi, müəllif səhvə yol verir, həmin hadisələrin 1917-ci ildə baş verdiyindən belə xəbərsizdir E.M.). «Beləliklə, Qafqaz yenidən Rusiyanın tərkibinə qatıldı, bununla da Kiçik Asiya türklərinin və onların tərəfdarlarının niyyətləri baş tutmadı. Bolşeviklər Atatürkün təşviqi ilə Arran və Şirvanı işğal etdilər».Yəhya Şəhidi burada Tehranda çıxan «Ette-laat» qəzetində Türkiyənin «Hürriyyət» qəzetinə istinadən yazılan məqaləyə dayanaraq aşağıdakı cümlələrə diqqəti çəkir: «Türkiyə Milli Məclisinin üzvü Məzarçiyə görə Atatürk 70 il öncə Samsunda rus generalları ilə görüşmüş, 22 gün onlarla müzakirələr aparmışdır. Bu danışıqlar gətirib Moskva müqaviləsinə çıxarmışdır ki, bu gün də həmin müqavilənin bəzi şərtləri və əlavələri aşkarlanmamışdır».

Yəhya Şəhidinin tarixdən xəbərsizliyi aşkar görünür. Çünki Atatürkün Samsuna çıxması Moskva müqaviləsindən təqribən iki il əvvəl olmuşdu və o zaman həmin müqavilə barəsində heç bir düşüncə də yox idi. Eyni zamanda Samsunda rus generalları o zaman nə edirdilər? Moskva müqaviləsi Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalından təqribən on ay sonra bağlanmışdı və Sovet işğalının əsasını necə qoya bilərdi? Moskva müqaviləsinin maddələrinin xalqdan gizli saxlandığı haqqında Y. Şəhidinin iddialarına gəldikdə isə həmin müqavilənin bütün şərtləri və əlavələri rus və türk dillərində dəfələrlə çap edilmişdir. Burada açıqlanmamış maddələr yoxdur.

Müəllif iddia edir ki, şourəvilər müsavatçıların «Arran» adını dəyişib «Azərbaycan» qoyduqlarına göz yumdular və Qafqazın Arran və Şirvan bölgələri Azərbaycan olaraq qaldı.

Yəhya Şəhidi əlavə edir ki, Birinci Dünya müharibəsində osmanlılar almanlarla ittifaqda idilər və qərarlarına görə, qələbədən sonra Azərbaycan və Qərbi İranın bir hissəsi osmanlıların ixtiyarına keçməli idi. Amma almanların və müttəfiqlərinin məğlubiyyəti nəticəsində nəinki bu niyyət baş tutmadı, hətta Osmanlı imperatorluğu parçalandı, bütün qərb məmləkətləri Osmanlı hakimiyyətindən xaric oldular. Mustafa Kamal Paşa Atatürkün utandırıcı bir öhdəliyi ilə bütün ərəb torpaqları İngiltərə və Fransanın ixtiyarına keçdi, əlifba, hicab aradan qaldırıldı. Fikirlərini yekunlaşdıran Yəhya Şəhidi belə nəticə çıxarır ki, Arranın Azərbaycan adlandırılması kimi, Osmanlı imperatorluğunun Türkiyə adlandırılması da qeyri-məqbul imiş.

Yuxarıdakı sətirləri oxuyan və heç tarixlə məşğul olmayan hər bir şəxs Yəhya Şəhidinin yalnızca məlum ideoloji təlimatla qələmə sarıldığını təsdiqləyər. Onun iddiaları o qədər elmdən, tarixi reallıqdan və məntiqdən uzaqdır ki, heç elmi tənqidə də layiq deyildir. Osmanlı imperatorluğunun parçalanmasının Birinci Dünya müharibəsinin nəticələri və ümumiyyətlə, dünya siyasəti ilə əlaqəli olduğunu görmək istəməyən müəllif, eyni zamanda imperatorluğun çöküntüləri içərisindən yeni bir Türkiyə dövləti yaratmağa nail olan böyük Atatürkün danılmaz tarixi xidmətlərini və uzaqgörən islahatlarını da görmək istəmədiyini aşkar büruzə verir.

Azərbaycan Türkiyə münasibətlərinin tarixini saxtalaşdıran tədqiqatçılardan biri də İnayətullah Rzadır. O, 1946-cı ildə Seyid Cəfər Pişəvərinin başçılıq etdiyi Azərbaycan Milli Hökuməti süqut etdikdən sonra demokratlarla bir sırada Sovet İttifaqına mühacirət edən, lakin həmin demokratlardan tam fərqli bir həyat yolu keçərək Bakıda, Moskvada partiya təhsili alan və sonra İrana qayıdan, İranda uzun illər ərzində Qafqaz, Azərbaycan, Orta Asiya respublikaları üzrə «mütəxəssis» sayılan, bir çox ölkə, regional və uluslararası konfranslarda, o cümlədən Afinada ermənilərin seminarında Azərbaycan Respublikasına qara yaxan bir şəxsdir. İ. Rza uzun illər, müxtəlif adlarla çap edilən kitablarında Azərbaycan Cümhuriyyətinin adının, həm 1918-ci ildə, həm də indi, Sovet İttifaqının dağılmasından sonrakı dövrdə qurama bir ad kimi verildiyini, bu yerlərin və burada yaşayan xalqın İran ərazisindəki Azərbaycanla əlaqəsinin olmadığını təlqin etməklə məşğul olmuşdur. Onun «Türklər, panturkizm və panturanizm» mövzusunda məqaləsi elmi araşdırmadan daha çox bir ideoloji təlimat təsiri bağışlayır [13, 57-58].

Azərbaycanla Türkiyə arasındakı münasibətlərdə Naxçıvanın mövqeyini, ümumiyyətlə Azərbaycanın bu qədim diyarının tarixini aşkar şəkildə saxtalaşdırmışdır [14, 220]. O, Naxçıvanın 1918-ci ildə Türk ordusu tərəfindən guya işğal olunduğunu, sonra ingilis ordusunun Naxçıvanı “fəth etdiyini”

göstərərək həmin illərin hadisələrini tamamilə baş-ayaq təqdim edir. Məqsəd isə aydındır: türk qoşunlarının xilaskarlıq missiyasına qara yaxmaq, Naxçıvanı 1918-1920-ci illər Azərbaycan Demokratik Cümhuriyyəti ilə heç bir əlaqəsi olmayan, İran təmayüllü bir məntəqə kimi təqdim etmək. Halbuki, ADR hökumətinin obyektiv səbəblər üzündən Naxçıvana lazımınca yardım edə bilməməsi ilə əlaqədar, 23 iyul-7 avqust 1919-cu il tarixlərdə keçirilən Erzurum konqresində əhalinin müraciəti əsasında Naxçıvanın erməni işğalından qorunması və bölgəyə yardım göstərilməsi ayrıca müzakirə edilmiş və Mustafa Kamal Paşanın və Kazım Qarabəkir paşanın tədbiri ilə türk qoşunları bu bölgəyə qardaşlıq köməyi göndərmişdir. Naxçıvan əhalisinin erməni zülmündən xilas edilməsində bu qoşun hissələri tarixi xidmət göstərmişlər [15]. Hətta, bölgəni tərk etmək məcburiyyətində qalanda da, onun gələcək taleyini həll edən uzaqgörən addımlar atmışlar. Burada kiçik kontingentli türk hərbi hissəsi saxlanmış, belə ki, Naxçıvanı bolşeviklər işğal edəndən sonra, daha 8 ay həmin qoşun hissəsi Naxçıvanda qalmış, həm Türkiyə ilə hazırkı 11 km sərhəd zolağını qoruyub saxlamış, həm də erməni təcavüzünün qarşısını almaqda əhaliyə yardım göstərmişlər [16, 4]. Qeyd edilməlidir ki, həmin qoşun hissələri yalnız 1921-ci il martın 16-da Moskva müqaviləsi ilə Naxçıvanın taleyinin həmişəlik Azərbaycanla bağlılığı təsbit edildikdən sonra bölgəni tərk etmişlər. Onlar bu gün də xalqımız tərəfindən minnətdarlıqla yad edilirlər.

İnayətullah Rza yazır ki, «əcnəbi ordularının Naxçıvana nüfuzu buna səbəb oldu ki, 1919-cu il aprelin 30-da Naxçıvan əhalisinin əksər hissəsi Naxçıvan şəhərində İran konsulxanası qarşısında toplaşıb, İran təbəəsi olmaq və yenidən İrana birləşmək istədiklərini irəli sürdülər. Nümayiş bir neçə gün davam etdi. Naxçıvan əhalisi, hökuməti, yerli qoşun komandiri və hörmətli şəxslər İran dövlətinə, İran şahına, xarici səfirlərə, Amerika prezidentinə, Sülh əncüməninə və qeyrilərinə 12 dəfə teleqram vurub, İrana birləşməyi tələb etmişlər. Onlar xatırladıblar ki, əslində, iranlı irqindən olub və 92 ildir ki, zorla İran torpağından ayrı düşmüşlər» [14, 231].

Heç bir digər mənbəyə, dövrü mətbuata və arxiv sənədlərinə əsaslanmayan bu şişirdilmiş məlumatları İ.Rza elmi əsas kimi qəbul edir. Burada həqiqət olan yalnız bu idi ki, Naxçıvanda müəyyən iranpərəst adamlar var idi. Bu da onunla əlaqədar idi ki, Azərbaycan Xalq Cümhuriyyəti hökumətindən lazımi köməyi ala bilməyən, erməni təhlükəsi və ingilis fitnəsi ilə təkbaşına üz-üzə qalmış Naxçıvanda çox mürəkkəb siyasi vəziyyət yaranmışdı. 1919-cu ilin mayın 3-də ermənilər bir neçə aylıq aramsız həmlələrdən sonra Naxçıvana girmişdilər. Hər yanda təcavüzkara qarşı qanlı döyüşlər gedirdi. Nəhayət, Cəfərqulu xan, Kəlbəli xan, Naxçıvandakı türk hərbi hissəsinin komandiri Xəlil bəy xalqı ermənilərlə qeyri-bərabər döyüşə qaldırıb avqustun 30-da Naxçıvanı ermənilərdən təmizləməyə nail oldular. Bundan

sonra Azərbaycan hökuməti Səməd bəy Cəmillinskini Naxçıvan bölgəsinin general-qubernatoru təyin etdi.

Erməni təcavüzü davam etdiyi şəraitdə təbii olaraq Naxçıvan əhalisi həm İrana, həm də Türkiyəyə kömək üçün müraciət etməli olmuşdu. Bu müraciət İ.Rzanın iddia etdiyi kimi, əhalinin İran təbəəsi olmaq arzusu deyil, qonşu müsəlman İran dövlətindən erməni təcavüzünə qarşı kömək almaq ümidi ilə bağlı idi. Həmin aylarda belə bir kömək niyyəti ilə Naxçıvandan Təbrizə, vəliəhd Məhəmmədhəsən Mirzə Qacarın yanma bir heyət göndərilmişdi [17, 124; 8, 17-18].

Naxçıvan əhalisinin nümayəndələrini qəbul edən vəliəhd Tehranla məsləhətləşərək mötəbər bir rəsmi nümayəndə heyəti təşkil etmiş, xüsusi fərmanla Mirzə Əli Ağanı (doktor Cavad Heyətin atası, “Heyət” təxəllüsünü bu missiyadan sonra götürmüşdür – E.M.) bu nümayəndəliyin başında Naxçıvana göndərmişdi. Mirzə Əli Ağa Naxçıvana gəlmiş, vəziyyətlə tanış olmuş, təkliflərlə İran rəhbərliyinə fikrini bildirmiş, ondan sonra İrandan İrəvana ermənilərlə danışıqlar üçün nümayəndələr göndərilmişdi [18, 107]. Eyni vaxtda digər bir qrup Ərzuruma, orada toplaşacaq Ərzurum konqresinə - Mustafa Kamal paşa və Kazım Qarabəkir paşa ilə görüşməyə göndərilmişdi.

Bu hadisələrdən əvvəl də, bölgəni qorumaq niyyəti ilə bir sıra addımlar atılmış, müxtəlif hökumətlər qurulmuşdu. 3 noyabr 1918-ci ildə bu bölgədə Araz-Türk hökuməti qurulmuş, sonra bu hökumət Qars İslam Şurası adlanan hökumətə ilhaq edilmiş, 1919-cu il yanvarın 17-də bu hökumət Cənubi-Qərbi Qafqaz hökuməti adı ilə daha geniş çərçivədə yenidən təşkil olunmuş, həmin il aprelin 12-də ingilislər tərəfindən süquta uğradılmışdı. Bundan sonra Naxçıvanın idarəsində və müdafiəsində Naxçıvan Milli Şurası mühüm rol oynamışdı [19, 56].

Qeyd etmək lazımdır ki, ingilislər Azərbaycanın daxili işlərinə müdaxilə etməyəcəkləri barədə verdikləri vədlərinə baxmayaraq, Naxçıvanda yerli hökumətin işinə müdaxilə edirdilər. Fürsətdən istifadə edən erməni daşnakları Naxçıvanı ələ keçirmək üçün çalışırdılar. Belə bir şəraitdə Naxçıvanda yaradılan özünümüdafiə komitəsi buradakı türk qoşun hissəsi ilə bərabər bölgəni müdafiə edirdi. Burada real hakimiyyət AXC-nin valisindən çox yerli xan nəslinə mənsub idi. Lakin Naxçıvanı faktiki olaraq idarə edən Cəfərqulu xan, silahlı ordu komandiri Kəlbəli xan, ordu qərargahı rəisi Hacı Hüseynəli Qurbanov ilə keçmiş Araz-Türk Respublikası rəhbərləri arasında ixtilaf da var idi. Lakin Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin göndərdiyi nümayəndələr həmin ixtilafın aradan qaldırılmasına nail oldular və bununla da ingilislərin ermənipərəst siyasətinin qarşısı alındı. Burada Naxçıvanın AXC-lə birləşməsi barədə akt tərtib edildi [20, 67].

Göründüyü kimi, ən çətin vaxtlarda, yəni erməni təcavüzü qarşısında yol seçməli olan Naxçıvan əhalisi İran ilə birləşmək deyil, AXC ilə birləşməyi

üstün tutmuşdu. Naxçıvan əhalisi hələ o vaxt öz fikrini belə ifadə etmişdi: «Bu xalq mədəni dövlətlərin alovlarından məhv olmağa razı olar, amma Azərbaycandan ayrılmaz» [21,40; 6, 66].

Yuxarıda qeyd edilənlər bir daha təsdiqləyir ki, ən çətin, hətta ümidsiz vəziyyətlərdə də Naxçıvan bölgəsində nəyin bahasına olursa-olsun bölgəni və xalqı erməni təcavüzündən qorumaq, Naxçıvanın Azərbaycana mənsubluğunu hifz etmək həmişə ön planda olmuşdur. İrana, yaxud Türkiyəyə müraciətlər bölgəni qorumaq strategiyasından irəli gələn düzgün addımlar olmuşdur. Osmanlı Türkiyəsi milli varlıq mübarizəsi apardığı ağır şəraitdə qardaşlıq köməyini əsirgəməmiş, mümkün olan dəstəyi göstərmişdi. Azərbaycan Respublikasında və Türkiyə Cümhuriyyətində həmin məsələlərlə əlaqədar tarixi mənbələrə əsaslanmaqla dəyərli tədqiqatlar aparılmış, onlarla kitab, məqalə nəşr edilmişdir. Həmin dövrün tanınmış araşdırıcılarından olan professor-doktor İbrahim Atnurun aşagıdakı elmi nəticəsi saxtakar tarixçilərə ən tutarlı cavabdır: "Türk liderlər Anadoluda işğallere karşı mücadile yürütürken, onların temsilçileri Moskovada hem Türkiyüdeki ve hem de Kafkazyadakı türklerin manfaatlarını koruma konusunda çok özverili və ince hesaplara dayanan bir siyaset takib etmişlerdi. Bu anlamda Türkiyenin bugünde mevcudiyyetini sürdüren Doğu sınırları korunmuş, Nahçıvan Türkiye himayesine alınmayınca akıllı bir çözüm yolu olarak Azerbaycana bırakılmış, ancaq onu olası bir Moskova baskısından kurtarmak içinde Antlaşmaya, bölgeyi "üçüncü" bir devlete bırakmamak şartı eklenmişdi" [22].

Beləliklə, göründüyü kimi, İnayətullah Rza kimi bir sıra İran tarixçilərinin həmin dövr hadisələrini, Azərbaycan-Türkiyə münasibətlərini, eləcə də, bütövlükdə Azərbaycan tarixini saxtalaşdırmaq cəhdləri xüsusi siyasi məqsədlər daşıyır və hər hansı elmi zəmindən məhrumdur.

## ƏDƏBİYYAT

1. **Bəyat Kavə.** Sovetlərlə Türkiyənin sövdələşməsi: Azərbaycan Cümhuriyyətinin dağılması. «Neqahi-nou» jurnalı, Tehran, 1992, №10; İranın Ermənistanın birinci respublikası (1918-1921-ci illər) ilə münasibətlərinə bir baxış. İran XİN-in «Mərkəzi Asiya və Qafqaz tədqiqatları» jurnalı, 1999-cu il, № 24, səh.161-169; Cəfər Cəmşidi Rad. Naxçıvanda Araz Cümhuriyyəti, həmin yerdə, səh.139-144; Əli Purcəfər, Qafqazın məhəlli hökumətləri (Qacarilər dövründə) Tehran, 1998; Yəhya Şəhidi, İki Azərbaycan tarixinə dair bir araşdırma, «Təlaş» dərgisi, Tehran, 1997, № 11 və başqaları.

2. **Kəsrəvi Əhməd.** Azəri ya Azərbaycanın qədim dili, Tehran, 1316; Azərbaycanın on səkkiz illik tarixi.., iki cilddə, Tehran, 2537 (şahlıq təqvimi ilə) və s.

3. **Rza İnayətullah.** İran və türklər Sasanilər dövründə. Tehran, 1374; Azərbaycan və Aran (Albaniyaye Qəfqaz), Tehran, 1360.

4. **Bəyat Kavə.** Sovetlərlə Türkiyənin sövdələşməsi: Azərbaycan Cümhuriyyətinin dağılması. «Neqahe-nou» dərgisi, Tehran, 1992, № 10.

5. **Hovanesyan Riçard.** Ermənistan və Qafqaz: Sovet və Türk əlaqələrinin doğuluşu. Orta Şərq Tədqiqatları Beynəlxalq jurnalı, 1993.

6. **Mədətli Eynulla.** Atatürkün başqanlığında Ərzurum konqresi və Naxçıvan sorunu - Üçüncü Uluslararası Atatürk sempoziumunun materialları, Ankara, 1998, səh.251-256; Naxçıvan 1918-1920-ci illərdə. «Azərbaycan tarixində Naxçıvan» kitabı, Bakı, 1996.

7. **Afanasyan S.** Ermənistan, Azərbaycan, Gürcüstan: istiqlaldan Sovet rejiminin bərqərar olmasına qədər. 1917- 1923. Tehran, 1991 (fars dilinə tərcümə).

8. **Kırzıoğlu Fəxrəddin.** Kazım Qarabəkir, Ankara, 1991, səh. 17-18;

9. **Kurun K.** Türk-Sovet ilişkiləri (1920-1953). Ankara, 1991, səh.68; Soysal, İ. Türkiyənin siyasi anlaşmaları, 1-ci cild, səh.32.

10. **Şəhidi Yəhya.** İki Azərbaycan tarixinə dair bir araşdırma. «Təlaş» dərgisi, Tehran, 1997, №11

11. **Ter Minasyan Anahid.** Riçard Hovanesyan, Pol Dom və Xosrov Şaker. Müasir tarixdə Qafqaz, Tehran, 1371, fars dilinə tərcümə.

12. **Kəsrəvi Əhməd.** Adı itmiş hökmdarlar, Tehran, Əmir Kəbir nəşriyyatı, 1335, səh. 265.

13. **Rza İnayətullah.** Torkan, panturkizm və panturanizm. Mə-cəlle-ye Ettelaate siyasi və eqtesadi, şomare 57-58.).

14. **Rza İnayətullah.** «Cümhuri-ye xod- moxtare Nəxcivan»,«Motaleate Asiya-ye Mərkəzi və Qafqaz», şomareye 2, 1992).

15. **Baykal Bəkir Sıtkı**. Ərzurum konqresinin 50-ci ildönümü münasibətilə bəlgələr. Ankara, 1969).

16. **Ünüvar Veysəl.** İstiqlal hərbində bolşeviklərlə 8 ay. İstanbul, 1948, səh. 4.

17. **Mədətli Eynulla.** Naxçıvan 1918-1920-ci illərdə. Azərbaycan tarixində Naxçıvan. Bakı, 1996, səh. 106-107.

18. **E.Mədətli və N.İsmayılova**. Heyət ailəsi və Naxçıvan. «Doktor Cavad Heyət» kitabı. Bakı. «Azərnəşr», 1995, səh. 124; Fəxrəddin Kırzıoğlu, Kazım Qarabəkir. Ankara, 1991, səh. 17-18.

19. **Hacıyev Aydın.** Qars və Araz-Türk Respublikasının tarixindən. Bakı, 1994, səh. 56.

20. **Qasımov Abutalıb.** XX əsrdə Naxçıvanda erməni-azərbaycanlı ziddiyyətləri. Azərbaycan tarixində Naxçıvan, Bakı, 1996, səh. 67.

21. **Mədətli Eynulla.** 1918—1921 -ci illərdə Naxçıvanın qorunması uğrunda Türkiyənin mübarizəsi. (XII Türk tarix konqresinin materialları,

Ankara, 1994, səh. 40); Y e n ə o n u n, Atatürkün başçılığı ilə keçirilən Ərzurum konqresi və Naxçıvan məsələsi. III Uluslararası Atatürk simpoziumunun materialları, Ankara, 1995, səh.66.

22. **Atnur İbrahim Ethem**, Osmanlı Yonetiminden Sovyet Yonetimine kadar Nahçıvan (1918-1920), Ankara, 2001.

UOT 94 (479.24)

# AZƏRBAYCAN MƏTBUATININ TƏŞƏKKÜLÜ VƏ TƏKAMÜLÜNDƏ TİFLİS ŞƏHƏRİNİN YERİ VƏ ROLU

***R.M. Məcnunov***
*AR DİN-in Polis Akademiyası*
*rehim.mecnunov@mail.ru*

***Açar sözlər:*** *Azərbaycan mətbuatı, Tiflis şəhəri, Azərbaycan türkləri*

XIX əsrin II yarısında Azərbaycanın mətbuat tarixinə, onun yaranması, formalaşması və inkişafı mərhələlərinə nəzər yetirərkən Tiflis səhifələrini vərəqləmədən keçmək mümkün deyil. XIX əsr - XX əsrin əvvəllərində Azərbaycan mətbuatının ən dəyərli nümunələri məhz Tiflis şəhərində Azərbaycanın görkəmli ziyalıları tərəfindən yaradılmış, bəhs olunan dövrdə Azərbaycan millətinin, onun milli məfkurəsinin, ideologiyasının, mədəniyyətinin formalaşmasında və inkişafında əvəzsiz rola malik olmuşdur.

# РОЛЬ И МЕСТО ГОРОДА ТБИЛИСИ В РАЗВИТИИ И ЭВОЛЮЦИИ АЗЕРБАЙДЖАНСКОЙ ПЕЧАТИ

***Р.М. Меджнунов***

***Ключевые слова:*** *Азербайджанская пресса, Город Тбилиси, Азербайджанские тюрки.*

Если обратит внимание на историю, образование, формирование и развитие печати Азербайджана во второй половине XIX века, не перелистав страницы Тбилиси невозможно пройти. В конце XIX в начале XX века самые ценные образцы азербайджанской печати были созданы именно в городе Тбилиси выдающимися интеллигентами Азербайджана, рассказываемый период в формировании и развитии идеологии, культуры нации Азербайджана имела незаменимую роль.

# THE PLACE AND THE ROLE OF TBILISI CITY IN THE FORMATION AND EVOLUTION OF AZERBAIJANS PRESS

***R.M Majnunov***

***Keywords:*** *Azerbaijan press, City of Tbilisi, Azerbaijan turks*

In the second half of the 19th century while watching the history of Azerbaijans press, its occurence, formation and development stages, it is impossible to pass without scratch the page of Tbilisi. 19th century – in the beginning of the 20th century, most valuable examples of the Azerbaijans press were created by the Azerbaijan outstanding intellectuals just in Tbilisi city, in that period owned indispensable role of the Azerbaijani nation, its national ideology, in the formationof culture and development.

XIX əsrin I yarısında tarixi Azərbaycan torpaqlarının ədalətsiz Türkmənçay müqaviləsi ilə iki yerə bölünməsi qədim və zəngin tarixə malik olan bir xalqın parçalanmasına, onun inkişafının iki müxtəlif istiqamətdə davam etməsinə səbəb oldu. Azərbaycanın şimal hissəsi çar Rusiyasının, cənubu isə Qacarlar dövlətinin əsarətində qaldı. Qeyd etdiyimiz dövrdə bir hissəsi tərəqqi etmiş Avropanın payına düşən çar Rusiyasında kapitalist münasibətləri formalaşmağa və inkişaf etməyə başlamışdı. Avropa dövlətləri ilə ayaqlaşmaq, onların mədəniyyətinə qoşulmaq, güclü iqtisadiyyata sahib olmaq arzusunda olan Rusiya özünün müstəmləkə asılılığında olan xalqlara, həmçinin Cənubi Qafqazda üstünlük təşkil edən azərbaycanlılara qarşı milli ayrı-seçkilik siyasəti həyata keçirir, onların iqtisadi, mədəni və siyasi inkişafına mane olur, hər vəchlə bu xalqların maariflənməsinin qarşısını almağa çalışırdı. Belə bir dövrdə Azərbaycan ziyalıları millətin maariflənməsinə, onun bir millət kimi formalaşmasına, siyasi baxışlarının və mədəni səviyyəsinin, elminin inkişafına çalışır və bu yolda əvəzsiz xidmətlər göstərirdilər. Bakı, Tiflis, İrəvan, Təbriz, Ərdəbil, Dərbənd, Naxçıvan, Gəncə, Şamaxı, Şuşa kimi şəhərlərdə yetişən türk - Azərbaycan ziyalılarını bir ideya birləşdirirdi – «millətin gözünü açmaq, qəzet çap etdirib, özünün qədim mənliyini sübut etmək» [12, 3]. Artıq dəfələrlə qeyd etdiyimiz kimi bəhs olunan dövrdə Tiflis şəhəri çar hakimiyyət orqanlarının Cənubi Qafqazda inzibati-siyasi mərkəzi, iqamətgahı idi. Məhz bu baxımdan Tiflis bütünlükdə Cənubi Qafqazın siyasi, iqtisadi və mədəni mərkəzi hesab olunurdu. Əgər biz XIX - XX əsrin əvvəlləri mədəniyyət tariximizə nəzər salsaq şahidi olarıq ki, doğrudan da Azərbaycan ziyalılarının, yazarlarınının, ictimai-siyasi xadimlərinin xeyli hissəsi məhz bu şəhərdə yetişmişdir. Xalqın gözünü açmağın, onu maarifləndirməyin birinci yolu isə məhz mətbuat idi – ana dilli mətbuat. Xalqın maarifpərvər ziyalıları bunu yaxşı anlayırdılar. Öz

səslərini xalqa, millətə çatdırmaq üçün ana dilli mətbuatımızın yaranmasına böyük ehtiyac vardı. Tiflis şəhərində yaşayıb yaratmış ziyalılarımız XIX əsrin ikinci yarısında bu böyük işi, məsuliyyəti öz üzərlərinə götürdülər və Azərbaycan dilində fəaliyyət göstərəcək mətbuatımızın əsasını qoydular.

Tiflis şəhərində yaradıcılıqla məşğul olmuş, təhsil almış və əsərlərini bu şəhərdə nəşr etdirmiş ziyalılarımızdan M.F.Axundov, M.Ş.Vazeh, A.Bakıxanov, C.Məmmədquluzadə, Ü.Hacıbəyov, H.Ərəblinski, H.Cavid, A.Şaiq, Ə.Haqverdiyev, F.Köçərli, S.Ruhulla, E.Sultanov, Ü.Rəcəb, Ö.F.Nemanzadə, H.Minasazov, Fazilxan Şeyda, M.Kirmanşahlı, Ə.Vəli, Ə.Salahlı, M.Mərdanov, Z.Hacıbəyov, M.Şahtaxtılı, İ.İsfahanlı, N.Nərimanov, N.Vəzirov, R.Əfəndiyev, F.Köçərli, Ə.Gorani, Ə.Cavanşir, M.Ordubadi və digərlərinin Azərbaycan xalqının maariflənməsində, ədəbiyyatımızın, musiqimizin, milli mədəniyyətimizin və mətbuatımızın inkişafında əvəzsiz xidmətləri olmuşdur.

Anadilli mətbuatımızın formalaşmasında və inkişafında xalqımızın qeyrətli oğulları tərəfindən yaradılan mətbəələrin rolu mühüm əhəmiyyət kəsb edirdi. Onlardan XIX əsrin sonlarında Tiflisdə fəaliyyət göstərən «Ziya», «Kəşkül», «Şərq», «Kamal Əfəndi» mətbəəsi, «Qeyrət» mətbəəsi və digərlərinin adlarını sadalamaq olar. Bu mətbəələrdə hər il müxtəlif dillərdə çoxlu sayda kitab nəşr olunmuşdur.

Türk dünyasının məşhur publisisti, maarifçi ziyalılarından olan İsmayıl bəy Qaspıralı da öz məqalələrində Cənubi Qafqazda müsəlman türklərinin maariflənməsində və inkişafında Azərbaycan ziyalılarının və onların nəşr etdirdikləri «Əkinçi», «Kəşkül», «Ziya», «Ziyayi-Qafqaziyyə», «Şərqi-Rus», «Molla Nəsrəddin» kimi mətbu orqanlardan, onların naşir, redaktor və əməkdaşlarından, qəzet və jurnalların toxunduqları problemlərdən, materialların dil-üslub, sənətkarlıq məsələlərindən, bu nəşrlərin Rusiya müsəlmanlarının tarixində və taleyində oynadığı mühüm roldan gen-bol bəhs etmişdir [14, 139].

1828-1832-ci illərdə Tiflisdə nəşr olunan «Tiflis xəbərləri» adlı qəzetin azərbaycanlılar üçün nəzərdə tutulmuş həftəlik əlavəsi Milli Azərbaycan mətbuatının ilk nümunəsi kimi təqdim edilir. Lakin, «Tiflisskiye vedomosti» qəzetinin Azərbaycan üçün nəzərdə tutulan həftəlik əlavəsi («Tiflis xəbərləri») fars dilində çap edilirdi. Həmin qəzet eyni zamanda «Tbillisis utsekani» adı altında gürcü dilində də buraxılırdı. Milli dillərdə çıxan variantlarda yalnız «Tiflissikye vedomosti»dən tərcümə olunan və xüsusi senzor tərəfindən yoxlanılan yazılar çap edilirdi. Bəzi məlumatlara görə «Tiflis xəbərləri»nin senzoru və çox güman ki, redaktoru Abbasqulu ağa Bakıxanov olmuşdur. Bu qəzetin gürcü nəşri kifayət qədər abunəçi toplaya bilmədiyindən öz nəşrini 1830-cu ildə dayandırmışdı. Farsca nəşr olunan variant isə rus nəşri ilə eyni vaxtda fəaliyyətə başlamış və 1832-ci ildə öz fəaliyyətini dayandırmışdır [16, 6]. Müəyyən dövrdə fars dilində çap edilməsinə baxmayaraq, çar hökuməti Cənubi Qafqazda əsas danışıq dilinin tatar – Azərbaycan türkcəsi olduğunu

anlayaraq «Tiflis əxbarı»nın («Tiflis xəbərləri») bu dildə nəşr olunmasını qərara alır. Bu barədə məlumata baron Rozenin maarif naziri ilə yazışmasında da rast gəlmək olar. O, qeyd edirdi ki, «məndən əvvəl burada fars dilində «Tiflisskiy vedomosti» qəzeti nəşr olunmuş, abunə azlığından qəzet bağlanmışdır. ...Fars dili nəinki bizə mənsub olan və tatarlar yaşayan Zaqafqaziya ölkəsində, hətta Azərbaycanın özündə də az yayılıbdır. Həmin nəşrdən gözlənilən fayda məni, onu bərpa etmək zərurətinə inandırdı, lakin fars dilində yox... tatar dilində» [16, 6].

Qeyd edək ki, mətbuat tarixinin tədqiqi ilə məşğul olan alimlərimiz öz əsərlərində «Tiflisskiye vedomosti» qəzetinin azərbaycanlılar üçün nəzərdə tutulmuş əlavəsi barədə məlumat verərkən onu «Tiflis əxbarı» («Tiflis xəbərləri») [16, 5] və «Tatar xəbərləri» [12, 20] kimi adlandırmışlar ki, bu da bir qədər çaşqınlıq yaradır. Lakin, bu məsələni bir qədər dərindən analiz etdikdə aydın olur ki, qəzetin Azərbaycan əhalisi üçün çap olunan həftəlik əlavəsi 1832-ci ilə qədər fars dilində, 1832-ci ildən sonra isə Azərbaycan türkcəsində nəşr olunmuşdur. Məhz bu səbəbdən «Tiflisskiye vedomosti»nin azərbaycanlılar üçün nəşr olunmuş həftəlik əlavəsinin 1832-ci ilədək çap olunmuş nümunələrini «Tiflis əxbarı», 1832-ci ilin yanvarından nəşr olunan nümunələrini isə «Tatar xəbərləri» kimi adlandırmaq daha düzgün olardı. 1832-ci ildə bir neçə nömrəsi çıxdıqdan sonra həftəlik əlavənin nəşri dayandırılmış və yalnız 1841-ci ildən «Zakavkazskiy vestnik»in əlavəsi kimi 1846-cı ilə qədər nəşr olunmuşdur. Həftəlik ələvənin Cənubi Qafqazın Azərbaycan əhalisi üçün nəzərdə tutulması, onun senzor və redaktorunun, eləcə də mürəttiblərinin əksərən azərbaycanlı olmaları və qəzetdə Azərbaycan həyatını işıqlandıran müəyyən yazılara yer verilməsi onun milli mətbuat tariximizdə müəyyən rol oynadığından xəbər verir.

Azərbaycan dilində ilk nömrəsi 1832-ci ilin yanvar ayında nəşr olunan «Tiflis xəbərləri» qəzeti barədə rəsmi məlumatda qeyd olunurdu: «Bu il yanvarın 1-dən Tiflisdə aşağıdakı şərtlərlə tatar dilində qəzet buraxılacaqdır. 1. Qəzet həftədə bir dəfə çıxacaqdır. 2. Rusca nəşrində olduğu kimi, tatar qəzetinin də illik abunə haqqı gümüş pulla 8 manat, yarım illik isə 5 manatdır. 3. Nömrələrin vaxtında çıxmasına və abunəçilərə müntəzəm çatdırılmasına nəzarət qəzetin baş redaktoru, baş saray müşaviri Sankovskiyə tapşırılır. Qəzet almaq istəyənlər ona ya şəxsən, ya da ki, yerli hökumət vasitəsilə müraciət edə bilərlər» [17].

Qeyd edək ki, XIX əsrin II yarısında və XX əsrin əvvəllərində Rusiyada yaşayan türk-müsəlman xalqları arasında Azərbaycan türkləri mətbuat sahəsində ən qabaqçıl yerlərdən birini tuturdular. Xüsusilə, əsası «Əkinçi» ilə qoyulan Azərbaycan milli mətbuatı Tiflis şəhərində də az nüfuza malik olmamışdı. «Dildə, fikirdə, işdə birlik» şüarı ilə türk və müsəlman xalqları arasındakı birliyin əsas istiqamətlərini müəyyənləşdirən İsmayıl bəy Qaspralı

1883-1918-ci illərdə nəşr etdirdiyi «Tərcüman» qəzetinin ilk saylarından birində «Rusiyada mətbuati-islamiyyə»yə həsr etdiyi yazısında «Tərcüman» qəzetinədək Azərbaycan ziyalıları tərəfindən nəşr olunmuş «Əkinçi», «Ziya», «Ziyayi-Qafqaziyyə», «Kəşkül» qəzetlərinin adlarını qeyd etmişdi [15, 11].

XIX əsrin II yarısında Azərbaycan xalqının maarifçi ziyalılarından olan Həsən bəy Zərdabi böyük fədakarlıq nümayiş etdirərək ana dilində qəzet nəşr etmək üçün gərgin mübarizəyə başlayır. Həsən bəyin çar hakimiyyəti orqanlarına müraciətləri arxiv sənədlərində də öz əksini tapmışdır. Həmin sənədlərdən birində «Bakı gimnaziyasının müəllimi Həsən bəy Məlikovun tatar dilinin Azərbaycan ləhcəsində «Əkinçi» («Пахарь») qəzetini dərc etmək istədiyi, qəzetin ilk olaraq iki həftədən bir, bir səhifədən ibarət olmaqla, daha sonra, əlverişli şərait yarandıqca hər həftə bir vərəq şəklində dərc etməyi nəzərdə tutduğu» barədə məlumat öz əksini tapmışdır [1, 23]. Həsən bəy bu sahədə çox böyük problemlərlə üzləşməli olur. Belə ki, qəzet Bakıda nəşr olunacağından çap olunacaq materialların Tiflisə, Senzura Komitəsinə göndərilməsi xeyli vaxt aparır, bu isə Həsən bəyin dediyi kimi «məqalələrin öz aktuallığını itirməsinə» səbəb ola bilərdi. Lakin senzura bu məsələdə də güzəştə getmək istəməyərək bildirirdi ki, «...Komitə hesab edir ki, qəzetin iki həftədə bir dəfə və bir səhifə həcmində çap olunacağına görə, hər nömrənin çıxmasına on iki gün qalmış mütərəqqi məqaləni hazırlamaq, onu Tiflisə senzuraya göndərmək və çap üçün təsdiqləyib geri almaq hər zaman mümkündür, Komitə Bakıya birinci göndərilən poçtla həmin materialı göndərməkdə problem görmür» [2, 21-28].

Beləliklə, çox böyük çətinliklərdən və maneələrdən sonra Həsən bəy Zərdabi (Məlikov) 1875-ci ildə «Qafqazın əvvəlinci türk qəzeti olan «Əkinçi»ni nəşr edə bilmişdi. Lakin, rus-türk müharibəsinin başlanması və çarizmin müstəmləkə siyasətinin xarakterinə uyğun olaraq 1877-ci ildə «Əkinçi» qəzetinin fəaliyyəti dayandırılmışdı. Lakin, buna baxmayaraq onun səpdiyi azadlıq toxumları cücərməyə başlamış və Cənubi Qafqazda Azərbaycan türkcəsində dilində yeni-yeni mətbuat orqanlarının yaranmasına səbəb olmuşdur.

«Əkinçi» qəzeti bağlandıqdan sonra Tiflis şəhərində Azərbaycan dilində bir sıra qəzet və jurnallar nəşr olunmağa başladı. Bunlar Azərbaycan mətbuatının Tiflis tarixinin parlaq səhifələrini təşkil edir. 1879-1884-cü illərdə Səid əfəndi Ünsizadənin rəhbərliyi ilə «Ziya» və «Ziyayi-Qafqaziyyə» qəzetləri, 1883-1891-ci illərdə Cəlal Ünsizadənin redaktorluğu ilə «Kəşkül» jurnal-qəzeti, 1903-1905-ci illərdə Məhəmməd ağa Şahtaxtlının redaktorluğu ilə «Şərqi-rus» qəzeti, 1907-1911-ci illərdə Kamal Ünsizadənin redaktoru olduğu «Məzhər» qəzeti, 1906-1917-ci illərdə Cəlil Məmmədquluzadənin redaktorluğu ilə «Molla Nəsrəddin» satirik məcmuəsi XIX əsrin sonu - XX əsrin əvvəllərində Tiflis şəhərində fəaliyyət göstərən Azərbaycan mətbuatının parlaq nümunələri idi.

1865-ci ildə çar hökuməti tərəfindən «Senzura haqqında qəti qanun»nun qəbul edilməsindən sonra mətbu orqanlarının yaradılması, qeydiyyatı və nəşri məsələsi xeyli çətinləşmişdi. Beləki naşir hökumətin rəsmi orqanlarına müraciət edir, öz nəşrini əsaslandırır və bəzən illərlə öz müraciətinə cavab gözləməli olurdu. Məhz bu çətinliklərin öhdəsindən gələrək ana dilində qəzet nəşr etdirməyə nail olan Səid əfəndi Ünsizadə Azərbaycan mətbuatı tarixində mühüm bir vəzifəni yerinə yetirmiş oldu. Ümumiyyətlə, Cənubi Qafqazda Azərbaycan dilində mətbuatın nəşri tarixində Ünsizadə qardaşlarının rolu və xidmətləri əvəzsizdir. Hacı Səid əfəndi Ünsizadə Şamaxı şəhərində anadan olmuş, Bağdadda dini təhsil almış, Şamaxı şəriət və Bakı quberniyası ruhani məclislərinin üzvü olmuş, «Beytüssəfa» məclisində iştirak etmiş, onun Şamaxıda açdığı məktəbdə yüzdən artıq uşaq təhsil almışdır. Cənubi Qafqaz ruhani idarəsinə ezam olunan Səid əfəndi 1877-1884-cü illərdə Tiflisdə yaşayır və burada mətbuat orqanı yaratmağa müəssər olur. «Neçə vaxt idi ki, mətbəə və mətbuat işini əmələ gətirmək arzusunda idik ki, mətbəəmiz Bərgunə şəhərdə olsun ki, orada cümlə əsbab mühəyya olsun. Aşkardır ki, Qafqazda Tiflisdən başqa bu mətalibin pinerəftinə şayistə yer yoxdur» [17, 28] deyən S.Ünsizadə 1878-ci ilin dekabr ayında «Ziya»nın nəşrinə icazə almaq üçün Qafqaz senzura komitəsinə ərizə ilə müraciət edir [3, 1]. Naşirin sənədləri elə həmin ayda Qafqaz canişininin Baş idarəsinə göndərilir və onun nəşrinə icazə verilir [3, 3-5].

Ruhani idarəsinin sünni məzhəbi üzrə üzvü vəzifəsini icra edən Hacı Səid Əfəndi Ünsizadənin Qafqaz canişinin baş idarəsinin rəisinə ünvanladığı 5 dekabr 1878-ci il tarixli müraciətdə deyilirdi: «Tiflis şəhərində, öz litoqrafiyamda və ya mətbəəmdə Azərbaycan dilində həftəlik «Ziya» («Сияние») adlı qəzet dərc etmək niyyətində olaraq, Zati Alinizdən qeyd olunan qəzetin 1879-cu ilin 1 yanvarından etibarən hazırkı ərizəmə əlavə etdiyim proqram üzrə nəşrinə icazə verməyinizi xahiş edirəm. Həmçinin əlavə edirəm ki, qəzetin illik abunə haqqı göndərməklə birlikdə 6 rubl olacaqdır, «Ziya» qəzetinin məsul redaktoru və naşiri özüm olacağam, Tiflis şəhərində, 6–cı sahədə, Voronsov küçəsində, Kərbəlayi Lətifin evində yaşayıram. Hazırkı müraciətimə əlavə edirəm: 1. «Ziya» qəzetinin proqramını; 2. Qəzetin nəşrinə dair əsaslandırmanı özündə əks etdirən izahatı və 3. Onun formulyar və xidməti siyahısının təsdiqlənmiş surəti»ni [4, 2].

Qafqaz senzura komitəsinin Qafqaz canişininin baş idarəsinə göndərdiyi 6 dekabr 1878-ci il 792 saylı məktubunda Ünsizadənin nəşr etmək istədiyi qəzetin çar senzurasının tələblərinə uyğun gəldiyini və nəşri ilə bağlı hər hansı maneənin olmadığını bildirərək qeyd edirdi: «Ruhani İdarəsinin Sünni məzhəbi üzrə üzvü vəzifəsini icra edən Hacı Səid Əfəndi Ünsizadə Senzura Komitəsinə təqdim etdiyi cari ilin 4 dekabr tarixli müraciətində ona gələn 1879-cu ilin 1 yanvarından etibarən Azərbaycan dilində «Ziya» («Сияние») adlı həftəlik qəzet

dərc etməyə icazə verməyi xahiş edir. Senzura Komitəsi Hacı Səid Əfəndi Ünsizadənin xahişinin nəşriyyat haqqında qanunlara uyğunluğunu nəzərdən keçirərək və «Ziya» qəzetinin proqramına baxaraq, bu qənaətə gəlmişdir ki, onun müraciəti Senzura Komitəsi tərəfindən irəli sürülən bütün tələblərə cavab verir və həmçinin, tatar (Azərbaycan – R.M.) dilində qəzetin nəşrinin xüsusi fayda gətirə biləcəyi səbəbindən Zati Aliniz qarşısında Hacı Səid Əfəndi Ünsizadənin xahişinin təmin edilməsi haqqında məsələ qaldırır. Hacı Seyid Əfəndi Ünsizadənin müraciətini və onun tərəfindən təqdim edilmiş siyahını əlavə edirəm» [4, 1].

Qəzetin ilk nömrəsi 1879-cu il yanvarın 16-da nəşr olundu. «Ziya»nın mətbəəsi Tiflisin Atamanski küçəsindəki 12 saylı binada yerləşirdi (1879-cu ilin iyun ayının 21-dən Voronsov küçəsindəki 35 saylı evə - Ağa Ələsgər Məşədi İsmayıl oğlunun evinə köçürülmüş, daha sonra isə Səid əfəndinin öz şəxsi mülkündə fəaliyyət göstərmişdir) [16, 29]. Qəzetin ilk sayları Əlizadə Səlyani tərəfindən daş basması üsulu ilə çıxarılmışdı. Qəzetin proqramında onun 7 şöbədən (1. Hökumət əmrləri; 2. Beynəlxalq agentliyin teleqramları; 3. Xarici xəbərlər; 4. Daxili xəbərlər; 5. Yerli xəbərlər; 6. Məlumat göstəricisi və elanlar; 7. Felyetonlar [3, 3]) ibarət olmaqla hər həftə nəşr olunacağı bildirilirdi.

S.Ünsizadə «Ziya»nın nəşrinə başladıqdan bir neçə ay sonra yenidən hökumətə müraciət edərək qəzetin müsəlmanlar yaşayan bölgələrdə yayılmasına köməklik göstərilməsi barədə xahiş etmişdi. Bununla bağlı Qafqaz canişininin baş idarəsinin rəisi Dağıstan vilayətinin rəisinə, Bakı və Tiflis qubernatorlarına aşağıdakı məzmunlu məktubla müraciət etmişdi: «Cari ilin 1 yanvar tarixindən etibarən Tiflis şəhərində Cənubi Qafqaz Ruhani İdarəsinin Sünni məzhəbi üzrə üzvü vəzifəsini icra edən Hacı Səid Əfəndi Ünsizadə tərəfindən Azərbaycan dilində «Ziya» («Сияние») adlı həftəlik qəzet dərc edilir.

Hazırda Əfəndi Ünsizadə Baş İdarəyə şifahi şəkildə müraciət edərək onun tərəfindən nəşr edilən qəzetin müsəlman əhalisinin kənd məskənləri arasında yayılmasına köməklik göstərilməsini xahiş etmişdir, çünki kənd yerlərinin çoxunda poçt idarələrinin olmaması səbəbindən kənd sakinləri qəzeti vaxtında əldə etmək imkanından məhrum olmuşdur.

Tatar (Azərbaycan – R.M.) dilində nəşr olunan qəzetin çox yüksək intellektual inkişafa malik olmayan müsəlman əhalisinə gətirə biləcəyi faydaları nəzərə alaraq, tatar qəzetinin müsəlman əhalisi arasında yayılmasına maneçilik törədən amillərin mümkün qədər aradan qaldırılması həddən artıq arzuediləndir.

Buna görə də mən Zati-Aliləri Qafqaz Canişininin icazəsi ilə Sizdən Zemstvo rəislərinin və ya kənd starşinalarının çaparlarından istifadə etməklə yaxınlıqdakı poçt yerlərindən «Ziya» qəzetinin abunəçilərinə çatdırılması imkanlarının mövcud olub-olmaması barədə məlumat verməyinizi xahiş edirəm» [4, 12].

1880-ci ildə S.Ünsizadə Qafqaz canişininin baş idarəsinə müraciət edərək ona lazımi sayda şrift hazırlamaq üçün mətbəədən çap ölçülərinin müvəqqəti olaraq verilməsini xahiş etmişdi. Bununla bağlı dəftərxananın baş idarənin mətbəə müdirinə 7 avqust 1880-ci il 2998 saylı müraciətində deyilirdi: «Tiflis şəhərində Azərbaycan dilində dərc edilən «Ziya» («Сияние») adlı həftəlik qəzetin redaktoru-naşiri Hacı Səid Əfəndi Ünsizadə müraciət edərək ona Baş İdarənin Mətbəəsində mövcud olan çap ölçülərini müvəqqəti olaraq verməyi xahiş etmişdir ki, onun əsasında lazımi sayda şrift hazırlasınlar. Baş İdarənin rəisi öz tərəfindən Ünsizadənin xahişini təmin etmək üçün heç bir maneə görmür və göstəriş vermişdir ki, Sizə bildirək ki, əgər Mətbəə tərəfindən bununla əlaqədar hər hansı qanuni maneə yoxdursa Ünsizadəyə tələb olunan ölçülərin verilməsinə göstəriş verəsiniz. Həmçinin bu şərtlə ki, ölçülər xüsusi tərtib olunmuş siyahı və ona əlavə edilmiş cədvəl üzrə verilsin. Bu siyahıda onların qaytarılması müddəti və vaxtında qaytarılmadığı halda digər şərtlər əks olunsun» [4, 13].

Qəzet 1880-ci ildə 76 nömrəsi çapdan çıxdıqdan sonra fəaliyyətini texniki səbəblər üzündən 5 aylıq dayandırmış, daha sonra isə «Ziyayi-Qafqaziyyə» adı altında yenidən nəşr olunmuşdur. 1883-cü ilin yanvarında Bakı qəzasına qazı təyin olunan Ünsizadə Şamaxıya köçür. «Ziyayi-Qafqaziyyə» adı altında qəzetin 96 nömrəsi Tiflisdə, 11 nömrəsi isə Şamaxıda nəşr olunur və 1884-cü ilin iyun ayında S.Ünsizadə maddi sıxıntılar üzündən onun nəşrini dayandırmağa məcbur olur.

«Ziya» qəzeti də digər mətbu orqanları kimi xalqın maariflənməsinə, onun elminin daha da inkişafına səy göstərirdi. Lakin qəzetin mühərrirləri içərisində din nümayəndələri də yox deyildi və onlar daha çox dini görüşlərlə sıx bağlı mövzularda məqalələr nəşr etdirirdilər. Qəzetin redaktoru S.Ünsizadə üzünü belə ziyalılara və ruhanilərə tutub, öz məqalələrində onlara «elmin Allah tərəfindən insanlara verilən böyük nemət olduğunu» və bundan faydalanmağın zəruriliyini bildirirdi [9].

Məşhur türk yazıçısı Y.Akçuralı «Ziya» və «Ziyayi-Qafqaziyyə»nin ideya istiqamətinin türkçülükdən uzaq olub yalnız islamla bağlı olduğunu qeyd edirdi: «Əlimdəki «Ziya» nüsxələrindən, bu qəzetin Qafqazda yaşayan türkləri dünyada baş verən hadisələrdən xəbərdar etmək istəyir, müsəlman və Osmanlı məmləkətlərinə aid xəbərləri öncəlik verərək yazdığı anlaşılır, fəqət dil, ədəbiyyat, tarix və qayəsində türk millətçiliyi ilə ilgiləndiyinə dair bu nüsxələrdə bir işarə yoxdur» [11, 47].

İsmayıl bəy Qaspıralı «Baxçasaray məktubları», «Rusiya müsəlmanları» adlı məqalələrində Tiflisdə Ünsizadə qardaşları tərəfindən «Ziyayi-Qafqaziyyə» adlı qəzetin nəşr olunduğunu məmnunluq hissi ilə vurğulayır və bu qəzetin xalqa çox böyük fayda verdiyini qeyd edirdi [15, 11; 140].

Lakin, qeyd etmək lazımdır ki, xalqımızın milli oyanışı və maariflənməsi yolunda Azərbaycan ziyalıları çox böyük çətinliklərlə üzləşir, çar hakim dairələrinin və senzuranın təzyiqlərinə məruz qalırdılar. «Kəşkül» qəzetinin mühərrirlərindən biri bu barədə qeyd edirdi: «.... Səid Əfəndi bir xeyli mayə, sərmayə itlaf eləməklə, «Müttəqəti-hürufi-islamiyyədən mürəttəb mükəmməl və münasib bir «Əlifbayi ünsiyyə» «Ziya» müştərilərinə hədiyyə və ikramiyyəyə ərz eyləməyə məcbur oldu. Heç bir tərəfdən səsinə səs verən görməyib, yenə işin əslinə rücu etdi» [8].

«Ziyayi-Qafqaziyyə»də də dini və dünyəvi görüşlü ziyalılar arasında mübahisələr yaranırdı və onların hərəsi öz tərzincə milləti maarifləndirməyə çalışırdı. Məsələn, bu cür yazılardan birində dini görüşlü ziyalılardan olan İsmi Sədrəddinbəyov Məhəmməd ağa Şahtaxtlının fikirlərinə öz etirazını bildirirdi [10]. Hər iki mətbu orqanında İ.Sədrəddinbəyov, M.Qübbən, Q.Dərbəndi, M.Şirvani və s. kimi qatı dindar müəlliflərin yazıları ilə bərabər H.Zərdabi, S.Ə.Şirvani, N.Vəzirov, C.Ünsizadə, S.Vəlibəyov, A.Berje, A.Çernyayevski, M.Şaxtaxtlı kimi tərəqqipərvər ziyalıların da məqalələrinin nəşri qəzetin əsas qayəsinin müsəlman əhalisi içərisində maarifçilik ənənələrini gücləndirmək olduğunu sübut edir. Həmçinin qeyd edək ki, S.Ünsizadə daim çar senzurasının ağır nəzarətində olmaqla bərabər dəfələrlə ruhanilərin də təqib və tənqidlərinə məruz qalmışdı. S.Ünsizadə qarşısına qoyduğu məqsədə tam nail olmasa da xalqının maariflənməsi uğrunda cəsarətlə mübarizə aparmışdı.

1883-cü ildə Ünsizadə qardaşlarından Cəlal Ünsizadənin redaktorluğu ilə Tiflisdə «Kəşkül» jurnalı nəşrə başlamışdır. 1878-ci ildə Tiflisə köçən C.Ünsizadə əvvəlcə pedaqoji fəaliyyətlə məşğul olmuş, azərbaycanlı oğlan uşaqları üçün məktəb yaradaraq orada təhsil vermişdir. Böyük qardaşı Səid Əfəndidən daha müasir düşüncəli və mütərəqqi baxışlı ziyalı olan C.Ünsizadə xalqı maarifləndirməyi, ona yeni ideyaları, dünyəvi elmləri də aşılamağı zəruri hesab edirdi.

1882-ci il may ayının 1-də «Kəşkül» adlı jurnal çıxarmaq üçün rəsmi orqanlara müraciət edən C.Ünsizadənin xahişi 1882-ci ilin oktyabr ayının 20-də hökumət tərəfindən müsbət qarşılanır və 1883-cü ilin yanvarında jurnalın ilk sayı çapdan çıxır. «Kəşkül»ün 11 sayı işıq üzü gördükdən sonra o qəzet kimi nəşr olunmağa başlayır.

Ərəb, fars və Azərbaycan dillərində nəşr olunan jurnalın – qəzetin şöbələri aşağıda göstərilənlər idi: 1. Daxili şöbə; 2. Tarix və siyasi şöbə; 3. Tənqid və mətbuat xülasəsi; 4. Pedaqogika; 5 Həkim məsləhəti; 6. Şeir şöbəsi, Təqvim; 7. Müxtəlif materiallar; 8. Elanlar. «Kəşkül»ün böyük məqsədləri, amalı var idi və geniş fəaliyyət dairəsi nəzərdə tutmuşdu. C.Ünsizadə bununla bağlı «Kəşkül»ün III sayında qeyd edirdi: «Kəşkül»ün daireyi-qələmiyyəsi bu tərəflərdə, yəni Qafqaziyyə qitəsindən müxtəlif mövqelərdə, Rusiyanın

içərilərində, həmçinin İslam malikində (İran, Osmanlı və Misir səmtlərində) xüsusi müxbirləri olacaqdır» [16, 34].

Qeyd etdiyimiz kimi, C.Ünsizadə böyük qardaşı Səid Əfəndidən daha mütərəqqi və yenilikçi insan idi, dini fanatizmə, xürafata, xalqı geriyə-köhnəliyə, cəhalətə sürüyən ruhanilərə qarşı kəskin mövqeyə sahib idi və bu «Kəşkül»ün fəaliyyətində açıq-qşkar hiss olunurdu. Məsələn, qəzet 1889-cu il tarixli 81-ci sayında «Bu zümrənin çoxusu elmsizdir» deyirdi.

«Kəşkül» müəyyən siyasi məsələlərə də toxunur, dövrünün bir sıra siyasi hadisələri haqqında – xüsusilə imperialist dövlətlərinin müstəmləkəçilik hərəkətlərini pisləyirdi. Təbii ki, çarizm özünün siyasi rejimini pisləyən və ya dayağına çevirdiyi ruhani ordusunu tənqid edən bir mətbu orqanını rəğbətlə qarşılaya bilməzdi. Məhz bu baxımdan qəzet tez-tez senzuranın hücumlarına və təqiblərinə məruz qalırdı.

Lakin qeyd edək ki, «Kəşkül»ün maddi – texniki bazası o qədər də ürəkaçan deyildi, mətbəəsi Tiflisin dar bir küçəsində, birotaqlı şəraitsiz və darısqal bir mənzildə yerləşirdi. Buna baxmayaraq, Ünsizadə və əməkdaşları əzmlə çalışır, öz məqsədlərini həyata keçirmək uğrunda inadla mübarizə aparırdılar. Səid və Cəlal Ünsizadə qardaşları 1889-cu ildə böyük çətinliklər bahasına olsa da, Tiflis polis idarəsinin mətbəəsini satın alaraq «Kəşkül» mətbəəsinin («Mətbeyi-cərideyi Kəşkül») əsasını qoymuşdular.

«Kəşkül» xalqın milli birliyinə nail olmağa çalışır, dini və milli fərqliliyin insanlar tərəfindən qavranmasına səy göstərirr, yazıları ana dilində nəşr edir, «Məcmuəmizin dili və əsil ibarəsi məmləkətimizin müsəlmanlarının məfhumu olan türki-Azərbaycan dilindən ibarət olacaqdır» deyirdi. «Kəşkül»ün əməkdaşları içərisindən Tiflisdə yaşayan görkəmli əcnəbi ziyalılarından - Tiflisin baş hakimi Babov, maarif məclisinin sabiq müdiri Qursaladze, Qori Müəllimlər Seminariyasının müəllimi A.O.Çernyayevski, ədib və jurnalist Eritsov, azərbaycanlılardan isə F.Köçərli, S.Qənizadə, R.Axundov, G.Kəngərli və digərlərinin adlarını çəkmək olar.

«Kəşkül» nəinki Azərbaycan türklərinin, eyni zamanda Cənubi Qafqazın digər xalqlarının da ictimai-siyasi həyatına müəyyən təsir göstərə bilmişdi. Qəzet gürcü ziyalılarından Qursaladzeyə, Çavçavadzeyə və digərlərinə rəğbətlə yanaşır, onların gördüyü işləri və əsərlərini öz səhifələrində canlandırırdı. C.Ünsizadə Cənubi Qafqazın digər nümayəndələrinin əsərlərinin dilimizə tərcümə olunmasına, onlardan maarifləndirmə prosesində istifadəyə və qonşu xalqlarla mədəni-ədəbi mübadilənin yaradılmasına xüsusi həssaslıqla yanaşırdı. Məsələn, qəzet İ.Çavçadzenin «Bahar» şeirini Azərbaycan dilinə çevirmişdi. Baxmayaraq ki, senzura bu şeirin nəşrini qadağan etmişdi. Qəzet İ.Çavçadzenin yaradıcılığında vətənpərvərlik, öz xalqına sevgi motivlərini alqışlayır və ədibin gürcü ədəbiyyatının inkişafına verdiyi töhfələrdən bəhs edirdi.

Yusuf Akçuralı Ünsizadə qardaşlarının yaratdıqları mətbu orqanlarının türkçülükdən daha çox islama xidmət etdiyini, xüsusilə «Azəri şivəsini Qərb, İstanbul türkcəsinə yaxınlaşdırmaq qayəsini təqib etdiyi üçün «Kəşkül» və «Ziya»nın sahib və yazarlarının çar hökuməti tərəfindən təqiblərə və sorğu-suala məruz qalmış olduqları» və bu səbəbdən «Qafqazı tərk etməyə məcbur olmaları» barədə öz əsərində maraqlı məlumatlar vermişdir [11, 48].

Azərbaycan dilinə önəm verən «Kəşkül»ün 1887-ci il tarixli 15-ci sayında «Bir şəxs» imzası ilə çap etdirdiyi «Ana dilimiz» məqaləsində yazırdı: «Öz millətini əbədi saxlamaq istəyənlər bu ana dillərini saxlamalıdırlar və o dildə elm və fününi övladi-millətə verilməlidir» [7].

«Kəşkül» qəzeti və mətbəəsi Azərbaycan xalqının maarifləndirilməsində, onun siyasi və ictimai inkişafı tarixində özünəməxsus rolu ilə fərqlənmişdir.

XX əsrin əvvəllərində Azərbaycan xalqını maarifləndirmək uğrunda çalışan görkəmli ziyalımız Məhəmməd ağa Şahtaxtlının ilk cəhdi uğursuz alındı. Onun hələ 1896-cı ildə «Tiflis» adında qəzet çıxarmaq istəyi baş tutmamışdı. Bu barədə Şahtaxtlının hökumətə ünvanladığı müraciətdə oxuyuruq: «...Mən 1896-cı ildə oxşar xahişlə çap işləri üzrə Baş İdarəyə, ona mərhum M.P.Solovyovun rəhbərlik etdiyi zaman müraciət etmişdim, Qafqaz Senzura Komitəsinin mənim şəxsiyyətim və tərəfimdən təklif olunan məcmuə haqqında tamamilə müsbət rəyinə baxmayaraq xahişim rədd edilmişdir..» [5, 2]. Qeyd etdiyimiz dövrdə Avropada təhsil almış M.Şahtaxtlının maarifçilik və ədəbi-jurnalistlik fəaliyyəti xalqımızın milli-siyası inkişafına böyük töhfələr vermişdi. İlk azərbaycanlı poliqlot hesab olunan M.Şahtaxtlı Rusiyada, Almaniyada və Fransada təhsil almışdı. Şahtaxtlı Avropa mədəniyyətinin Şərqdə yayılmasının və müsəlman xalqlarının dünyada gedən inkişaf proseslərinə inteqrasiya etməsinin tərəfdarı idi. M.Şahtaxtlı zəngin əmək fəaliyyəti ilə məşğul olmuşdur. O, «Moskovskiye vedomosti», «Novoye vremya», «Sankt-Peterburqskiye vedomosti» qəzetlərində, müxbir kimi fəaliyyət göstərmişdi. Rus mətbuatı ilə yanaşı, fransız, ərəb və fars qəzetlərində, Sarbonna Universitetində, Beynəlxalq Fonetika Cəmiyyətində və Fransa Akademiyasının «Asiya» Cəmiyyəti şöbəsində işləmiş, Şərqin və Qərbin müxtəlif mətbu orqanlarında «Mehmet bəy» imzası ilə çıxışlar etmişdir. 1902-ci ildə Tiflisə köçən M.Şahtaxtlı burada yaşamağa başlayır və Tiflisdə mətbəə yaradır. Tiflis mühitinin Şahtaxtlının baxışlarının formalaşmasında böyük təsiri olur.

1903-cü ilin əvvəllərində çar hökumətinə müraciət edən Şahtaxtlı Tiflisdə «Şərqi-rus»adlı qəzetin nəşrinə icazə istəyir. Tiflis şəhərində Olginskaya küçəsi, 16 ünvanında yaşayan İrəvan quberniyasının Naxçıvan şəhərinin sakini Məhəmməd Sultanoviç Şaxtaxtinski tərəfindən Qafqazın mülki işlər üzrə baş rəisi general-adyutant knyaz Qriqori Sergeyeviç Qolitsinə ünvanlanmış ərizədə deyilirdi: «Zati alinizdən mənə Tiflis şəhərində aşağıdakı proqram üzrə ilkin senzura altında azərbaycan türk dilində «Русский Восток»

(«Şərqi-Rus») adı ilə ədəbi-ictimai qəzet dərc etmək haqqında müraciətimi rədd etməyərək icazə verməyinizi xahiş edirəm. Bu qəzet həftədə 3 dəfə - çərşənbə, cümə və bazar günləri çıxacaq və onun rus və fars dillərində, özündə qəzet çərçivəsində mövcud olan çap materialını əks etdirən iki əlavə olacaqdır: birincisi həftənin bazar günləri, ikincisi isə cümə axşamları çıxacaqdır.

İllik ödənişi mən çatdırılma olmadan qəzet üçün 7 rubl, hər bir əlavə üçün isə 6 rubl təyin etmək istərdim. Pərakəndə satış üçün hər üç nəşrdən asılı olmayaraq bir nömrə üçün qiymət 5 qəpikdir. Nəşrin proqramı: 1. «Кавказский Вестник», «Русский Инвалид», «Кавказ» və digər rəsmi nəşrlərdən alınan xəbərlər əsasında hökumət qərarları; 2.Şimal Teleqraf Agentliyinin və digər məsul müxbirlərin teleqramları; 3.Yerli həyatın xronikası və Qafqaz diyarının daxili yaşayışı haqqında xəbərlər; 4.Rusiyadan daxili xəbərlər və xarici baxış; 5.İqtisadi və ticarət bölməsi; 6.Felyeton (elmi-ədəbi); 7.Qarışıq; 8.Məhkəmə bölməsi (məhkəmə qərarlarını müakirə etmədən); 9.Məlumat bölməsi – qatarlar, dəmir yolları, gedən və gələnlərin siyahısı, həkimlərin, vəkillərin və s. ünvanları; 10.Elanlar» [5, 2].

Daha sonra isə Şahtaxtlı yazdığı ərizəyə əlavə kimi özü haqqında məlumatı, qəzetin nəşr olunmasında məqsədini və s. məsələləri qeyd edirdi. O, bu barədə qeyd edirdi: «...belə bir qəzetin dərcinə son dövrlərdə daha çox ehtiyac yarandığını nəzərə alaraq, mənim tərəfimdən yuxarıda qeyd olunan qəzetin göstərilən proqram əsasında dərcinə icazə verilməsi barədə xahişimi yeniləməyə cəsarət edirəm.

Burada, Tiflisdə Azərbaycan qəzetinə ehtiyac o qədər güclü hiss olunur ki, aralarında demək olar ki müsəlman olmayan Tiflis şərqşünasları artıq Tiflisdə belə bir qəzetin təsis edilməsinə və mənim ona redaktorluq etməyimə ciddi niyyətlərini ifadə etmişlər.

Ümid edirəm ki, Zati Aliniz hazırkı belə bir faktı da nəzərə alaraq müraciətə mənim üçün faydalı şəkildə iltifatla baxacaqsınız ki, bu müraciət əksəriyyəti rus xadimləri olan, Qafqazı və Qafqazda rus məsələsini mükəmməl bilən və Zati Aliniz tərəfindən idarə olunan diyarda yüksək idarələrdə yuxarı vəzifələri tutan «Şərqşünaslıq Cəmiyyəti»nin Tiflis Bölməsinin üzvlərinin bu mövzu ilə əlaqədar fikirlərinə tam uyğun gəlir. Mən dərindən inanıram ki, Azərbaycan qəzeti bu diyarda mədəni inkişafa və vətəndaşlığa əhəmiyyətli xeyir verəcəkdir» [11, 2].

Bundan sonra özü haqqında, fəaliyyəti və gördüyü işlər barədə yazırdı: «Mən imza ilə və imzasız demək olar ki, bütün rusdilli paytaxt qəzetlərində yazmışam və bir neçə il dalbadal «Московские ведомости» və «Новое время» qəzetlərinin Konstantinopolda (İstanbulda) müxbiri vəzifəsində çalışmışam.

Mən 1897-ci ildə mən mərhum Şakir paşanın, Sankt-Peterburqdakı keçmiş türk səfirinin «Müsəlman dünyasında Günəş Tarix Hesabı» adlı

kitablarını türk dilindən rus dilinə tərcümə etmişəm. Rus və doğma Azərbaycan dillərindən başqa mən həm də fransız, alman, ərəb, fars, osmanlı dillərini bilirəm, ingilis dilində də başa düşürəm. Son dörd ili mən Parisdə yaşamış və elmlə məşğul olmuşam. Mənim ərəb tarixi barəsində bir əsərim haqqında akademik Qartveq Derenburq Fransa Elmrlər Akademiyasının rəsmi orqanı olan «Journal des Savants» adlı jurnalda (1901-ci il) hesabat vermişdir. Ötən il mən Fransanın Xalq Maarif Nazirliyi tərəfindən «Eleve titulaire de l Ecode Pratique des Hautes Etudes» dərəcəsi üzrə diplom almışam. Bundan başqa mən Fransanın «Societe Asiatique» («Asiya Cəmiyyəti») adlı cəmiyyətinin də üzvüyəm…».

Sonda isə M.Şahtaxtlı qəzetin Tiflisdə Libermanın tipoqrafiyasında dərc ediləcəyini və ölçüsünün «Свет» qəzeti ilə eyni olmasını arzu etdiyini bildirirdi.

Arxiv materiallarının sonrakı təhlili göstərir ki, hökumət 1903-cü ilin əvvəllərində Senzura Komitəsinin güclü nəzarəti altında «Şərqi-rus»un nəşr olunmasına razılıq verir [5, 22].

«Şərqi-rus» qəzetinin ilk nömrəsi 1903-cü il martın 30-da çıxdı. Qəzet əvvəllər həftədə üç dəfə çap olunurdu. 1904-cü ilin iyunun 8-dən etibarən isə gündəlik qəzetə çevrildi.

Azərbaycanın ictimai-siyasi fikir tarixində, maarifçilik hərəkatının genişlənməsində «Şərqi-rus» qəzetinin mühüm xidmətləri var. O, XX əsrin ilk, həm də gündəlik Azərbaycan qəzetidir. Dövrün müxtəlif millətləri təmsil edən ziyalıları bu qəzetlə sıx əməkdaşlıq etmişdilər. Fransız şərqşünası L.Büva «Jurnal Azyatik»də «Azərbaycan türklərində bir siyasi-ictimai qəzet» adlı yazısında qeyd edirdi: «Qafqazın türk müsəlmanlarını maarifləndirmək və savadlandırmaq məqsədi ilə «Şərqi-rus» qəzeti bütün əməkdaşlarının istək, arzularını, fikirlərini açıq söyləməyə, onları müdafiə etməyə çağırır» [16, 53].

İ.Qaspralı Baxçasarayda nəşr etdirdiyi «Tərcüman»da Məhəmməd Ağa Şahtaxtlının redaktorluğu ilə «Şərqi-rus» qəzetinin nəşrini Cənubi Qafqazda yaşayan türklərin həyatında mühüm bir hadisə olduğunu bildirirdi [15]. O, Tiflisdə M.Şahtaxtlının naşirliyi ilə uzun zəhmətdən sonra ərsəyə gələn «Şərqi-rus»un fəaliyyətə başlamasına sevinir, onu «Tərcüman»ın ideya, məslək ortağı hesab edirdi [13].

«Şərqi-rus» ictimai-siyasi vəziyyəti düzgün təhlil edərək, millətin ağır güzəranını, savadsızlığı, ədalətsizliyi pisləyir öz ideya istiqamətinə uyğun olaraq real vəziyyəti olduğu kimi təsvir edirdi. Bununla bərabər M.Şahtaxtlının ictimai-siyasi baxışlarının həddən ziyadə qərbə meylli olması, onun bir çox məsələlərdə hökumətə güzəştə getməsi, əlifba islahatı, məktəb, hicab və s. ilə bağlı layihələri Ö.F.Nemanzadə, Ə.Ağaoğlu, İ.Qaspıralı, Ə.Topçubaşov və digərlərinin güclü tənqidinə tuş gəlmişdi.

İqtisadi böhran, daha sonra isə rus-yapon müharibəsinin başlaması «Şərqi-rus»a da mənfi təsir göstərmiş, çoxlu maddi problemlərinin yaranmasına

səbəb olmuşdu. Bununla əlaqədar M.Şahtaxtlı 1904-cü ilin iyununda hökumətə müraciət edərək ona köməklik göstərilməsini xahiş edir. Şahtaxtlının Qafqazın mülki işlər üzrə baş rəisi dəftərxanasının direktoruna ünvanladığı müraciətdə deyilirdi: «Mən ikinci ildir ki, Tiflisdə tatar dilində «Шяркы Русь» qəzetini nəşr edirəm... Mənim qəzetim tatar dilində yeganə mətbu orqanı kimi bu ada layıq olaraq həm diyarın, həm də İmperiyanın müsəlman əhalisinin ziyalı hissəsinin rəğbətini tez qazanmışdır. Təkcə Rusiyanın Avropa və Asiya hissəsində deyil, eləcə də uzaq Sibirdə də elə bir məntəqə yoxdur ki, orada müsəlmanlar yaşamasın və mənim orda abunəçilərim olmasın. Ancaq onlarn sayı hələ qəzetin nəşri üçün xərcləri qarşılamaqdan ötrü yetərli deyildir.

Əgər hazırda «Шяркы Русь» qəzeti öz xərclərini ödəyə bilmirsə, bu, bütün yeni ərsəyə gələn dövri mətbuatın ümumi, qaçılmaz aqibətidir. Nəşrin elə əvvəlindən qəzeti cəlbedici şəkildə nümayiş etdirmək lazım gəlir ki, o özünü reklam edə bilsin. Belə vəziyyət isə çoxlu pul tələb edir. Qəzetin hamı tərəfindən tanınması və öz xərcləri üçün kifayət qədər abunəçi qazanması üçün ən azı 2-3 il vaxt lazımdır. Əsas gəlir mənbəyini təşkil edən elanlara gəldikdə isə, müsəlman işgüzar və ticarət dünyası hələ reklamın faydasını anlamadığı üçün, bu bənd mənim qəzetimin gəlirliliyində cüzi rol oynayır. Bütün bunlara görə mənim qəzetimin xərcləri gəlirlər vasitəsilə ödənilmir. Mən hazırkı qəzeti təsis etmək üçün çalışmağa başladığım vaxtdan etibarən bu işə özümün 17 min rublumu xərcləmişəm və 8 min rubl borca girmişəm. Mənim öz vəsaitlərim bitmişdir. Beləliklə də, qəzetin bundan sonra da fəaliyyət göstərməsi üçün təxirəsalınmaz maddi yardım zəruridir...» [5, 40].

Lakin, təəssüflər olsun ki, çar hakim dairələri M.Şahtaxtlının müraciətini qəbul etməmiş, onun xahişinə razılıq verməmişdilər [5, 48].

XX əsrin əvvəllərində Azərbaycanın görkəmli ziyalılarından C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, Ə.Nəzmi, F.Köçərli, Ü.Hacıbəyov, M.Ordubadi «Şərqi-rus»la çox sıx təmasda olmuş və əməkdaşlıq etmişdilər. Qeyd edək ki, «Şərqi-rus»un fəaliyyətində C.Məmmədquluzadənin elə M.Şahtaxtlı qədər əziyyəti olmuşdur. 1904-cü il noyabrın sonundan 1905-ci il yanvarın ortalarınadək C.Məmmədquluzadə «Şərqi-rus»un müvəqqəti redaktoru vəzifəsini icra etmişdi. Bu vəzifə onun gələcəkdə «Molla Nəsrəddin»i ərsəyə gətirməsində böyük rol oynamışdı.

Beləliklə, 1903-1907-ci illərdə fəaliyyət göstərmiş «Şərqi-rus» XX əsrin əvvəllərində Azərbaycanda maarifçilik hərəkatının genişlənməsində, xalqın milli-siyasi dirçəlişi hərəkatında yaxından iştirak etmiş, mütərəqqi ideyaların yayılmasında ziyalılarımıza dəstək olmuşdur. Müəyyən çatışmazlıqlarına baxmayaraq «Şərqi-rus»un Azərbaycanın mətbuat tarixində yeri və rolu danılmazdır.

«Şərqi-rus» bağlandıqdan sonra Ö.F.Nemanzadə və C.Məmmədquluzadə naxçıvanlı tacir Məşədi Ələsgər Bağırovun maliyyə dəstəyi ilə

M.Şahtaxtinskidən redaksiyanın mətbəəsini alırlar. «Qeyrət» adlandırılan bu mətbəə 1905-1907-ci illərdə fəaliyyət göstərir. «Qeyrət» mətbəəsi öz dövrünə görə lazım olan bütün növ texnika və ləvazimatla tam təmin olunmuşdu və burada müxtəlif növ poliqrafiya xidmətləri həyata keçirilirdi. Mətbəənin ilk elanında deyilirdi: «Tiflisdə «Qeyrət» mətbəəsi türkcə, farsca, ərəbcə, rusca və firəngcə hər növ kitab, məcmuə və hər cür tüccar və divanxana dəftər və kağızları ən gözəl hərf ilə çap edir».

Azərbaycan ədəbiyyatına, mədəniyyətinə böyük töhfə olan kitabçalar, siyasi mahiyyətli intibahnamələr, müraciətlər də çap edən «Qeyrət»çilər mətbuatımızın, elm və mədəniyyətimizin inkişafında misilsiz xidmətlər göstərmişdilər [16, 60].

Cəlil Məmmədquluzadənin redaktorluğu ilə 1906-cı ildən Tiflisdə nəşr olunmağa başlayan «Molla Nəsrəddin» satirik jurnalı da qısa bir zamanda nəinki müsəlmanlar, azərbaycanlılar arasında, demək olar ki, bütün Cənubi Qafqazda və hətta ondan uzaqlarda da böyük oxucu kütləsi qazanmışdı. Xalqın qəflət yuxusundan ayılmasına, onun milli özünü dərkinə, maariflənməsinə xidmət edən bu mətbu orqanı 1918-ci ilə qədər Tiflisdə, daha sonra isə Təbrizdə və Bakıda nəşr olunmuşdur. 25 il ərzində jurnalın 748 nömrəsi (340-ı Tiflisdə, 8-i Təbrizdə, 400-ü Bakıda) çıxmışdır. «Molla Nəsrəddin» Azərbaycan xalqının mütərəqqi qüvvələrini, demokratik düşüncəli insanlarını öz ətrafında toplaya bilib.

Tiflis şəhərində çap olunmuş Azərbaycan mətbu orqanları içərisində özünün məxsusi dəsti xətti ilə seçilən, kəskin satira və tənqidlə cəhaləti və geriliyi pisləyən, xalqı maarif çırağının gur işığı ətrafında yeniliyə, inkişafa səsləyən realist «Molla Nəsrəddin» jurnalı xüsusi yer tuturdu. Ümumilikdə, Qafqazda, Şərqdə, bütün müsəlman dünyasında cəhalətə qarşı mübarizə aparan bu mətbu orqanı XX əsrin əvvəllərində Azərbaycan mətbuatı tarixində yeni bir mərhələnin başlanğıcını qoymuşdur.

1906-cı il fevralın 21-də Cəlil Məmmədquluzadə «Molla Nəsrəddin» adlı jurnalın nəşr olunması üçün rus hökumətinə ərizə yazmışdı. Tiflisin Priyutskaya küçəsi 18 saylı evdə yaşayan Cəlil Məmməquluzadə tərəfindən Tiflis qubernatoruna müraciətdə (ərizədə) deyilirdi: «Zati-Alinizdən Tiflis şəhərində, mənə məxsus mətbəədə tatar dilində mənim redaktoruluğum altında «Molla-Nəsrəddin» (bu ad müsəlman ədəbiyyatında məşhur lətifə ustası kimi tanınır) adı ilə aşağıdakı proqram üzrə həftəlik satirik-yumorstik jurnal dərc etməyə icazə verməyinizi xahiş etməkdən şərəf duyuram: 1. Söhbətlər; 2. Hazırcavab zarafatlar; 3. Felyetonlar; 4. Yumoristik şerlər; 5. Yumoristik teleqramlar; 6. Satirik hekayələr; 7. Lətifələr; 8. Poçt qutusu; 9. Yumoristik elanlar; 10. Özəl elanlar; 11. Karikaturalar və illustrasiyalar. Abunə qiyməti: illik – 5 rubl, aylıq – 3 rubl, 3 aylıq – 2 rubl. Ayrı-ayrı nömrələrə abunə - on beş qəpik.

Bununla bərabər Zati Alinizin diqqətinə ərz etməyi özümə borc bilirəm ki, 1904-cü ildə yüksək dairə rəisliyinin göstərişi ilə mən «Şərqi-rus» qəzetinin redaktoru kimi təsdiq olunmuşam və keçən ilin yayından Əlahəzrət İmperatorun Qafqazdakı canişini tərəfindən Tiflis şəhərində «Novruz» qəzetini dərc etməyə mənə icazə verilmişdir, lakin müəyyən mülahizələrə səbəbindən mən bu qəzetin nəşr edilıməsindən vaz keçdim» [6, 2].

Digər bir sənəddə-Tiflis polismeystrliyinə ünvanlanmış müraciətdə isə C.Məmmədquluzadənin müraciəti və şəxsiyyəti barəsində məlumat toplanmasına dair təcili göstəriş verildiyinin görürük. Burada deyilirdi: «Tiflis şəhərində, Priyutskaya küçəsi, 18 ünvanında yaşayan Cəlil Məmməquluzadə tərəfindən ona Tiflis şəhərində tatar dilində öz mətbəəsində onun redaktorluğu altında «Molla-Nəsrəddin» (bu ad müsəlman ədəbiyyatında məşhur lətifə ustası kimi tanınır) adı ilə həftəlik satirik-yumoristik jurnal dərc etməyə icazə verilməsi barədə ərizəsi ilə əlaqədar olaraq Dəftərxana Qubernatorun tapşırığı ilə Sizdən xahiş edir ki, onun hansı ölkənin vətəndaşı olması və yaşı haqqında, ümumi vətəndaş hüquqlarına malik olub-olmaması və Dövlət Dumasına seçkilərlə bağlı qaydanın 7-ci maddəsindəki şərtlərə uyğun gəlib-gəlmədiyi haqqında məlumat verəsiniz» [6, 4].

Digər bir arxiv sənədində isə biz artıq hökumətin jurnalın nəşrinə icazə - Şəhadətnamə verməsi barədə sənədə rast gəlirik [6, 6-8]. «Molla Nəsrəddin» ilk nömrəsini aprelin 7-də nəşr etmişdi. Burada «Molla Nəsrəddin» imzası ilə «Tiflis, 7 aprel» sərlövhəli baş məqaləsi, «Məcmuəmizə müştəri olanlara nəsihət», «Molla Nəsrəddinin teleqramları», «Bilməli xəbərlər», «Dəllək», «Atalar sözü» və digər yazılar, həmçinin 4 müxtəlif karikatura və bir neçə elan dərc olunmuşdu. Jurnal həftədə bir dəfə nəşr olunmalı idi.

«Molla Nəsrəddin» satirik gülüş yolu ilə cəmiyyətdə mövcud olan nöqsanları, dini fanatizmi, cəhaləti, geriliyi, yeniliklərə və inkişafa qarşı laqeydliyi və digər bu kimi mənfi halları qabardaraq gülüş hədəfinə çevirir və onların aşkarlanmasına, aradan qaldırılmasına belə desək münbit şərait yaradır, kütləvi maarifləndirmə ilə xalqı oyatmağa çalışırdı. Eyni zamanda mollanəsrəddinçilər jurnalda təmiz Azərbaycan türkcəsindən istifadə etməklə hamının anlayacağı sadə üsluba müraciət edirdi.

Jurnalın birinci sayı min, ikinci sayı isə iki min titajla nəşr olunmuşdu. Onun belə qısa zamanda populyarlaşması, jurnalın ideya-siyasi istiqaməti, karikaturalar və s. çar hakimiyyət orqanlarını narahat etmiş və ikinci nömrə bütünlükdə müsadirə olunmuşdu. N.Nərimanov, Ü.Hacıbəyov və bir sıra görkəmli ziyalılarımız mətbuat vasitəsilə bu hadisəyə öz etirazlarını bildirmişdilər.

1909-cu il sentyabrında Tiflis quberniya dəftərxanasının Tiflis çap işləri komitəsinə ünvanladığı müraciətində Cəlil Məmmədquluzadənin həmin ilin 17 iyul tarixli ərizəsinə əsasən «Molla Nəsrəddin» jurnalının çapını onun öz

mətbəəsindən Bolşoy Vankskoy küçəsi, 14 №li evdə yerləşən Gürcü Mətbəə Yoldaşlığına keçirməsi haqqında məlumat öz əksini tapmışdır [6, 14].

1910-cu ilin noyabrından 1911-ci il martın sonunadək M.Sidqi «Molla Nəsrəddin»nə müvəqqəti redaktorluq etmişdi [16, 86].

1911-ci ildən «Molla Nəsrəddin»ə qarşı senzor hücumları yenidən güclənməyə başlayır. Hətta çar senzurası jurnalın redaktorlardan müəyyən iltizamlar almaqla onun ideya istiqamətini məhdudlaşdırır, normal fəaliyyətinə mane olurdu. 1912-ci ilin martından 1913-cü il yanvar ayının 13-dək C.Məmmədquluzadə jurnalın fəaliyyətini dayandırmağa məcbur olmuşdu. 1914-1917-ci illərdə jurnal yenidən öz nəşrini «qeyri-müəyyən vaxta qədər dayandırır». Bunun bir səbəbi də naşirin maddi vəziyyətinin ağırlığı və dünya savaşının başlaması idi. C.Məmmədquluzadənin 1914-cü il noyabr ayının 17-də Tiflis Mətbuat İşləri Komitəsinə ünvanladığı müraciət bunu təsdiq edir. Lakin 1915-ci ilə aid arxiv sənədlərində Məmmədquluzadənin jurnalı yenidən nəşr etmək üçün hökumətə müraciəti barədə məlumatlar öz əksini tapmışdır. «Molla Nəsrəddin» jurnalının redaktor-naşiri, Yelizavetpol quberniyasının Şuşa qəzasının Kəhrizli kəndində müvəqqəti yaşayan Cəlil Məmmədquluzadə tərəfindən Tiflis qubernatoruna ünvanlanmış 16 oktyabr 1915-ci il tarixli ərizədə deyilirdi: «18 oktyabr 1914-cü ildə, maddi çətinlik ucbatından mən jurnalın nəşrini müvəqqəti olaraq dayandırdım və bu barədə Tiflis Çap işləri Komitəsinə və Tiflis Poçt-Teleqraf Kontoruna müvafiq məlumat verdim. Hazırda «Molla Nəsrəddin» jurnalını dərc etmək üçün yenidən imkan əldə edərək, Zati-Alinizdən xahiş edirəm ki, bu jurnalı həmin redaktorluq altında və eyni proqramla çap etməyimə icazə verəsiniz» [6. 34].

Təxminən üçillik fasilədən sonra 1917-ci il fevralın 9-da «Molla Nəsrəddin» yenidən fəaliyyətə başlamağa müəssər olmuşdur. Azərbaycanın görkəmli ziyalısı və mütəfəkkiri C.Məmmədquluzadə uzun müddət «Molla Nəsrəddin»ə naşirlik etmiş, yorulmadan, usanmadən bütün ömrünü xalqının maariflənməsi, cəhalət girdabından xilas olması və dünyanın inkişaf etmiş xalqları ilə ayaqlaşa bilməsi yolunda xərcləmişdir. Mirzə Cəlil bütün yaradıcılığı və fəaliyyəti ilə qəflət yuxusuna getmiş millətini oyatmağa çalışmış, maarifçilik ideyalarını geniş təbliğ etmişdir. Ədibin «Azərbaycan» və «Cümhuriyyət» adlı məqalələri xalqımızın tarixinə, vətənpərvərlik, dövlətçilik kimi ali prinsiplərinə həsr olunmuşdur. Ən əsası isə C.Məmmədquluzadə böyük bir mollanəsrəddinçilər nəslini yetişdirməyə müvəffəq olmuşdur. «Molla Nəsrəddin» satirik məcmuəsi müsəlman xalqlarının milli oyanışına, azadlıq ideyalarına böyük töhfələr verdi. Orta Asiya, İran, Türkiyə, Tatarıstan və başqa yerlərdə inqilabi ideyaların və yeni tipli realist ədəbiyyatın yaranmasında onun əvəzsiz xidmətləri oldu. «Azərbaycan», «Bəhlul», «Suri-İsrafil», «Baba Şəməl», «Nəsimi-Şimal», «Tokmak» dərgilərinin «Molla Nəsrəddin»lə möhkəm ideya bağlılığı olmuş və unun yolunu davam etdirmişlər.

Məşhur ictimai-siyasi xadim və publisist Ə.Ağaoğlu «İrşad» qəzetinin 16 aprel 1906-cı il tarixli sayında «Molla Nəsrəddin»ni nəzərdə tutaraq yazırdı: «Baxın «Molla Nəsrəddin»ə. Bu cəridə nə gözəl cəridədir. Nə qədər ağıl, zəka, məharət və zövq göstərir. Nəinki biz müsəlmanlar, bəlkə ən mədəni, ən mütərəqqi tayfalar belə cəridələri ilə fəxr edirlər». Ə.Ağaoğlu öz həmvətənlərini C.Məmmədquluzadənin bu cəsarətli addımını qiymətləndirməyə və müdafiə etməyə səsləyirdi.

Tiflisdə Ünsizadə qardaşlarının ən kiçiyi olan Kamal Ünsizadə tərəfindən nəşr olunmuş «Məzhər» qəzeti haqqında çox az məlumat mövcuddur. Qəzet 1907-ci ildən 1911-ci ilə qədər çıxmışdır. Lakin qəzet müntəzəm olaraq nəşr oluna bilməmişdir. «Məzhər»in çap olunmuş nömrələri haqqında Şəhadətnaməsində aşağıdakı məlumat qeyd olunmuşdur: 1908-ci ildə 8; 1909-cu ildə 13; 1910-cu ildə 4; 1911-ci ildə isə cəmi 1 sayı nəşr olunmuşdur [12, 116].

Beləliklə, Azərbaycanın mətbuat tarixinə, onun yaranması, formalaşması və inkişafı mərhələlərinə nəzər yetirərkən Tiflis səhifələrini vərəqləmədən keçmək mümkün deyil. XIX əsr - XX əsrin əvvəllərində Azərbaycan mətbuatının ən dəyərli nümunələri məhz Tiflis şəhərində Azərbaycanın görkəmli ziyalıları tərəfindən yaradılmış, bəhs olunan dövrdə Azərbaycan millətinin, onun milli məfkurəsinin, ideologiyasının, mədəniyyətinin formalaşmasında və inkişafında əvəzsiz rola malik olmuşdur.

## ƏDƏBİYYAT

1. **Gürcüstan Mərkəzi Tarix Arxivi**. GMTA, f.424, siy.1, iş.180. v.23.
2. **GMTA**, f.5, siy.1, iş.2817. v.21-28.
3. **GMTA,** f. 480, siy.1, iş.330. v.1. v.3-5. v.3.
4. **GMTA**, f.5. siy.1, iş.5295. v.1. v.2. v.12. v.13.
5. **GMTA**. f.12, siy.7, iş.2720, v.2. v.22. 40. 48.
6. **GMTA**. f.17, siy.1, iş.5386, v.2.4.6-8. 14. 34.
7. **«Ana dilimiz».** «Kəşkül», 1887-ci il. ą15.
8. **«Kəşkül»,** 1887, № 44.
9. **«Ziya»,** 1879, № 3.
10. **«Ziyayi-Qafqaziyyə»,** 1883, № 11.
11. **Akçuraoğlu Y.** «Türkçülüyün tarixi».Bakı, «YOM», 2006. 144 s.
12. **Borçalı Ziya.** "Tiflis Azərbaycan mətbuatı tarixindən (1830-1920)". Bakı: "Borçalı" NPM, 2005. 118 s.
13. **Qaspıralı İ.** «Tiflisdə yeni qəzet». «Tərcüman», 19 aprel 1903, № 15.
14. **Qaspıralı İ**. «Zamanın tarixçəsi». «Tərcüman», 1 fevral 1908, № 2.

15. **Tahirli A.H.** Bütün türklərin tərcümanı. (təkrar və təkmilləşdirilmiş nəşr). Bakı, «Ozan» nəşriyyatı, 2012. 312 səh.
16. **Vəliyev A.A.** Azərbaycan mətbuatı tarixi (1875-1920). Bakı Elm və Təhsil, 2009. 296 səh. s.6.6.5.28.29.34.53.60.86.
17. http://www.wikiwand.com/az/Tiflis_%C9%99xbar%C4%B1_(q%C9%99zet)#/M.C9.99nb.C9.99.

**UOT 94(479.242)**

# BÖYÜK BRİTANİYANIN ARXİV MATERİALLARI ƏSASINDA İNGİLTƏRƏNİN "ERMƏNİ" SİYASƏTİ VƏ NAXÇIVANA TƏSİRİ (1917-1920-ci illər)

***E.A. Şıxəliyev***
*AMEA Naxçıvan Bölməsi*
*emin.amea@yahoo.com*

***Açar sözlər:*** *Böyük Britaniya, ermənilər, Azərbaycan, Naxçıvan, soyqırımı.*

Məqalədə "Erməni məsələsi"nin İngiltərənin siyasi planlarındakı yeri araşdırılmış və bu planın Azərbaycan, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan baxımından doğurduğu ağır nəticələri arxiv materialları əsasında təhlil edilmişdir. Qeyd olunur ki, 1917-ci ildə Çar Rusiyasının yıxılması nəticəsində Cənubi Qafqaz İngiltərənin təsir dairəsinə keçmiş və ingilis siyasətinə uyğun olaraq ermənilər pul, silah və sursatlarla təchiz edilmişlər. Nəticədə 1918-1920-ci illərdə Azərbaycanda, o cümlədən Naxçıvanda soyqırımı gerçəkləşdirilmişdir.

## THE ARMENIAN POLICY OF ENGLAND AND ITS IMPACT ON NAKHCHIVAN ON THE BASIS OF ARCHIVAL MATERIALS OF THE GREAT BRITAIN (1918-1920 years)

***E.A. Shikhaliyev***

***Keywords:*** The Great Britain, the Armenians, Azerbaijan, Nakhchivan, genocide

In this article was researched the place of the Armenian Question in the political plans of Britain and was analysed the result of this politics on Azerbaijan and its component part Nakhchivan on the basis of archival materials. It has noticed that, after collapse of Tsar Russia in the 1917, South Caucasia was under surveillance of Britain and in accordance with traditional English policy the Armenians were supported with money and military supplies. As a result of this support it was realized genocide in Azerbaijan and its component part Nakhchivan in 1918-1920 years.

# ВОЗДЕЙСТВИЕ «АРМЯНСКАЯ» ПОЛИТИКА АНГЛИИ И ЕГО ВЛИЯНИЕ НА НАХЧЫВАН НА ОСНОВЕ АРХИВНЫХ МАТЕРИАЛОВ ВЕЛИКОБРИТАНИИ (1918-1920 гг.)

***Э.А. Шихалиев***

***Ключевые слова:*** *Великая Британия, Армяне, Азербайджан, Нахчыван, геноцид.*

В статье исследовано места «Армянского Вопроса» политических планах Великобритании и на основе архивних материалов были проанализированы тяжелые последствия этой политики для Азербайджана, в частности для его неотъемлемой части Нахчыванского края. В ней отмечается, что в 1917 году в результате падания Российского царства Южный Кавказ попал под влияние Англии и в соответствии с их политикой армяне были обеспечены деньгами и оружиями. В результате 1918-1929 годах в Азербайджане, в том числе в Нахчыване произошел геноцид местного населения - азербайджанцев.

Məlum olduğu kimi, ermənilər XX əsrin əvvəllərində özlərinin soyqırımına məruz qaldıqlarını önə sürərək, bütün dünyada bu iddianın təbliğatını aparırdılar. Halbuki tarixi sənədlər bu iddianın tam əksini sübut etməkdə və ermənilərin Azərbaycan, eyni zamanda Şərqi Anadoluda soyqırımı gerçəkləşdirdiklərini ortaya qoymaqdadır. Bu araşdırma başlıca olaraq Böyük Britaniyanın Milli Arxivlərində **(The National Archives of United Kingdom)** yer alan sənədlər əsasında hazırlanmışdır. İngiltərə arxivləri ermənilərin törətdikləri cinayətlərlə bağlı reallıqların aşkara çıxarılmasında əsas rol oynayan qiymətli materiallara sahibdir. Bu sənədlərdə erməni faktorunun Böyük Britaniya üçün əhəmiyyətini ifadə edən ingilis dövlət adamlarının öz aralarındakı yazışmaları və yüksək səviyyəli rəsmi şəxslər tərəfindən imzalanmış çox gizli raportlar mövcuddur.

Böyük Britaniya arxivlərində yer alan sənədlər tarixi reallıqların ortaya çıxarılması və araşdırılan problemin daha obyektiv kriteriyalar içərisində dəyərləndirilməsi baxımından olduqca vacibdir. Bu materiallar Panturanizm ideologiyasının ortadan qaldırılmasında ermənilərdən baryer olaraq istifadə edildiyini, Türkiyə ilə Azərbaycan, dolayısı ilə Türk Dünyası arasındakı əlaqələrin kəsilməsi hesaba qatılaraq Ermənistan dövlətinin yaradılmasının Antanta dövlətlərinin birbaşa maraqları daxilində olduğunu, bu məqsədlə

maliyyələşdirilən və hərbi baxımdan silahlandırılan erməni dəstələrinin 1917-1920-ci illər arasında Cənubi Qafqazda, xüsusilə də Azərbaycanda yerli əhaliyə qarşı sistemli soyqırımı siyasəti yeritdiklərini sübut edir. Düşünürük ki, erməni iddialarına tutarlı şəkildə cavab verməninin, əsas olaraq da dünya ictimaiyyətinə həqiqətləri çatdırmağın yolu digər materiallarla birlikdə, Böyük Britaniyadakı arxiv sənədlərinə də müraciət etməkdən keçir.

Məlum olduğu kimi, "Erməni məsələsi" beynəlxalq rəqabətdə maraqları toqquşan iki böyük dövlətin – Rusiya ilə İngiltərənin təhrikləri nəticəsində ortaya çıxmışdır. Xüsusilə Rusiyanın erməni siyasəti İngiltərənin erməni məsələsinə yönəlik baxışına təsir edən amillərin başında gəlir. Rusiya tarixi məqsədlərinə çatmaq üçün Osmanlı ərazisində yaşayan ünsürlərin, xüsusilə ermənilərin problemlərini faydalı potensial amil kimi dəyərləndirdilər. Rusiyanın cənuba enmək üçün Anadolunun şərqində yaşayan xalqın cüzi hissəsini ermənilər təşkil edirdilər. Eyni zamanda kilsənin də təhriki və təşvikiylə radikal millətçilik duyğusuna sahib idilər. Bu səbəbdən Rusiyanın Osmanlı torpaqlarına göstərdiyi marağın özəyində ermənilər və onların problemləri yer almışdı [22, s. 129]. Rusiyanın Yaxın Şərqdə güclənmək və isti dənizlərə çıxmaq strategiyasını özündə ehtiva edən bu siyasəti İngiltərənin ənənəvi siyasətinə tərs düşmüş, nəticədə erməni məsələsi beynəlxalq problemə çevrilmişdir.

İngiltərənin Şərq siyasətində ermənilərə geniş şəkildə yer verilməsi XIX əsrin sonlarına təsadüf edir. Çoxluq təşkil etməsələr də, ermənilərin Osmanlı dövləti ərazisində yaşadığı torpaqların strateji dəyəri ingilis maraqları baxımından olduqca əhəmiyyətli idi. Osmanlı üzərində təzyiq qurmaq istəyən Rusiya kimi İngiltərə də erməni amilini bir vasitə kimi ortaya atdı. Halbuki Rusiyanın isti dənizlərə enməsinin və Yaxın Şərqdə güclənməsinin qarşısnı almaq üçün XVIII əsrin sonlarından başlayaraq Osmanlı dövlətinin ərazi bütövlüyünü qorumaq siyasətini yeritməkdəydi, lakin XIX əsrin sonlarına doğru bu dövləti parçalamaq siyasətini mənimsəməyə başladı. Bunun da əsas səbəbi İngiltərənin siyasi dairələrinin əvvəllər Hindistan yolunun Osmanlı dövlətinin torpaq bütövlyü ilə təminat altına alınması düşüncəsindən qaynaqlanırdı [19, s. 22; 20, 98; 16, s. 14]. Qeyd etmək lazımdır ki, bu dövrdə getdikcə gücünü itirən Osmanlı dövləti digər müstəmləkəçilərin də diqqətini cəlb etməkdəydi. Əsas imperialist dövlətlər olan İngiltərə və Rusiya ilə yanaşı, Fransa və sonradan Almaniya ilə İtaliya üçün də ən başlıca məsələ Osmanlı torpaqlarında öz nüfuz dairəsini genişləndirmək, burada yaşayan qeyri-müsəlman əhalidən öz maraqları üçün faydalanmaq olmuşdur. Osmanlı torpaqlarında yaşayan xristianların himayə edilməsiylə ortaya atılan bəhanələr Avropanın böyük gücləri arasındakı qızğın rəqabət başlatdı. 1895-ci ildən sonra getdikcə artan Almaniya qorxusu Rusiya ilə İngiltərəni bir-birinə yaxınlaşdıran ən önəmli amil oldu. Hər iki dövlət Yaxın Şərq, Orta Asiya və Uzaq Şərqdəki ixtilaflarını uzlaşdıraraq 1907-ci

ildə imzaladıqları anlaşmalarla yeni münasibətlər içərisinə girdilər [bu barədə ətraflı bax: 11, s. 443-450; 13, s. 128-136].

Böyük güclər arasındakı bu rəqabət öz növbəsində erməni məsələsini də beynəlxalq arenaya çıxardı. Ermənilər yaranmış vəziyyətdən cəsarətlənərək hərəkətə keçmiş, ölkə daxilində və xaricində partiyalar və dərnəklər qurmuşlar. Türk düşmənçiliyi üzərində qurulan bu hərəkətlər böyük güclərin geosiyasi məqsədli psixoloji fəaliyyətlərinin nəticəsi idi. Böyük Güclərin hər birinin erməni terror təşkilatları üzərində böyük təsiri var idi [bu barədə ətraflı bax: 11, s. 571-580; 13, s. 184-188; 21, s. CXLVI-CXLIX]. Məhz həmin təsirlərin nəticəsi idi ki, çox sayda türk-müsəlman əhali XIX əsrin sonlarından etibarən qurulmağa başlayan erməni terror təşkilatlarının qurbanına çevrildi. Bu terror təşkilatlarının silahlandırılması ilə Anadoluda və Qafqazda qanlı cinayətlərə imza atıldı. Qeyd etdiyimiz kimi, bu terror təşkilatlarından öz mənafeləri üçün yararlanmaq istəyən dövlətlər, xüsusilə Rusiya ilə İngiltərənin Almaniya qorxusu hər iki dövləti bir-birinə yaxınlaşdıran ən önəmli faktor oldu. Hər iki dövləti maraqlandıran məsələ Almaniyanı “Şərq” məsələsindən uzaqlaşdıraraq, Osmanlı dövlətinin zəngin strateji torpaqlarına sahib olmaq idi. Lakin Birinci Dünya müharibəsinin sonlarına doğru dünyanın siyasi mənzərəsində önəmli dəyişikliklər baş verdi. 1917-ci ildə oktyabr çevrilişinin baş verməsi ilə Antantanın əsas üzvlərindən biri olan Rusiya müharibədən çəkilmək məcburiyyətində qaldı. Antanta ittifaqında Rusiya ilə boşalan yeri ABŞ əvəz etdi. Beləliklə, erməni təşkilatları üzərində tam nəzarət, belə demək mümkündürsə, İngiltərəyə keçdi. İngilislər Birinci Dünya müharibəsi illərində də erməni təşkilatlarına dəstək verərək, onları etnik-milli münaqişələrə və qırğınlara təşviq etmiş, öz siyasətinə uyğun olaraq ermənilərin siyasi gələcəyinə dair öhdəliklər götürmüş, “Müstəqil Ermənistan” üçün ciddi vədlər vermiş, sadəcə Şərqi Anadoluda deyil, Cənubi Qafqazda da onlardan yararlanmış, “erməni məsələsi”ni Azərbaycanda və onun ayrılmaz parçası olan Naxçıvanda gündəmdə tutmuşdur. Bu təşviq hərəkətlərinin pərdə arxası nə idi? Ermənilərin vəziyyəti ingilisləri bu qədər yaxından maraqlandırırdısa, nəyə görə Osmanlı torpaqları üzərində özündən asılı milli dövlətlər yaratma siyasətinə uyğun olaraq Şərqi Anadoluda bir erməni dövlətini qurmadı? Nəhəng Osmanlı İmperiyasını parçalayaraq onun torpaqları üzərində mandatlıq rejimi ilə özündən asılı çox sayda dövlətlər ***(ərəb dövlətləri – E.Ş.)*** yaradan İngiltərə baxımından bu ərazidə “erməni dövləti”nin yaradılması çətin idimi? “Erməni dövləti”nin yaradılması planının Cənubi Qafqaza ixrac edilməsinin əsas səbəbləri nə idi? Bu suallara cavab verə bilmək üçün o dövrün siyasi proseslərini diqqətlə təhlil etmək lazım gəlir.

Geostrateji baxımdan Cənubi Qafqaz İngiltərə üçün böyük əhəmiyyətə malik idi. Xüsusilə Azərbaycan, onun iri sənaye-maliyyə mərkəzi olan Bakı üzərində nəzarətin ələ keçirilməsi və Xəzər limanının zəbt olunması cəhdləri ingilis siyasətinin ənənəvi və prioritet istiqamətlərindən idi. Eyni zamanda onun ümumilikdə Avrasiya ilə bağlı əsas geosiyasi konsepsiyasına uyğun gəlirdi. Xəzər

dənizinə sahib olmaq təkcə Qafqaza deyil, eyni zamanda Mərkəzi Asiyada nəzarət qazanmaq, Hindistana gedən yolu qorumaq demək idi [7, s. 208]. Lakin 1917-ci ildə Rusiyada baş verən hadisələr nəticəsində Qafqaz Osmanlı dövləti üçün açıq dəhlizə çevrildi. Meydana gələn proseslər türklərə Qafqaz vasitəsilə İrana və Orta Asiyaya girmək üçün əlverişli imkan yaratmış, Hindistan təhlükə altına düşmüşdü. Çar Rusiyasında ortaya çıxan qarışıqlıqlar türklərə öz planlarını tətbiq etmək üçün bir fürsət yaratmışdı. Bununla yanaşı, Pantürkist (və ya Turançılıq) arzuların reallaşması üçün də bir yol açılmışdı.

Osmanlı dövlətinin son dövrlərində üç siyasi cərəyan – Türkçülük, İslamçılıq və Osmanlıçılıq – ortaya çıxmışdı. Hər üç cərəyanın tərəfdarları Osmanlı dövlətinin süqutunu önləməyə çalışsalar da, Balkan hərbi ilə Osmanlıçılığın, bunun ardından Birinci Dünya müharibəsində ərəblərin qaldırdığı üsyanlara görə İslamçılığın reallaşmasının mümkünsüzlüyünü görən rəhbərlik dövlətin rəsmi ideologiyası olaraq Türküçülük, daha doğrusu Turançılıq xəttini qəbul etdilər [8, s. 58; 6, s. 35].

1917-ci ildə Rusiyada meydana gələn qarışıqlıqlar türklərə öz planlarını və Pantürkist ideyalarını tətbiq etmək üçün bir fürsət yaratmış, beləliklə, Qafqaza və Xəzər ətrafına, oradan da Orta Asiyaya doğru irəliləmə ehtimalı daha da güclənmişdi. Şərqdəki ingilis maraqları baxımından ciddi təhlükə kəsb edən bu proseslər, Türkiyə, Azərbaycan, İran, Əfqanıstan və Orta Asiya türklərinin birliyi əsasında dünyanın siyasi sistemində çox güclü bir Türk-İslam ittifaqının meydana gəlməsi ehtimalı İngiltərəni müəyyən tədbirlər almaq məcburiyyəti qarşısında qoydu. Çünki belə bir ehtimalın reallaşması İngiltərənin maraqlarına həm Orta Asiyada, daha sonra isə Cənubi Asiyada zərbə vura bilərdi [20, s. 320]. Panturanizm təhlükəsi ilə qarşılaşan İngiltərə Qafqazı strateji baxımdan İran, Əfqanıstan və daha da önəmlisi Hindistandakı iqtidarı üçün həyati dərəcədə əhəmiyyətli hesab edirdi. Yaxın gələcəkdə türk hegemonluğunun qurulması ehtimalı nəzərə alınaraq, İngiltərənin Asiyadakı mövqeyi baxımından real təhlükə mənbəyinin aradan qaldırılması üçün mütləq şəkildə Türkiyə ilə Türk Dünyası arasında bir sədd yaradılmalıydı. Digər tərəfdən, Qafqazın türklər tərəfindən ələ keçirilməsi İngiltərənin yalnız regional deyil, ümumi maraqları baxımından da mənfi nəticələr doğura bilərdi. Azərbaycandakı neft rezervləri ilə Gürcüstandakı mədən və kömür yataqlarının da türk və alman güclərinin əlinə keçməsi İngiltərənin bütün planlarını alt-üst edə bilərdi [14, s. 246]. Məhz bu baxımdan baş verən proseslər qarşısında lazımi tədbirlər alınmalıydı.

İngiltərənin prioritet məqsədi Qafqazdakı müxtəlif etnik və dini qruplar içərisində hansı millətin türklərə qarşı ciddi müqavimət göstərə biləcəyini müəyyənləşdirmək idi. Türksoylu olması baxımından Osmanlıya rəğbət göstərən Azərbaycan türklərinə etimad göstərilməyəcəyi bəlli idi. Öz növbəsində Azərbaycan türkləri də İngiltərənin ermənilərə göstərdiyi yardımlardan dolayı olduqca narahat idilər. Hətta bu yardım ermənilər tərəfindən azərbaycanlılara qarşı

qıcıqlandırma metodu kimi də istifadə olunurdu. Ermənilərin bu davranışları xalqda ingilis hökumətinin açıq şəkildə antiislam siyasət yeritməsi yönündə fikirlər formalaşdırırdı [36]. İngiltərənin Tehrandakı səfiri cənab Marlin Xarici İşlər Nazirliyinə göndərdiyi məlumatda Azərbaycanda yaşayan tatarların *(türklərin – E.Ş.)* getdikcə Türkiyə türklərinə daha çox meyl etdiklərini bildirirdi [35]. Xristian gürcülərin isə almanlarla XIX əsrdən bəri müəyyən əlaqələri vardı [ətraflı bax: 15, s. 184, 195, 283]. Vəziyyəti nəzərə alaraq İngiltərənin Ali Baş Qərargah rəhbərliyi tərəfindən verilən memorandumda sadəcə ermənilərə etimad göstərilə biləcəyi bildirilirdi [34]. Nəticə etibarilə ingilis dəstəyinin ən etibarlı namizədi xristian ermənilər idi. Ermənilərin əksəriyyətinin çar ordusunda vuruşmuş olduqları və əgər müharibə Antanta dövlətlərinin xeyrinə bitərsə, onlara müstəqillik vəd edildiyindən əzmli şəkildə mübarizə aparacaqlarını da isbat etmələri də erməniləri layiqli namizədə çevirən amillərin başında gəlirdi. Əslində ermənilərin başqa yolu da yox idi, çünki onlar Antanta dövlətlərinə öz sadiqliyini nümayiş etdirərək türklərə qarşı xəyanətkarlığın sıxıntısı içərisində idilər. Rus ordusu Ərzurum cəbhəsindən çəkilərkən ermənilər onların boşaltdıqları mövqelərə yerləşmişdilər. Bununla yanaşı, erməni hərbi dəstələrinin Qafqaza gətirilməsi üçün də bəzi fəaliyyətlər aparılırdı. Türklər qələbə qazandığı təqdirdə ermənilər çox şey itirəcəkdilər, lakin müttəfiqlərin zəfəri onlara çox şey qazandıra bilərdi. İngilislərin planları tamamilə fərqli idi. Onların əsas narahatlığı bölgəni türk və almanlara qarşı müdafiə tədbirləri ilə bağlı idi və bu tədbirlər içərisində ermənilərə xüsusi olaraq böyük ehtiyac hiss olunurdu. Bu baxımdan onlar maddi və mənəvi baxımdan dəstəklənirdilər [17, s. 323-324].

İngiltərə hökuməti Türkiyə ilə Türk Dünyası arasındakı yeganə baryerin ermənilər olduğunu anlamışdı. Bu səbəbdən Qafqazı türk ordularına qarşı müdafiə etmək üçün tərcih edilən millət ermənilər oldu. Məşhur ingilis tarixçisi, Birinci Dünya müharibəsi dövründə Hərbi Nazirliyin nəzdində fəaliyyət göstərən Təbliğat Bürosunun tanınmış nümayəndələrindən olan Arnold Tonbi İngiltərənin Xarici İşlər Nazirliyinin nüfuzlu əməkdaşlarından cənab Kidstona yazırdı ki, ***"bizim siyasətimiz erməniləri türk boyunduruğundan xilas etməkdir. Bu baxımdan mənafelərimizdən biri fəal şəkildə Turan hərəkatına mane olmaqdır"*** [38].

Erməni ordusunun İngiltərə tərəfindən hərbi və maliyyə dəstəyi ilə təmin olunduğu bu dövrdə "erməni məsələsi"nə yönəlik siyasi açılımlar da özünü göstərdi. Ermənilər türklərə qarşı müharibə qarşılığında Ermənistanın gələcəyi ilə bağlı öhdəliklər tələb etdilər. Bu tələblər qarşısında London İngilis-Erməni Komitəsinin sədri və İngiltərə Parlamentinin üzvü Anerin Uilyams 4 dekabr 1917-ci ildə İngiltərənin məşhur diplomatlarından olan Xarici İşlər nazirinin müavini, eyni zamanda Millətlər Cəmiyyətinin qurucusu Lord Robert Sesilə göndərdiyi məktubda ermənilərə yardım göstərilməsinin zəruri olduğunu bildirirdi. Anerin Uilyams hətta ermənilərin silahlandırılmasını və Andranik kimi silahlı dəstə liderlərindən istifadə edilməsini də son dərəcə gərəkli hesab

edirdi. Məktubda ingilis, fransız və amerikan hökumətlərinin də erməni ordusuna maddi dəstək vermələrinin vacib olduğu bildirilmiş, sərhədlərdən kənarda yaşayan ermənilərin pul yardımı ilə Şərqi Anadoluya və Qafqaza gətirilmələrinin qaçılmaz olduğu yazılmışdı [33].

İngiltərənin Xarici İşlər Nazirliyi erməni könüllü dəstələrinin Qafqaza fərqli yollardan gəlməsinə də köməklik göstərəcəkdi [31]. Bununla yanaşı, İngiltərənin Hərbi Kəşfiyyat fondlarından da ermənilərə pay ayrılmışdı [39, p. 101]. İngiltərə tərəfindən ermənilərin dəstəklənməsi üçün ayrılan yardım təxminən 20 milyon sterlinq idi [22, s. 293]. Bununla yanaşı, 1917-ci ilin sonları və 1918-ci ilin əvvəllərində ingilislər tərəfindən Tehrandan Bakıya, oradan da ermənilərə verilməsi üçün Tiflisə külli miqdarda qızıl və pul göndərildi [17, s. 329]. Bu işlərlə birbaşa İngiltərənin Xarici İşlər Nazirliyinin qərarına əsasən xüsusi missiya ilə vəzifələndirilən mayor Mak Donel (MacDonell) məşğul olurdu. Qatarların içərisində aparılan bu qızıllar və pullar aynaların arxasında, ventilyatorların içərisində və digər yerlərdə gizlədilirdi. Mac Donel bunların Azərbaycan türkləri tərəfindən bilinməsini istəmirdi. Çünki bu qızılların və pulların ermənilərə göndərildiyi ortaya çıxsaydı, Azərbaycan türkləri tərəfindən tələyə düşürülərək ələ keçirilə bilərdi [17, s. 330-331]. Göründüyü kimi, işlər son dərəcə gizli şəkildə aparılırdı.

Qeyd etmək lazımdır ki, pul, qızıl, müxtəlif silah və sursatlar ermənilərə Panturanizm təhlükəsinə qarşı baryer təşkil etmək üçün verilirdi [32]. Panturanizm təhdidinə qarşı ermənilərdən istifadə siyasəti Versaldakı Antanta Ali Hərbi Şurası ingilis hərbi mütəxəssislərinin 1917-ci ilin dekabr ayındakı memorandumunda açıq şəkildə göstərilməkdədir: ***"Ermənilərə hər vəziyyətdə işğal etdikləri bölgələrdə pul, silah və sursat tədarükü ingilis siyasətinin maraqları daxilindədir. Bu təcrübənin uğurlu olması nəticəsində erməni qüvvələrindən gələcəkdə türklərin diz çökdürülməsi üçün faydalanmaq olar"*** [40].

İngilislərin bu dəstəyi sayəsində hərəkət qabiliyyətlərini artıran, külli miqdarda silah və sursat təmin edən ermənilər Azərbaycanın bir çox bölgələrində ciddi etnik təmizlik siyasəti gerçəkləşdirdilər. Xüsusilə Naxçıvanda, Zəngəzurda, Qarabağda və s. bölgələrdə törədilən qırğınlar erməni silahlı dəstələrinin rəhbəri kimi, adı sonraları erməni milli qəhrəmanı kimi özdəşləşən Andranik Ozanyan və onun kimi radikal türk düşmənçiliyi ilə tanınan Nijde, Dro, Doluxanyan və s. rəhbərliyi altındakı erməni gücləri tərəfindən həyata keçirilmişdi. Bu komitəcilər Anadolu və Qafqazdakı qanlı hadisələrin əsas cavabdehləri kimi ilk sırada dayanırdılar. İngiltərənin arxiv materialları törədilən cinayətlərlə bağlı Andranikin silahların və hərbi sursatların ingilislərdən aldığını təsdiq edir. İngiltərənin Qafqazdakı Ali komissarı Oliver Uordrop İngiltərənin Xarici İşlər Nazirliyinə göndərdiyi bir raportda Andra-

nikin Böyük Britaniya ordusunun mayoru Qibbondan aldığı bütün silahları erməni dəstələrinə payladığını bildirirdi [30]).

Arxiv materiallarında yuxarıda adları çəkilən erməni komitəçilərinin, xüsusilə də Andranik Ozanyanın silahlı dəstələrinin İrəvan əyalətində 200-dən çox, Naxçıvan, Şərur-Dərələyəz və Ordubad nahiyələrində də 50-dən çox müsəlman kəndlərinə silahlı hücumlar təşkil etdiklərinə, kənd əhalisinin böyük əksəriyyətinin də qətlə yetirildiyinə dair önəmli məlumatlar yer almaqdadır [28, vv. 103-105]. Türkiyənin arxiv materiallarında ingilislərin bölgədə ermənilərin törətdikləri qətliamlara məhəl qoymadığı, hətta bu cinayətləri görməzdən gəldiklərinə dair çox sayda sənədlər mövcuddur [29, s. 150-154].

Törətdiyi cinayətlərin miqyası o qədər böyük idi ki, Andranik bu hərəkətləri ilə Naxçıvanı öz idarəsinə tabe etdiyini düşünürdü. Onun məqsədi ələ keçirdiyi hər bir türk bölgəsində etnik, milli təmizlik siyasəti yeritmək, Qarabağ, Zəngəzur və Naxçıvanı Ermənistana birləşdirmək idi. Mənbələrdən əldə edilən məlumatlara görə, 1918-1921-ci illər arasında Naxçıvanda 73.727 nəfər ermənilər tərəfindən qətlə yetirilmişdir [2, s. 29; 4, s. 147]. 1915-1921-ci illər arasında Cənubi Azərbaycanda isə ingilislərin və rusların təşviqi ilə təşkilatlanan və silahlanan erməni ordusunun qətlə yetirdiyi insanların sayı 90.000 nəfərin üzərində idi [12, s. 248].

Bu acı gerçəklər ermənilərdə türklərə qarşı nifrət psixologiyasının, türkü öldürməkdən mənəvi zövq alma düşüncəsinin bariz nümunəsi və əlaməti olmaqla yanaşı, törədilən bu cinayətlərin arxasında böyük dövlətlərin dəstəyi olduğu, eləcə də İngiltərə tərəfindən verilən qızıl və sterlinqlərin, eyni zamanda silah və sursatların təsiri də xüsusilə qeyd edilməlidir. Məhz bunun nəticəsidir ki, müsəlman türk əhalisinin çəkdiyi əziyyətlər və törədilən soyqırımı cinayətləri İngiltərənin siyasi dairələrində heç bir səs gətirməmiş, əksinə bu cinayətlərin üstü xüsusi etina ilə örtülməyə çalışılmışdır.

Dördlər qruplaşmasının Birinci Dünya müharibəsində məğlubiyyəti ilə türklərin Pantürkist ideyalarının reallaşması ehtimalı ortadan qalxınca, böyük bir çıxmazdan qurtulan İngiltərə 1918-ci ilin noyabr ayında Azərbaycana daxil oldu. Lakin ingilis qoşunları Bakıya daxil olduqdan üç ay sonra, 1919-cu ilin fevralında Lloyd Corc hökuməti ordunu Transqafqazdan mümkün qədər tez çıxarmağı qərara aldı [5, s. 248]. İngilislərin Qafqazdan çıxmaq qərarı bu günə qədər dəqiqləşdirilməmiş ciddi problemlərdən biri olaraq qalır.

Mənbələrdə Birinci Dünya müharibəsinin sonunda İngiltərənin Qafqazı, xüsusilə neft bölgəsi olan Azərbaycanı öz müstəmləkə imperiyasına qatmaq, Xəzər dənizinə sahib olmaq niyyətində olduğuna dair məlumatlar keçir. Tarix üzrə elmlər doktoru, professor Pərvin Darabadi qeyd edir ki, ingilislərin Qahirədən Kəlküttəyə qədər Böyük Britaniyanın nəzarəti altında birləşməsi yolu ilə bütöv ərazinin yaradılması ideyası mövcud idi. Bu ideya İngiltərənin Orta Şərqdəki siyasətinin yeni məzmununu – Xəzərə və Qafqazətrafı ərazilər, xüsusilə neft Bakısı üzərində

nəzarətin yaradılmasını stimullaşdırırdı. Bu geosiyasi plan eyni zamanda Hindistanın şimal sərhədlərindən Aralıq dənizinə doğru uzanmış bir neçə bufer dövlətdən ibarət zəncirin yaradılmasını da nəzərdə tuturdu. Bu zəncir Hindistana hücumlar zamanı qalxan, Böyük Britaniya, Avstraliya və Yeni Zelandiya arasında əsas əlaqələndirici vasitə rolunu oynamalı idi. Qafqaz-Xəzər regionu əsas əlaqələndirici həlqəyə çevrilirdi ki, bu həlqə İngiltərənin hərbi-siyasi planlarında həmin dövr üçün xüsusi yer tuturdu [3, s. 26].

İngiltərənin məşhur dövlət xadimlərindən Lord Kerzon qeyd edirdi ki, Böyük Britaniyanın gələcəyi Avropada deyil, bizim immiqrantlarımızın gəldiyi, sonralar isə gələcək nəsillərin artıq istilaçı kimi geri qayıtdığı qitədə həll olunacaqdır. Türkistan, Əfqanıstan, Xəzər, Persiya dünya hökmranlığı uğrunda oyun gedən şahmat lövhəsinin bir hissəsidir [3, s. 25].

İngiltərənin Azərbaycanı öz müstəmləkə imperiyasına qatmaq, Xəzər dənizinə sahib olmaq niyyətində olduğuna dair məlumatlar N.K.Buzınina və K.V.Vinoqradovun [23, s. 119], F.Volkovun [24, s. 50], Cəmil Həsənlinin [5, s. 249] və s. tanınmış tədqiqatçıların əsərlərində də mövcuddur, eyni zamanda bu tədqiqatların hər birində ingilis planlarına dair məsələlərlə bağlı haqlılıq payı da olduqca yüksəkdir. Lakin ingilislərin qısa bir müddət içərisində Qafqazı tərk etmələrinin səbəbi qeyd etdiyimiz kimi, hələ də qaranlıq olaraq qalır. Əvvəla, ingilislər niyə gəlmişdilər və heç bir kənar müdaxilə olmadan bölgəni hansı səbəbdən tərk etdilər?

İngiltərənin Hindistan işləri üzrə naziri A.Monteqyunun Qafqaza münasibətdə düşüncələrini bu cür açıqlayır: *“Hindistanın müdafiəsi məsələləri ilə bağlı mən fikirləşirəm ki, Qafqaz haqqında düşünmək bizim üçün mühüm deyildir. Mən hesab edirəm ki, bu bölgə tamamilə bizim maraqlarımızdan kənardadır”* [26, s. 74].

Bu ifadələr olduqca müəmmalı və çox qarışıqdır. Əgər Qafqaz İngiltərənin maraqları xaricində idisə, bölgəyə niyə gəlmişdilər? Qənaətimizcə, İngiltərə öz müstəmləkələrinin ərazilərini genişləndirməkdən daha çox, müharibə dövründə ələ keçirdiyi müstəmləkələri *(xüsusilə neft bölgəsi olan Yaxın Şərqi – E.Ş.)* qoruyub saxlamaq üzərində düşünürdü. Xüsusilə İngiltərə baxımından daha çox əhəmiyyət kəsb edən bölgə Yaxın Şərq idi. Enerji resurslarının əsas hissəsinin Osmanlı sərhədləri içərisində yer alması Yaxın Şərqi İngiltərə üçün tam mənası ilə vaz keçilməz bir bölgəyə çevirmişdi. Sənaye inqilabını tamamlamış olan İngiltərə üçün Yaxın Şərq neftinə sahib olmaq ölkənin rifah və zənginliyi baxımından olduqca zəruri idi. Ancaq bütün bunlar o demək deyildi ki, zəngin təbii sərvətlərə malik olan Bakı neftinin İngiltərənin iqtisadi maraqlarında yeri yox idi. İngiltərə qədər neftin əhəmiyyətini dərindən idrak edən ikinci bir dövlət göstərmək mümkün deyil. Bunun üçün ingilislər hər şeylərini ortaya qoyaraq bu yağlı maddənin mütləq hakimi olmaq istəyirdilər [18, s. 160]. Məlum olduğu kimi, XX əsrin ən güclü təbii qaynağı və dünyanı idarə edən əsas qüdrəti neft idi. Neft neçə-neçə dövlətləri

oyuncağa və alətə çevirmiş, böyük, kiçik bir çox yeni yaranan dövlətlərə azadlıq verdiyi kimi, qocaman imperiyaları da tarix səhnəsindən silmişdir. Bu maye üçün insan deyilən varlığın zərrə qədər də olsun dəyəri yoxdur. Məşhur siyasətçi Uinston Çörçilin 1936-cı ildə İcmalar Palatasında neftin əhəmiyyəti barədə dediyi sözlər olduqca düşündürücüdür: *"Bir damla neft bir damla qandan daha qiymətlidir"* [18, s. 13-14]. Bu baxımdan ingilislərin Azərbaycana gəlişinin, daha doğrusu bölgədə işğal siyasəti yeritməsinin səbəbi bilavasitə iqtisadi maraqlarla – neftlə xarakterizə oluna bilər.

Məşhur türk tədqiqatçısı Raif Karadağ *"Petrol fırtınası"* adlı əsərində "Times" qəzetinin tanınmış əməkdaşlarından Artur Murun (Arthur Moore) 1 iyul 1922-ci il tarixli məqaləsinə istinadən, ingilislərin Bakı neftinə sahib olmaq üçün Qafqaza gəldiklərini, lakin bolşevik rus hökuməti ilə müharibəyə başlamağa hazır olmadıqlarından bölgəni tərk etmək məcburiyyətində qaldıqlarını qeyd edir [18, s. 162]. Bu fikirlər doğru olsa da, ortada yenə bəzi müəyyən qaranlıq məqamlar mövcuddur. Hər şeydən əvvəl ona görə ki, dünyanın ən güclü ordusuna sahib olan İngiltərə üçün Rusiyada hakimiyyəti ələ keçirən və daxili çəkişmələrlə məşğul olan yeni rejimin rəqib olması imkansız idi. İngilislər gələcəkdə rus təhlükəsi ilə qarşılaşmaq istəməyə bilərdi. Təbii ki, bu da mövcud ehtimallar içərisində sayılmalıdır. Lakin qənaətimizcə, İngiltərənin bəhs olunan dövrdə zəngin təbii sərvətlərə sahib olan Yaxın Şərqə, xüsusilə Mosul neftinə daha çox fikir verməsi ehtimalı burada daha çox üstünlük təşkil edir. Bu ehtimalları sadalamaqla birlikdə, bu real faktı da gözdən qaçırmamaq lazımdır ki, İngiltərə Panturanizm amilini mütləq şəkildə nəzərə almaq məcburiyyətindəydi. Çünki Türkiyənin tamamilə yalnızlığa məhkum edilməsi hesaba qatılaraq, bu dövlət ilə Türk Dünyası arasındakı əlaqələrin qoparılması və Turancı ideyaların önünün kəsilməsi İngiltərə baxımından mühüm əhəmiyyət kəsb edirdi. Bu planın gerçəkləşməsi üçün ən uyğun vasitə isə ermənilər idi. Tanınmış siyasi xadim Lord Kerzonun ifadələri olduqca düşündürücüdür: ***"Türkiyə ilə Türk xalqları arasında tampon bir dövlətin yaradılması qaçılmazdır. Problemin ortadan qalxması üçün yeni "Erməni Dövləti" təzahüründə xristian bir topluluğun meydana gətirilməsi vacibdir"*** [25, s. 427].

Lakin "Erməni dövləti" təzahüründə bu topluluq hansı bölgələrdə yaradılacaqdı? Bu dövlətin Şərqi Anadoluda qurulması mümkün deyildi, İngiltərə özü buna qətiyyən razı deyildi. Halbuki İngiltərə Şərqi Anadolu və Qafqazda türk təhdidinə qarşı baryer olaraq yararlanması müqabilində ermənilərə təminat vermiş, "Müstəqil Ermənistan"ın qurulması yönündə ciddi öhdəliklər götürmüş və vədlər vermişdi. Erməni dövlətinin Türkiyə ilə Azərbaycan arasında Naxçıvanı da əhatə edən bir bölgədə qurulması və sərhədlərinin müəyyənləşdirilməsi məsələsi İngiltərənin planları çərçivəsində idi. İngilislər Türkiyəyə meylli olan Azərbaycana inanmadıqlarından məhz Ermənistana etimad edir və Türkiyənin Transqafqaza

olan qapısını əbədilik bağlamaq üçün Naxçıvanı ermənilərə verməyə çalışırdılar [bu barədə ətraflı bax: 1, s. 13-14; 10, s. 74].

Naxçıvan 1919-cu ilin yanvarında ingilislər tərəfindən işğal edildi. Naxçıvan və Şərurun Ermənistan hökumətinin tabeliyinə verilməsini bildirən ingilislər ermənilərin öz işğalçılıq siyasətini həyata keçirmələrinə şərait yaratdılar. Daşnaklar ingilis zabitlərinin bilavasitə köməyi və iştirakı ilə 1919-cu ilin iyununda Naxçıvanın bir hissəsini tutsalar da, Naxçıvan Milli Komitəsinin hərbi hissələri daşnakların nizami qoşununu əzərək onları Naxçıvan ərazisindən kənara atdılar. Yerlərdə hakimiyyət Milli Şuranın əlində idi. İyulun əvvəllərində ingilis qüvvələri Naxçıvanı tərk etdilər [1, s. 14].

Bütün bunları ümumiləşdirərək belə bir nəticəyə gəlmək mümkündür ki, İngiltərə özünün ekspansionist siyasətini həyata keçirərkən Londonda tərtib olunmuş ssenari üzrə hərəkət edən daşnaklardan istifadə etmiş [9, s. 256], hər vəchlə Ermənistanın Antantaya öz ərazisini, habelə hərbi və iqtisadi potensialını verməyə hazır olan daşnak rəhbərlərini dəstəkləmiş [3, s. 33], faktiki olaraq Ermənistanı Naxçıvan və Zəngəzurla bağlı təcavüzkar hərəkətlərə təşviq etmişdir. Nəticədə İngiltərənin siyasi planları çərçivəsində dəstəklənən ermənilər tərəfindən Şərqi Anadoluda olduğu kimi, Azərbaycanda və onun ayrılmaz parçası olan Naxçıvanda soyqırımı siyasəti gerçəkləşdirilmişdir.

Beləliklə, İngiltərə qarşılıqlı istifadə və faydalanma münasibətləri çərçivəsində vəd etdiyi "Böyük Ermənistan" dövlətini yaratmasa da, Türkiyə ilə Türk Dünyası arasında tampon dövlət olaraq müstəqil daşnak Ermənistan dövlətinin qurulmasında bilavasitə yaxından iştirak etmiş, ümumtürk birliyi arasına baryer kimi erməniləri yerləşdirərək öz milli və geosiyasi maraqlarına uyğun olaraq Panturanizmin qarşısına sədd çəkmiş, beləliklə, öz vəzifəsini tamamlamışdır. Digər bir ifadəylə, Ermənistan dövlətinin qurulması İngiltərənin, ümumilikdə Antantanın məqsədləri içərisində olub, Panturanizm təhlükəsinə qarşı baryer kimi "əsas maneə" rolunu oynamış və bu yolda milyonlarla sterlinqlər xərclənmişdir. 1918-ci ilin oktyabr ayında İngiltərənin Xarici İşlər naziri Artur Balfur tərəfindən erməni milli nümayəndəsinin rəhbəri Poqos Nubar paşaya ünvanlanan yazıda qeyd olunurdu ki, Ermənistan dövlətinin yaradılması Antantanın, xüsusilə İngiltərənin müharibə məqsədlərindən biridir [37]. Bu yazı açıq bir etirafdır.

Məsələnin mahiyyətinə endikcə aydın olur ki, Antantanın, xüsusilə də İngiltərənin iradəsi olmasaydı, erməni dövlətinin qurulmasından və mövcudiyyətindən söhbət gedə bilməzdi. Bu barədə fransız tədqiqatçısı Jorj de Malevil də "1915-ci il erməni tragediyası" adlı əsərində göstərir: ***"İngiltərənin iradəsi ilə çar imperiyasının xarabalıqları üzərində qurulub qısa bir ömür (1918-1920) sürən erməni respublikası, bütün tarixi boyu mövcudiyyəti qeydə alınan yeganə müstəqil erməni dövləti idi"*** [27, s. 15].

Göründüyü kimi, müstəqil daşnak Ermənistan dövləti məhz İngiltərənin geosiyasi maraqlarına uyğun olaraq onun iradəsi ilə yaradılmışdır. Lakin bir məsələni də qeyd etmək lazımdır ki, "Böyük Ermənistan" ideyası ilə yaşayan radikal erməni millətçilərinin düşüncəsinin əksinə olaraq, müstəqil Ermənistan dövləti Osmanlı İmperiyasının ərazilərində deyil, Cənubi Qafqazda qurulmuşdur. Bunun da müəyyən səbəbləri var idi. Əgər "Böyük Ermənistan" dövləti Şərqi Anadoluda yaradılsaydı, bu dövlət İngiltərənin deyil, Rusiyanın nəzarəti altına keçə bilərdi. Rusiyanın 1828-ci ildə "Erməni vilayəti"nin əsasını qoymaqla gələcəkdə ondan hücum mərkəzi olaraq düşünməsini, "erməni kartı"ndan yararlanaraq gələcəkdə Osmanlı dövlətini parçalamaq, Şərqi Anadoluda yaşayan erməniləri müstəqillik və "Böyük Ermənistan" vədləri ilə qızışdıraraq, onları öz himayəsi altında bir araya gətirərək Osmanlı ərazilərinə yiyələnmək arzusunda olması faktlarını xatırlatmaq kifayətdir. Bu ehtimalı nəzərə alan İngiltərə Osmanlı torpaqlarını öz nəzarətində saxlaya bilmək üçün Erməni dövlətinin qurulması məsələsini Cənubi Qafqaza ixrac etmişdir. Heç şübhəsiz ki, geosiyasi maraqların toqquşmasının nəticəsi olaraq Ermənistan dövlətinin yaradılması o tarixdən günümüzə qədər Azərbaycan üzərində ağır dərin izlər buraxmışdır.

## ƏDƏBİYYAT

**Azərbaycan dilində:**

1. **Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan.** (Tərtib edəni və ön sözün müəllifi İsmayıl Hacıyev). Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2010, 384 s.
2. **Cəfərov Fəxrəddin.** Naxçıvan polisi: fəaliyyətinin əsas istiqamətləri və mərhələləri. Bakı: Nurlan, 2011, 388 s.
3. **Darabadi Pərvin.** XX əsrin əvvəllərində Güney Qafqaz beynəlxalq geosiyasi münasibətlər sistemində / Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam ordusu. Bakı: Qafqaz Universiteti Qafqaz Araşdırmaları İnstitutu nəşriyyatı, 2008, s. 23-38.
4. **Hacıyev İsmayıl.** Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2012, 192 s.
5. **Həsənov Cəmil.** Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920-ci illər). Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993, 362 s.
6. **Qafarov Vasif.** Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı: Azərnəşr, 2011, 474 s.
7. **Qasımlı Musa.** Antanta ölkələrinin Güney Qafqaz siyasəti (1917-ci il noyabr – 1918-ci il noyabr) / Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz

İslam ordusu. Bakı: Qafqaz Universiteti Qafqaz Araşdırmaları İnstitutu nəşriyyatı, 2008, s. 191-224.

8. **Yılmaz Reha.** Birinci Dünya müharibəsinin başlanğıcında Osmanlı dövlətinin Qafqaz siyasəti / Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Bakı: Qafqaz Universiteti Qafqaz Araşdırmaları İnstitutu nəşriyyatı, 2008, s. 57-74.

9. **Yusifzadə Sevinc.** Ermənistan-Azərbaycan münaqişəsi və İngiltərənin mövqeyi (1918-1920-ci illər) // Dirçəliş – XXI əsr, 2004, №76-77, s. 252-261.

10. **Zamanov Elçin.** Cənubi Qafqazda ictimai-siyasi vəziyyət və Azərbaycanın xarici siyasəti (1918-1920-ci illər). Bakı: Elm və təhsil, 2011, 176 s.

**Türk dilində:**

11. **Armaoğlu Fahir.** 19. yüzyıl siyasi tarihi (1789-1914). Ankara: Türk Tarih Kurumu, 1997, 821 s.

12. **Attar Aygün.** Ermeni ulusalcılığının siyasal oluşumu / Ermeni Araştırmaları 2. Türkiye Kongresi Bildirileri. Ankara: Avrasya Stratejik Araştırmalar Merkezi, Ermeni Araştırmaları Enstitüsü yayınları, 2007, I cilt, s. 231-252.

13. **Avcı Halil Ersin.** İngiliz-ermeni ittifakı. İstanbul: Paraf yayınları, 2010, 448 s.

14. **Başak Tolga.** İngiltere'nin ermeni politikası (1830-1923). İstanbul: IQ Kültür Sanat yayıncılık, 2008, 672 s.

15. **Çolak Mustafa.** Alman imparatorluğu'nun Doğu siyaseti çerçevesinde Kafkasya politikası (1914-1918). Ankara: Türk Tarih Kurumu yayınları, 2006, 324 s.

16. **Halaçoğlu Yusuf.** Ermeni tehciri ve gerçekler. Ankara: Türk Tarih Kurumu yayınları, 2001, 106 s.

17. **Hopkirk Peter.** İstanbul'un doğusunda bitmeyen oyun. İstanbul: Yeni Yüzyıl – Sabah yayınları, 1995, 516 s.

18. **Karadağ Raif.** Petrol fırtınası. İstanbul: Truva yayınları, 2014, 328 s.

19. **Mazıcı Nurşen**. Belgelerle uluslararası rekabette ermeni sorunu'nun kökeni (1878-1918). İstanbul: Gümüş basımevi, 1987, 292 s.

20. **Öke Mim Kemal**. Siyonizm'den uygarlıklar çatışmasına Filistin sorunu. İzmir: Ufuk kitapları, 2002, 507 s.

21. **Uras Esat.** Tarihte ermeniler ve ermeni meselesi. İstanbul: Belge yayınları, 1987, 798 s.

22. **Yerasimos Stefanos.** Milliyetler ve sınırlar. Balkanlar, Kafkasya ve Orta Doğu. İstanbul: İletişim yayıncılık, 2000, 504 s.

**Rus dilində:**

23. **Бузынина Н.К., Виноградов К.В., Лорд Керзон** (1859-1925. Докум. очерк) // Новая и Новейшая История, 1973, №6, с. 116-127.

24. **Волков Ф.Д.** Тайны Уайтхолла и Даунинг-стрит. Москва: Мысль, 1980, 462 с.

25. **Джордж Ллойд.** Правда о мирных договорах. В 2-х томах: Перевод с английского. Т. 2 / Д.; Под ред.: Волков Ф.Д., Никонов А.Д., Москва: Иностр. Литературы, 1957, 556 с.

26. **Лавров С.В.** Борьба в политических кругах Великобритании вокруг англо-советских переговоров 1920-1921 годов // Вопросы Истории, 1977, №6, с. 59-80.

27. **Малевил Жорж де.** Армянская трагедия 1915 года. Баку: Элм, 1990, 128 с.

**Arxiv materialları və rəsmi sənədlər:**

**Azərbaycan:**

28. **Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi** (NMRDA): f. 314, siy. 5, iş 71.

**Türkiyə:**

29. **Osmanlı belgelerinde ermeni-ingiliz ilişkileri (1896-1922).** T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü. Osmanlı Arşivi Daire Başkanlığı, yayın nu: 76, Ankara, 2006, 4 ciltte, cilt:4, belge №76, 460 s.

**İngiltərə:**

30. **Oriental and India Office Collections** (British Library): India Office Records IOR/L/P&S/11/166, Decypher. Mr. Wardrop (Tiflis), No: 209, 17th December 1919.

31. **The National Archives of United Kingdom:** Public Record Office Foreign Office Documents (PRO. FO): 371/3016/237541, J.A.Malcolm to Ronald Graham (Foreign Office), December 14th, 1917.

32. **PRO. FO.** 371/3018/245628, Foreign Office to Sir G.Buchanan, December 30th, 1917.

33. **PRO. FO.** 371/3062/231202, Aneurin Williams to Lord Robert Cecil (Foreign Office), December 4th, 1917.

34. **PRO. FO.** 371/3284/75611, “Memorandum Regarding the Support Afforded to the Armenians”, Department of Military Intelligence to Foreign Office, April 29th, 1918.

35. **PRO. FO.** 371/3300/19679, Sir C.Marling (Tehran) to Foreign Office, no: 76, January 30th, 1918.

36. **PRO. FO.** 371/3301/131359, C-in-C. India to War Office, no: 56896, July 20th, 1918.

37. **PRO. FO.** 371/3404/162745, Arthur James Balfour to Boghos Nubar Pasha, (12, Avenue du Trocadero, Paris), October 12nd, 1918.

38. **PRO. FO.** 371/3448/178219, A.J.Toynbee to Mr. Kidston, October 26th, 1918.

39. **PRO CAB** (Cabinet Papers). 23/4, War Cabinet, 294, Minutes of a Meeting of the War Cabinet held at 10, Downing Street on Friday, December 7th, 1917, at 5:30 PM.

40. **PRO. CAB**. 25/120, S.W.C. 1, Secret, “Note on the Military Situation in Armenia” by Supreme War Council, British Section, Versailles, December 3th, 1917.

**UOT 94(479.24)+327**

# НАГОРНО-КАРАБАХСКАЯ ПРОБЛЕМА ВО ВНЕШНЕЙ ПОЛИТИКЕ США

***Г.С. Алиева-Мамедова***
*Бакинский Государственный Университет*
*gunel-aliyeva-mamedova@hotmail.com*

***Ключевые слова:*** *Азербайджан, независимость, США, Нагорный Карабах*

После распада Советского Союза США остались как единственная сверхдержава. В эпоху глобализации определилась роль Америки в мире. Сегодня американское мировое первенство уникально по своим масштабам и характеру. Америка в настоящее время выступает в роли арбитра для Евразии, причём нет ни одной крупной евразийской проблемы, решаемой без участия Америки или вразрез с интересами Америки.

## DAĞLIQ QARABAĞ PROBLEMİ ABŞ-ın XARİCİ SİYASƏTİNDƏ

***G.S.Əliyeva-Məmmədova***

***Açar sözlər:*** *Azərbaycan, müstəgillik, ABŞ, Dağlıq Qarabağ*

Bu gün ABŞ siyasəti Avrasiya məkanında artan təsir göstərir. Bu kontekstdə Amerika Birləşmiş Ştatları, ATƏT-in Minsk qrupunun həmsədri ölkələrindən biri kimi və ilk öncə dünyanın supergücü kimi yeni dünya düzəni şəraitində ciddi yanaşsa yalnız Azərbaycanın deyil bəlkədə bütün Cənubi Qafqazın xarici siyasətinin xarakteri asılı olacaq.

## UPPER-KARABAKH PROBLEM IN FOREIGN POLICY OF THE USA

***G.S.Aliyeva-Mammadova***

***Keywords:*** *Azerbaijan, independence, USA, Upper Karabakh*

The US policy has an ever-increasing influence on the Eurasian space. In this regard, it seems that how seriously the United States of America will react to the resolution of Upper-Karabakh problem, (as a country co-chairing

of the OSCE Minsk Group) and at the first of all as a superpower of the world, the nature of the foreign policy course of Azerbaijan, and maybe the entire South Caucasus will largely depend on it in the conditions of a new world order

***Введение:***

Распад СССР, который привёл к окончанию «холодной войны» и образованию ряда новых независимых государств, способствовал изменению в целом политической карты мира.

Окончание «холодной войны» не привело к новому мировому порядку, а, наоборот, скорее, спровоцировало беспорядок [5, 236].

После распада Советского Союза США остались как единственная сверхдержава. В эпоху глобализации определилась роль Америки в мире [7, 166].

Азербайджан, восстановив свою государственную независимость, начал проводить активную внешнюю политику. В числе первых признавших независимость Азербайджанской Республики оказались Соединённые Штаты Америки - 19 февраля 1992 года.

Именно, в 90-ые г.г. XX века начинается активное сотрудничество Азербайджана и США. При этом следует отметить, что американские частные нефтяные компании были наиболее заинтересованы в работе с Азербайджаном. Работа американских нефтяных инвесторов была нелёгкой, учитывая острое соперничество с British Petrolium за доступ к нефтяным месторождениям Азербайджана, и недостаток доверия, усилившегося в связи с 907-й поправкой. Дело в том, что в 1992 году были введены санкции против Азербайджана из-за конфликта с Арменией в связи с войной в Нагорном Карабахе. Это нашло своё отражение в законе (пункт 907 Акта о поддержке Свободы - «Freedom Support Act»). Акт запрещал гуманитарную помощь США Азербайджану. В этом вопросе произошло редкое совпадение позиций США и Ирана. Однако, под давлением «нефтяного фактора» с 1995 года Конгресс начал смягчать антиазербайджанские санкции, а клинтоновская администрация интесифицировала контакты с Баку.

Однако с приходом к власти Гейдара Алиева ситуация после длительных переговоров изменилась.

20 сентября 1994 года Гейдар Алиев и консорциум главных нефтяных компаний собрался в Баку на церемонию подписания контракта по эксплуатации нефтяного месторождения Азери-Чыраг – Гюнешли, названного местными аналитиками - «Контракт века». Это положило начало официальному американскому присутствию в регионе. Был заключён 21 нефтяной контракт с 33 компаниями пятнадцати государств. В эту отрасль были вложены инвестиции на 60 млрд. долларов США.

“Контракт века” стал политическим и экономическим прорывом Азербайджана в XXI век. В 1995 и 1996 г.г. были подписаны новые контракты по разработке нефтяных и газовых месторождений «Карабах» и «Шахдениз» в азербайджанском секторе Каспийского моря. Всё это создало реальные возможности для привлечения крупномасштабных зарубежных инвестиций в нефтяную индустрию Азербайджана. Оно создало основу и для деятельности транснациональных нефтяных компаний, занятых в нефтяной сфере.

Первичные нефтяные запасы на участках «Азери», «Чыраг», «Гюнешли», охватываемых «Контрактом века», оценивались в 511 млн. тонн., в результате бурения было установлено, что они составляют 640 млн. тонн., а запасы попутного газа – 100 млрд. кубометров. Предполагаемые инвестиции предусматривались в размере 10 млрд. долл.

Для реализации «Контракта века» была создана азербайджанская международная операционная компания.

Такое активное сотрудничество между правительством Азербайджана и деловыми кругами США усилило интерес Вашингтона к Азербайджану. Американская внешняя политика в отношении региона в большей степени была основана на энергетической заинтересованности. Кроме того, столь крупная и влиятельная компания, как АТОСО, имела свои голоса в Конгрессе и управляла финансовыми рычагами [3, 87, 88].

Несмотря на серьезное давление, именно в результате усилий Азербайджана западные энергетические компании были привлечены к добыче углеводородных ресурсов Каспийского региона. Тем самым Азербайджан открыл Каспийский регион для США и Запада. Несмотря на мощное давление и угрозы, Азербайджану совместно с западными партнерами удалось диверсифицировать маршруты транспортировки своих энергетических ресурсов, реализовать проекты основных экспортных трубопроводов Баку-Тбилиси-Джейхан и Баку-Тбилиси-Эрзурум. Эти проекты создали надежную основу для обеспечения энергетической безопасности Европы. Впоследствии именно благодаря лидерству и по инициативе Азербайджана началась реализация проекта Южного газового коридора, Транс-Адриатического и Транс-Анатолийского газовых проектов. В результате этого энергетическая безопасность Европы, несомненно, еще более усилится [10].

Однако, помимо энергетической заинтересованности Азербайджанское правительство, также интересовал вопрос урегулирования Нагорно-Карабахской проблемы и роль США в данном вопросе, так как после образования Минской группы ОБСЕ по урегулированию Нагорно-Карабахской проблемы, одной из трёх стран - сопредседателей этой группы стали США. Конечно, подписание столь важного документа как

«Контракт века», которую, порой специалисты правдиво называют «Легендой трёх морей», имеет важное историческое значение для Азербайджана, её внешней и внутренней политики, для стабильности всего региона в целом, также для усиления энергетической политики за пределами региона на современном этапе. «Контракт века» приковывал внимание мировой общественности и политической элиты к Азербайджану, следовательно, и её болезненной проблеме, конфликту вокруг исторических азербайджанских территорий-Нагорного Карабаха.

Сегодня американское мировое первенство уникально по своим масштабам и характеру. Америка в настоящее время выступает в роли арбитра для Евразии, причём нет ни одной крупной евразийской проблемы, решаемой без участия Америки или вразрез с интересами Америки [4, 230].

Азербайджан, долгие годы страдающий от Нагорно-Карабахского конфликта, стал мишенью для политики двойных стандартов ответственных за урегулирование этого конфликта стран (США, Франция, Россия). Слишком лояльная политика в отношении к Армении, материальная, а иногда и политическая поддержка действующего на оккупированных территориях сепаратистского режима (прием руководителей этого режима в Вашингтоне, создание в Конгрессе группы дружбы с Нагорным Карабахом и т.д.) являются, самыми что ни на есть, двойными стандартами и ставят интересы Азербайджана под удар. Несмотря на всё это, официальный Баку всегда относился к этой политике сдержанно. При этом следует указать, что игра США с падением цен на нефть, рассчитанная на развал Ирана и России, вредит и Азербайджану.

В настоящее время в мире идет перераспределение баланса сил, и сторонники этого процесса хотят видеть рядом с собой как можно больше стран. Однако, в отличие от периода «холодной войны», нынешний мир поделить на два полюса сложно. Тесно интегрированная экономическая система и масштаб глобализации (совокупность разноплановых событий – авт.) не позволяют делить государства на «своих и чужих», наносит вред также Саудовской Аравии и странам Персидского залива, которые являются основными союзниками США на Ближнем Востоке) [11].

В настоящее время актуальными стали отношения Азербайджана с США. К сожалению, ряд чиновников и экспертов Америки не совсем осознают значение отношений между двумя странами, выдвигая необоснованные мысли. Поступают надуманные обвинения даже от должностных лиц Госдепартамента. Они в основном говорят об ограничении в Азербайджане прав человека, свободы слова, необеспечении демократических правил.

Эту ситуацию можно оценивать в двояком аспекте. Во-первых, проблема питается из неопределенности внешней политики Вашингтона в целом. Во-вторых, есть на Западе определенные силы, которые по тем или иным причинам (например, из-за близости к армянскому лобби или энергетических интересов той ил иной силы) пытаются создать негативный образ Азербайджана на мировой арене» [18].

Администрация президента Буша-старшего рассматривала Армению как потенциального союзника в Закавказье. Уже в 1990 году сенаторы Клейборн Пэлл и Джон Керри направили официальное обращение к советскому лидеру Михаилу Горбачеву с призывом передать Карабах в состав Армянской ССР. Сенатор Пэлл во время встречи с главой советского МИДа Эдуардом Шеварднадзе высказал мнение, что советское руководство не должно позволить Азербайджану проводить дальнейший контроль над НКАО. Таким образом, интересы Армении и армянской диаспоры в тот период совпали с интересами американских властей, что привело к принятию Конгрессом ряда проармянских инициатив. Так, Армения была включена в гуманитарные правительственные программы по линии «Закона в поддержку свободы». Также Ереван с 90-х г.г. XX века получает ежегодную безвозмездную финансовую помощь в рамках американских внешних ассигнований [6].

На внешнеполитическом фронте Азербайджан получил тяжелый удар от Конгресса США в виде так называемой “907-й поправки”.

Принятие 907-й поправки, безусловно, стало крупнейшей победой армянской диаспоры США и ее лоббистских организаций и групп. Эта диаспора имеет сильное влияние в США. Впервые проармянская лоббистская организация была создана в начале нашего века. Уже тогда Американский комитет за независимость Армении активно участвовал в налаживании американо-армянских контактов и внес немалую лепту в то, что США признали де-факто независимость Армении в 1920 году, одновременно отказавшись признать Азербайджан.

По состоянию на март 1997 года американская помощь Армении составляла 619 миллионов долларов, Грузии – 443 миллиона и Азербайджану – 92 миллиона.

В 1997 – 1998 гг. в США неуклонно повышался интерес к Азербайджану. Это было связано с еще большим вовлечением американских компаний в деятельность по разработке углеводородных месторождений.

С 27 июля по 6 августа 1997 года состоялся первый официальный визит в США президента Азербайджана Г.Алиева. Визит стал важным

этапом двусторонних отношений. 1 августа 1997 года президенты США и Азербайджана подписали в Белом Доме весьма важный документ – Совместное заявление об американо-азербайджанских отношениях, особое место в котором было отведено проблеме 907-ой поправки: ”Они (президенты) пришли к согласию о том, что раздел 907 “Акта о поддержке свободы” ограничивает возможности сотрудничества между США и Азербайджаном. Президент Б.Клинтон еще раз подтвердил решительную поддержку со стороны администрации отмены раздела 907” [13].

Как раз об этом хорошо написал русский автор Чернявский С.: «Карабахский конфликт, принимая во внимание традиционную проармянскую позицию западных государств, со стороны передовых западных стран лишил азербайджанцев какой-либо поддержки» [9, 407].

Западные страны, заинтересованные в скорейшем урегулировании этого застарелого кризиса в своей практической политике ориентируются сегодня на использование политических и экономических рычагов воздействия на Армению. Например, США в годы правления Б.Клинтона активизировали свои усилия по разблокированию жёсткой и замкнутой позиции Армении по Нагорному Карабаху, предлагая Еревану перспективу включения его в единую систему региональных транспортных коммуникаций и налаживания экономического сотрудничества с Азербайджаном и Турцией, открытия железнодорожного сообщения между двумя странами. Для этого Армения должна отказаться от требования независимого статуса Нагорного Карабаха как ведущее в тупик [6, 10].

В годы правления Дж.Буша младшего также ситуация была приемлемой для Азербайджана. Доктрина США предполагала интенсивные контакты с государственными и общественными структурами Азербайджана.

В 2002 финансовом году США расширили программы оказания помощи в области безопасности в целях совершенствования систем экспертного контроля и защиты границ Азербайджана, поддержки военной реформы, включая обучение в американских учебных заведениях, и содействия участия Азербайджана в программе «Партнерство во имя мира».

Директор Центра политических инноваций и технологий, политолог Мубариз Ахмедоглу, подчеркнул, что в позиции США по Нагорно-Карабахскому урегулированию есть изменения. «Эти изменения в пользу Азербайджана, международного права и объективности, и во вред захватнической политике Армении. Джеймс Уорлик дал объективную оценку обновленным Мадридским принципам. Он назвал земли вокруг Нагорного Карабаха оккупированными территориями.

Уорлик отметил, что статус Нагорного Карабаха будет определять его население. Под населением Нагорного Карабаха подразумеваются азербайджанцы и армяне Нагорного Карабаха. Уорлик привел в пример совместное проживание армян и азербайджанцев в советское время, и отметил, что и впредь эти два народа будут жить вместе».

На современном этапе закулисная борьба между США и РФ за влияние на Южном Кавказе не только не утеряла свой канал, а напротив, приобрела новые стимулы, связанные с изменениями в мировой политической сфере [1, 55].

Сегодня территория Южного Кавказа вполне может быть использована, в случае если США или Израиль решатся на операцию против Исламской Республики. Соединенные Штаты уже довольно долгое время пытаются продавить перед Ереваном, Баку и Тбилиси свой проект по окружению и нейтрализации возрастающих амбиций Исламской Республики Иран. Позиция основного стратегического союзника Армении – России относительно Ирана и в первую очередь Сирии коренным образом отличается от позиции США, Израиля и всего западного сообщества. Если Вашингтон и Тель-Авив вынашивают ястребиные планы в отношении Тегерана и Дамаска, то Москва прилагает все усилия для разрешения сирийского вопроса и ядерной проблемы Ирана исключительно мирным путем. Поэтому Азербайджану рано или поздно придется делать выбор между геополитическими интересами Москвы и Вашингтона, тогда Карабахская карта сыграет роль джокера в руках той страны, которая будет держать ее в своей колоде [16].

В последние годы США сильно изменили внешнюю политику, объявили «перезагрузку» в отношениях с Россией, но при этом правительство попыталось сильнее «затянуть петлю» вокруг Ирана. Вашингтон хотел более проамериканской позиции Азербайджана в иранском вопросе, добивался скорейшего начала транзита азербайджанского газа в Европу в рамках проекта НАБУККО, отдаления Баку от России и т.д. Азербайджан в обмен на это требовал поддержку в урегулировании карабахского конфликта, но Вашингтон подобную поддержку не оказывал. При этом с американской подачи начался процесс армяно-турецкого сближения, который полностью противоречил интересам Азербайджана.

Официальному Баку ценой определенного давления на Турцию удалось обеспечить оглядку Анкары на интересы Азербайджана. Это, наряду с другими факторами, завело процесс армяно-турецкого сближения в тупик и добавило негатива в отношения между США и Азербайджаном [17].

О позиции же США к Азербайджану и к Нагорно-Карабахской проблеме в годы правления Б.Обамы Ахундова Э. в своей книге «Ильхам Алиев. Портрет президента на фоне перемен» написала следующее: «Сегодня администрация Ильхама Алиева имеет веские основания для недовольства политикой Белого дома в регионе. Все эти годы Баку оставался верен духу стратегического партнёрства и неукоснительно выполнял свои обязательства перед США – от сотрудничества в нефтегазовой сфере до союзничества в Ираке и Афганистане. И все это несмотря на явное раздражение соседнего Ирана, мнение которого Баку не может игнорировать хотя по той причине, что на севере ИРИ проживают не менее 30 миллионов этнических азербайджанцев. В ответ администрация Ильхама Алиева вправе ожидать поддержки Вашингтона по ключевым проблемам, прежде всего в урегулировании Нагорно-Карабахского конфликта. Между тем в последние годы Белый дом занял в отношении Азербайджана позицию стороннего и не всегда доброжелательного наблюдателя» [3, 180, 181].

В целом, сегодня Америка – ведущая мировая держава, которая исходя из собственных интересов, сотрудничает с жестокими авторитарными режимами, при этом пытается найти возможность экспорта демократии в эти страны [7, 187].

Азербайджан же в свою очередь, важный союзник США в борьбе с терроризмом. Дело в том, что после трагических событий 11 сентября 2001 года АР во главе с общенациональным лидером Гейдаром Алиевым одна из первых республик предложила свою помощь США.

Предложенный Азербайджаном для Нагорного Карабаха статус самой высокой автономии является оптимальным путём решения конфликта и рано или поздно Армения – сторонница сепаратистского режима, будет вынуждена примириться с этой реальностью. Президент Ильхам Алиев считает предложение об уже имевшем место в мире самом высоком статусе, который предлагается для Нагорного Карабаха, абсолютно адекватным для международных правовых норм [8, 85].

Проделанный анализ свидетельствует о том, что политика США оказывает всевозрастающее влияние на евразийское пространство. В этой связи представляется, что насколько серьёзно Соединённые Штаты Америки отнесутся к урегулированию Нагорно-Карабахской проблемы, как страна-сопредседатель Минской группы ОБСЕ, а в первую очередь, как супердержава мира, во многом будет зависеть характер внешнеполитического курса Азербайджана, а может и всего Южного Кавказа в целом, в условиях нового миропорядка.

## ЛИТЕРАТУРА


1. Абасов А. Нагорно-Карабахский гамбит: поиски эндшпиля // «Qarabağ dünən, bu gün və sabah» // VIII Ümumrespublika elmi-əməli konfransı. Bakı, 2009, 292s.
2. Алиева-Мамедова Г. Турецко-американские отношения в условиях нового миропорядка (1991-2007 г.г.). Баку,«N print studiya», с. 87, 88
3. Ахундова Э. «Ильхам Алиев. Портрет президента на фоне перемен». Москва, «Росспэн», 2016, 334с.
4. Бжезинский З. Великая шахматная доска. Москва, «Международные отношения», 2003, 254 с.
5. Ваисс М. Международные отношения после 1945 года. Москва, «Гордец», 336 с.
6. Гушер А. стратегические приоритеты: расчёты и реальность. Азия и Африка сегодня, №10 (519), 2000. Москва, «Наука», 80 с.
7. Рустамов Ю. Роль США в системе международных отношений (заочный диалог З.Бжезинским). Баку, «Елм», 2005,201 с.)
8. Сеидов К. Армянский вандализм. Новосибирск, 2010, «Международный Азербайджанский форум», 288с.
9. Məmmədli A. Gəlmələr. Ermənilərin gerçək tarixi. Bakı, «Bestpack», 2015, 440s.
10. http://www.1news.az/authors/oped/20150716072723294.html - Азербайджан говорит «да» жесту примирения США, однако…
11. http://www.vesti.az/news/233195 - Вюгар Масимоглу, Аналитический Центр АПА Отношения США - Азербайджан: кто провоцирует проблемы?
12. ttps://aftershock.news/?q=node/392406 - Карабахские виражи во внешней политике США
13. http://www.ca-c.org/journal/cac-04-1999/st_21_rzayev.shtml - Рзаев Ф. «907-я поправка: история и перспективы»
14. http://articlekz.com/article/10853
15. http://eurasnews.ru/azerbaydzhan
16. http://noev-kovcheg.ru/mag/2012-13/3337.html - США отказались продавать Баку вооружения, но военный бюджет Азербайджана увеличиваетс
17. http://knowledge.allbest.ru/international - Азербайджана и США
18. http://newtimes.az/ru/relations/3296Отношения США - Азербайджан: кто провоцирует проблемы?

**UOT 32+930.22**

# ГРУППЫ ИНТЕРЕСОВ КАК ПОЛИТИЧЕСКИЙ ИСТИТУТ

***Р.А. Рустамли***
*Бакинский Государственний Университет*

***Ключевые слова:*** *Группы интересов, лоббизм, общественные объединения, политические группы интересов*

Статья посвящена анализу групп интересов -как политический институт. Выделены две разновидности групп интересов: неполитические и политические группы интересов, раскрыты основные аспекты исследования в политологии неполитических групп интересов и сконцентрировано основное внимание на анализе политических групп интересов как политического института.

## MARAQ QRUPLARI SİYASİ İNSTİTUT KİMİ

***R.A.Rüstəmli***

***Açar sözlər:*** *Maraq qrupları, lobbizm, ictimai birliklər, siyasi maraq qrupları*

Məqalədə siyasi təsisat kimi maraq qrupları siyasi institut kimi təhlil edilir. Maraq qrupları qeyri-siyasi və siyasi olmaqla iki yerə bölünür. Onların özünəməxsus xüsusiyyətləri araşdırılaraq tədqiqata cəlb edilir. Siyasi elmdə qeyri-siyasi maraq qruplarının tədqiq edilməsinin əsas aspektləri göstərilmiş və siyasi maraq qruplarının siyasi təsisat kimi təhlil edilməsinin vacibliyi vurğulanmışdır.

## INTEREST GROUPS AS A POLITICAL INSTITUTION

***R.A. Rustamli***

***Keywords:*** *Interest groups, lobbying, public associations, political interest groups*

This article is devoted to the analysis of the interest groups as a political institution. Two types of groups of interest are distinguished: non-political, main aspects of non-political interest groups research in political sciences are revealed, the main attention is focused on the analysis of the political groups of interest as political institutions.

В современных политических процессах всё более возрастающую роль играют группы интересов (или иначе «заинтересованные группы», «общественные группы»). *Группы интересов* – это организованные общественные объединения (ассоциации, союзы, фонды и т. п.), возникающие с целью более эффективного удовлетворения многообразных запросов и потребностей людей. Они выступают необходимыми инструментами аккумуляции социальной и гражданской активности. Группы интересов исследуются не только социологией, но и политической наукой. Они привлекают внимание политической науки в *трех аспектах:* Во-первых, массовые общественные объединения активно *вовлекаются* политическими партиями и лидерами в ходе избирательных и других политических кампаний с целью привлечения сторонников и голосов. Во-вторых, группы интересов нередко сами вынуждены, особенно в периоды кризисов в обществе, *вторгаться* в политику, чтобы защитить условия реализации своих любительских или профессиональных интересов. И, в-третьих, массовость и активность групп интересов является важным индикатором уровня развития гражданского общества. Причины возрастающей значимости заинтересованных групп – в небывалом усложнении общественных отношений, росте многообразия потребностей и интересов людей, неспособности государства удовлетворять растущие запросы общественности, бурном развитии средств коммуникации. Так, в последнее десятилетие Интернет стал неотъемлемой частью политического процесса. Интернет трансформирует гражданское общество, формируется его новая модель, которая рождена сетевой активностью пользователей [1]. Основными функциями групп интересов являются артикуляция и агрегирование интересов, информативная функция, формирование политической элиты. Под артикуляцией интересов понимается преобразование социальных чувств, эмоций, ожиданий в рационально сформулированные политические требования. Агрегирование интересов означает согласование различных потребностей и требований, их иерархизацию и выработку общегрупповых целей. Информативная функция выражается в доведении до органов власти информации о проблемах, целях и интересах соответствующих групп. Поскольку группы интересов продвигают своих

представителей в органы власти, то следующая их функция - формирование политических элит [2].

Существуют различные типологизации групп интересов. Американские политологи Г.Алмонд и Г.Пауэлл выделяют аномически и институциональные группы интересов. Группы, относящиеся первому типу, возникают, как правило, спонтанно, плохо организованы и недолговременны. Их деятельность может принимать насильственные формы (митинги, демонстрации, массовые акты протеста и неповиновения). Степень влиятельности заинтересованных групп подобного рода на органы власти невысока. Институциональные группы, наоборот, хорошо организованы, долговременны, преследуют рационально сформулированные интерес действуют на основе определенных правил. Эффективность деятельности таких групп может быть достаточно высокой. На основе характера внутригрупповых связей группы интересов подразделяют на ассоциативные и неассоциативные. Первые характеризуются как добровольные объединения, преследуют политические интересы (предпринимательские организации, профсоюзы, творческие союзы и т.п.). Неассоциативные группы интересов наоборот, носят недобровольный характер (трудовые коллективы, этнические общности, кланы), а их деятельность менее постоянна, нежели деятельность ассоциативных.

Французский политолог Ж.Блондель разделяет группы интереса на четыре типа: 1) группы по обычаю возникают на основе общинных, кастовых, клановых общностей. Во многих развивающихся странах состав этих групп определяется некоторыми наследственными факторами (полом, расовой принадлежностью, наследуемым социальным положением); 2) институциональные группы основываются на формальных организациях внутри государственного аппарата. К ним можно отнести лоббистские группировки в парламенте и правительстве; 3) группы защиты стремятся отстаивать интересы своих сторонников. Эти объединения представляют прежде всего экономические и социальные интересы (ассоциации производителей, банковские союзы, финансово-промышленные группы, общества защиты прав потребителей, профсоюзы); 4) группы поддержки ориентированы на строго ограниченные цели (экологические и антивоенные движения, ассоциации “за” или “против” чего-нибудь). Существует несколько концепций происхождения групп интересов. С точки зрения теории социального порядка и конфликта, генезис групп интересов объясняется как результат солидарности людей со схожими интересами и убеждениями. Взаимодействуя друг с другом, указанные группы вынуждены периодически обращаться к институтам власти для решения возникающих конфликтов. Согласно

теории непредвиденных последствий групповых интересов, основу заинтересованных групп составляют индивиды, жавшие, что достижение экономических, социальных и политических благ невозможно без организации коллективных усилий и действий при этом доходы от объединения и групповой деятельности значительно превышают расходы на создание организации. Политическая же активность - непредвиденное последствие деятельности групп интересов, которая направлена на удовлетворение материальных потребностей. Теория обмена связывает возникновения групп интересов с деятельностью отдельных организаторов, стремятся взамен своих затрат и активности получить должность в административном аппарате создаваемой организации. Сторонники теории ангажированности трактуют группы интересов как результат деятельности эгоистических индивидов, связывающих достижение своих целей с достижением политических группы. Одна из ключевых особенностей развития современных обществ выражается в потребности последних в активном взаимодействии с государством с целью продвижения частных общественных интересов. Указанная потребность предопределила формирование института проводника-посредника, в роли которого выступают группы интересов. Группы интересов, выполняющие функции артикуляции множества социальных интересов, формирования единого социального интереса, продвижения требований к властным структурам и реализации интересов общества, представляют собой влиятельных акторов в современных политических системах, что в значительной степени обусловливает актуальность их изучения.

По мнению Ф.Шмиттера, объединение в группы – кооперативная деятельность – изначально присуща людям, мотивы объединения и степень их осознания варьируется от получения простого удовольствия до удовлетворения особых интересов [7].

Группы принято подразделять на первичные и вторичные. Понятие первичной группы впервые было введено исследователем Ч. Кули в указанной выше работе применительно к членам семьи, между которыми складывались устойчивые эмоциональные отношения. Впоследствии в социологии этим термином стали обозначать любые группы, в которых сформировались тесные личные отношения, определяющие сущность данной группы – например, группы друзей, влюбленные и т.д. Первичные группы характеризуются интимным непосредственным контактом. Это означает, что люди испытывают постоянное беспокойство друг за друга, приоритет в общении отдается личностному фактору, а не специализированным ролевым функциям. По мере роста численности группы такое непосредственное взаимодействие становится все менее

возможным. Индивидуальные отношения начинают носить все более специализированный характер и могут утратить ярко выраженное эмоциональное содержание, присущее первичным отношениям. Существенным признаком вторичных групп является деперсонализация отношений. Вторичные группы образуются из людей, не связанных эмоциональными отношениями. Как правило, их взаимодействие вызвано стремлением к достижению общей цели. Преобладают формализованные правила и нормы поведения, а природа групп начинает все меньше и меньше зависеть от лиц, их составляющих. Отношения начинают принимать ролевую окраску, заданную организационной структурой. В этих группах основное внимание уделяется, в первую очередь, умению выполнять определенные функции, а не личным качествам.

Американский ученый А.Бентли в работе "Процесс управления" ввел в научный оборот новое понятие – "группы интересов", к которым он относил разнообразные организованные группы людей, имеющих определенные цели и выдвигающих конкретные требования перед политической властью. Индивидуальное поведение участников политического процесса рассматривалось им через взаимодействие групп, в которые индивиды оказались вовлеченными по тем или иным мотивам. А.Бентли предлагал рассматривать общество как "совокупность различных групп интересов, причем, количество групп ограничивается лишь одним показателем – интересы ради которых они созданы и действуют" [3].

Выводы А.Бентли подтверждались и данными эмпирических исследований, документально установивших большую роль групп как центров и генераторов социальной и политической активности, которые наряду с институциональными структурами формируют политический процесс и гражданское поведение, действуя как в согласии, так и вопреки институциональным предписаниям [3].

В частности, Г.Алмонд, классифицируя группы интересов, оказывающих заметное влияние на политический процесс, различал четыре вида групп. Наряду с ассоциированными группами интересов он выделяет также такие разновидности, как институциональные группы интересов, неассоциированные группы интересов и протестные, или аномичные группы интересов [15].

К институциональным группам он относит группы интересов, формирующиеся на базе таких общественных институтов, как церковь, армия, государственная бюрократия, депутатский корпус. Поведение членов этих структур отличается, как правило, высоким уровнем групповой (корпоративной) солидарности и иерархией. Высокий уровень организации и близость к структурам управления позволяет этим группам

успешно заниматься политическим лоббированием. И хотя в соответствии со своим формальным положением в структуре власти они призваны обеспечивать реализацию общественных интересов, на практике зачастую происходит подмена и замещение общественных интересов интересами частными и узкогрупповыми.

Наиболее заметна деятельность институциональных групп интересов в обществах с неразвитой гражданской структурой, где ассоциированные группы интересов еще не успели сложиться и не могут мобилизовать серьезных ресурсов для обеспечения поддержки. В этих условиях функцию артикуляции общественных интересов в обществе берут на себя институциональные группы интересов – армия, партийные фракции, правительственная бюрократия или промышленные корпорации.

Неассоциированные группы интересов, наоборот, редко бывают хорошо организованы, а их политическая активность проявляется чаще всего эпизодически, однако, в отличие от ассоциированных групп интересов, они, будучи основаны на личных связях, имеют ряд преимуществ, которые позволяют им более эффективно влиять на политический процесс.

Иногда неассоциированные группы интересов могут проявить себя на политической арене как ассоциированные или как протестные, особенно когда речь идет о выступлении национальных меньшинств.

Протестные группы интересов являются более или менее спонтанными группами, формирующимися неожиданно, когда многие индивиды сходным образом реагируют на фрустрацию, обман или оказываются под воздействием других сильных эмоций. Они возникают внезапно, без предварительной организации или плана.

Индивиды, подвергавшиеся длительному фрустрационному воздействию, могут дать выход своему гневу в уличных беспорядках и других противоправных действиях, сопровождающихся насилием. Там, где отсутствуют организованные группы или там, где они не смогли добиться адекватного представительства в политической системе, тлеющее недовольство может вспыхнуть пожаром – либо под воздействием случайных обстоятельств, либо с появлением лидера.

Агрессивное и спонтанное аномическое поведение наблюдается во многих политических системах: в США, Франции, Индии, странах Арабского Востока.

Рассматривая неассоциированные группы интересов, Г.Алмонд обращает особое внимание на группы коммуналистского типа – сельские сообщества, мелкий бизнес, этнические группы, клиентелы – как разновидность неассоциированных групп интересов. К преимуществам этих групп следует отнести более высокую, в сравнении с

ассоциированными группами, степень сплоченности, поскольку в основе коммуналистских, особенно традиционных групп, лежат неформальные, личные связи между участниками.[14].

Еще больший акцент на значимость коммуналистских групп интересов сделан в классификации Ж.Блонделя. По его мнению, все многообразие групп, участвующих в политическом процессе условно можно разделить на два идеально сконструированных типа – коммуналистские и ассоциированные группы. К первому типу он относит группы, воплощающие структурные отношения, сложившиеся в обществе, а ко второму – функциональные отношения.

Если люди осознают себя в качестве членов коммунальных групп, то можно сказать, что они и принадлежат к ним. Членство в этих группах имеет неформальный характер. Субъективное ощущение принадлежности является единственным индикатором существования этих групп, тогда как членов ассоциированных групп объединяет с ассоциацией наличие общей цели, как правило, официально заявленной, и наличие формальной структуры.

При этом Блондель подчеркивает, что различие между двумя типами групп имеет не характер дихотомии, а соответствует двум полюсам. На одном полюсе находятся такие общности как семья, племя, этнические или религиозные или профессиональные группы, которые объединяют людей на основании общего признака, например, факта рождения. На другом – группы, имеющие целевой характер, безотносительно к его содержанию: идеологическому, деловому или развлекательному. Те, кто примыкает к организациям подобного рода, делает это не всегда из-за целей, на достижение которых данные организации ориентированы, но чаще всего все же из-за них.

Между этими двумя полюсами находится большое количество групп, которые ориентируются на достижение определенных целей, но участников которых объединяют также и узы аффективного характера.

Коммунальные группы прямо или через зависимые ассоциации, которые они помогли создать, играют большую роль в современном обществе. Ж.Блондель выделяет четыре основных типа коммуналистских групп, которые оказывали и продолжают оказывать существенное влияние на общие характеристики политической системы: племенные или клиентелистские, этнические, религиозные и классовые. В отличие от Г.Алмонда, Ж.Блондель склонен рассматривать в качестве разновидности коммуналистских групп, наряду с этническими, профессиональными и консьюмеристскими, также и институциональные группы интересов, которые при необходимости могут трансформироваться в асс-

оциированные группы или создают зависимые структуры, построенные по принципу ассоциации.

Таким образом, синтез институционального и корпоративного подходов к исследованию политических процессов и структур, позволяет не только более полно представить весь спектр групп интересов, действующих на политической сцене – ассоциированных, коммуналистских, институциональных, протестных, и т.д. – но и более адекватно описать многообразие конкретно-исторических форм демократических политических систем.

## ЛИТЕРАТУРА


1. **Бакун Л.А**. Группы в политике. К истории развития американских теорий // Полис. 1999, №1
2. **Буренко В.И., Бронников И.А**. Электронное гражданское общество (ЭГО): иллюзии или реальность // Знание. Понимание, Умение, 2012, №1
3. **Bentley A.** The Process of Government: A Study of Social Pressures. Chicago, 1908
4. **Truman D.B.** The Governmental Process. Political Interests and Public Opinion. New York, 1951
5. **Latham E.** The Group Basis of Politics: Notes for a Theory // The American Political Science Review. Washington, 1952, Vol. 46, № 2. p. 376–397
6. **Lindblom Ch.E**. Politics and Markets: the World’s Political Economic System. New York, 1977
7. **Schmitter Ph.** Still the Century of Corporatism? // Trends Towards Corporatist Intermediation. London, 1979, p. 6–52
8. **Камакин А.** Минюст займется расчисткой политического поля. // Независимая газета. 1999, 21 мая
9. **Руссо Ж –Ж.** Об общественном договоре... // Руссо Ж.-Ж. Трактаты. – М., 1969
10. **Смелзер Н**. Социология. М., 1991
11. **Уилсон Дж.** Американское правительство. М., 1990
12. **Федералист:** Политические эссе Александра Гамильтона, Джеймса Мэдисона, Джона Джея. М., 1994
13. **Шмиттер Ф.** Неокорпоратизм. // Полис. 1997, № 2 **Alm**

**UOT 94(476.24)+902**

# QIZQALASI KURQANLARININ DƏFN ADƏTİ

***T.S. Həşimova***
*AMEA Naxçıvan Bölməsi*
*turanheshimova@mail.ru*

***Açar sözlər:*** *Qızqalası, Orta Tunc dövrü, kurqanlar, kromlex, dəfn adəti*

Orta Tunc dövrünə aid Qızqalası kurqanları Arpaçayın sağ və sol sahilində çox geniş əraziyə yayılmışdır. Qızqalası kurqanlarında 2014-2016-cı illərdə arxeoloji araşdırmalar aparılmışdır. Bu kurqanların ətrafı əsasən kromlexlə əhatə olunmuşdur. Daş qarışıq torpaqla örtülən qəbirlər yerdə qazılmış, küncləri dəyirmi dördkünc çalalardan ibarətdir. Kurqanlar dəfn adətinin müxtəlifliyi ilə seçilir. Qəbirlərdə müxtəlif istiqamətlərə yönəlmiş sağ və sol böyrü üstə, bükülü vəziyyətdə, tək, cüt və kollektiv dəfn adətlərinə rast gəlinmişdir. Bəzi qəbirlərdə insan skeleti olmamışdır. Qızqalası kurqanlarının qəbir kameralarında zəngin məişət əşyaları heyvan sümüklərinin qalıqları aşkar olunmuşdur. Qızqalası kurqanları üçün dəyişilməyən bir qayda onların kromlexlə əhatə olunmasıdır. Kurqan tipli qəbir abidələrinin çox geniş ərazidə yayılması və müxtəlif dövrü əhatə etməsi burada insanların uzun müddət məskunlaşdığını göstərir. Qızqalası kurqanlarının öyrənilməsi Naxçıvanın Orta Tunc dövrü qəbir abidələri üçün kremasiya (yandırma) adətinin xarakterik olmadığını təsdiq edir.

## ОБЫЧАИ ЗАХОРОНЕНИЙ КУРГАНОВ КЫЗКАЛА

***Т.С.Гашимова***

***Ключевые слова:*** *Кызкала, средняя бронза, курган, кромлех, обычай захоронения*

Курганы Кызкалы, отиосящнеся к среднему бронзовому веку занимали обширную территорию по левому и правому берегу Арпачая. На курганах Кызкалы в 2014-2016 годах были проведены археологические исследования. Эти курганы в основном были обведены кромлехами. Погребения, выкопанные на грунте имеют четырёхугольную форму с округлёнными углами и покрыты почвой смешанной с камнем. Обычаи

захоронения курганов отличаются своим разнообразием. В погребениях были найдены захоронения в различных направлениях, расположенных на правом и левом боку, в согнутом состоянии. Были также одинарные, двойные и коллективные захоронения. В некоторых погребениях человеческие скелеты не обнаружены. В погребальных камерах курганов Кызкалы были найдены богатые бытовые материалы и костные останки животных. Неизменное правило для курганов Кызкалы это то, что они окружены кромлехом. Распространение погребальных памятников типа курган на большой территории, а также существование их в разных периодах свидетельствует о проживании здесь людей в течение длительного времени. Изучение курганов Кызкалы подтверждает, что в период средней бронзы для погребальных памятников Нахичевана кремация не является единственным типом захоронения.

## FUNERAL CUSTOMS OF KIZKALA BARROWS

***T.S.Gashimova***

***Keywords:*** *Kızkala, Middle Bronze Age, barrow, cromlech, custom of burial.*

Kızkala's barrows, belonging to Middle Bronze Age occupied the extensive territory on the left and right coast Arpachay. On Kızkala's barrows were conducted archaeological researches in 2014-2016. These barrows were generally outlined by cromlechs. The burials which are dug out on soil have quadrangular the forms with the rounded angles and are covered with the soil mixed with a stone. Custom of burial of barrows differ in the variety. In burials were found in different directions located on the right and left side in the bent status. There were also unary, double and collective burials. In some burials human skeletons are not found. Rich cultural materials and bone remains of animals were found in funeral cameras of barrows of Kızkala. The invariable rule for Kızkala's barrows is that they are environed with a cromlech. Distribution of funeral monuments like barrow in the big territory and also their existence in the different periods demonstrates living of people here for a long time. The study of barrows of Kızkala confirms that in the period of average bronze for funeral monuments of Nakhchivan cremation are not the single type of burial.

Qızqalası yaşayış yeri Şərur rayonunun Aşağı Yaycı kəndinin cənub-qərbində, Uzunqaya dağ silsiləsinin Arpaçaya endiyi yerdə yerləşir. Abidə

şərqdə Arpaçay vadisi və su anbarı ilə, cənubda düzənlik sahə, şimal və qərbdə isə dağlarla əhatələnmişdir [9, 241]. Qızqalası yaşayış yeri həm strateji cəhətdən həm də əkinçilik və maldarlığın inkişafı üçün olduqca əlverişli ərazidə yerləşir. Qızqalası yaşayış yerinin ətrafında çox geniş ərazidə yayılan kurqan tipli qəbir abidələrinin olması burada insanların uzun müddət məskunlaşdığını göstərir.

Naxçıvanın Orta Tunc dövrü kurqanlarından tapılan boyalı qablarla zəngin olan materiallar qədim tayfaların iqtisadi və mədəni həyatı, dini ideologiyası barədə fikir söyləməyə imkan verir. Qızqalası kurqanlarının tədqiqi də bizə bu dövr dəfn adəti və dini inancları ilə bağlı müəyyən məlumat verir.

Qızqalası yaşayış yerinin ətrafındakı kurqanlar 2014-2016-cı illərdə V.B.Baxşəliyev, H.Gopnik, L.Ristvet tərəfindən araşdırılmışdır. Orta Tunc dövrünə aid kurqanlar Arpaçayın sağında və solunda çox geniş əraziyə yayılmışdır. Bu kurqanlar əsasən ətrafı kromlexlə əhatə olunmuş daş qarışıq torpaq qəbirlərdir. Kurqanlardan ilk CR2 kurqanı tədqiq edilmişdir. Burada 7x7 m ölçüdə qazıntı sahəsi açılmışdır. Daş layları götürülərkən 3 kiçik gil çölmək aşkar olunmuşdur. Qəbir kamerasından daha sonra 5 küpə və 11 kasadan ibarət gil qablar tapıldı. Kameranın şimal tərəfində sağ yanı üstə, bükülü və qərb-şərq istiqamətində bir skeletə rast gəlindi. İkinci skelet qəbir kamerasının cənub tərəfində sağ yanı üstə, bükülü vəziyyətdə və şərq-qərb istiqamətində yerləşdirilmişdir. İkinci skeletin yaxınlığında quzu skeletinin qalıqlarına təsadüf olunmuşdur [6, 4].

Bu cür cüt dəfn adətinə Qızılburun nekropolunda 4 və 6 nömrəli qəbirlərdə rast gəlirik. 4 №li qəbir dağılsada, çuxuru salamat qalmışdır. Qəbirdə iki skelet olmuşdur. Birinci skelet şərq-qərb istiqamətində yerləşmiş, ayaqları bükülü, qərbə tərəf, qolları isə yanlarına uzadılmışdır. Kəllə sümüyünün ətrafında boyalı qırmızı küpə, qəhvəyi rəngli iki kiçik qab, qulplu qara qab tapılmışdır. İkinci skeletin sümükləri pis qalmışdır. Birinci skeletin ayağından 10 sm cənubda ikinci skeletin kəllə sümüyü olmuşdur. 6 №li qəbirin qərb hissəsində skelet sümükləri pis qalmışdır. Skeletin ətrafından gil qablar, bilərzik, iki üzük, tunc xəncər aşkar olunmuşdur. İkinci skelet qəbirin şərq hissəsində qərb istiqamətdə, sağ böyrü üstə, bükülü formada olmuşdur. Ətrafından tunc sancaqlar, tunc bilərzik, xəncər, daş toppuz aşkar olunmuşdur [2, 36-37].




**Şəkil 1. Qızqala kurqanlarından birinin planı.**

CR3 kurqanında altı sıra daş örtüyü götürüldükdən sonra qəbir kamerası aşkar olunmuşdur. Qəbir kamerasının ölçüsü 155x117 sm olmuşdur. Kamerada üç insan skeletinin qalıqlarına rast gəlinib. Onların biri qəbirin şimal tərəfində sol yanı üstə, bükülü vəziyyətdə qərb-şərq istiqamətində yerləşdirilib. Bu skeletin sağ əlinin yaxınlığında quzu və küçük skeletinin qalıqları aşkar olunmuşdur. İkinci skelet təxminən 10-11 yaşlı uşağa aid olub, qəbir kamerasının cənub tərəfində aşkar olunmuş, qərb-şərq istiqamətində yerləşdirilmişdir. Bu qəbirdən qara və qırmızı rəngli 15 gil qab, muncuqlardan ibarət boyunbağı, tunc, karneol, balıqqulağı və şüşə muncuqlardan hazırlanmış bilərzik, 5 obsidian ox ucluğu və tunc əşya parçaları tapılmışdır. Üçüncü insan skeletinə aid isə dişlər tapılmışdır. Tədqiqat zamanı heyvan sümükləri də aşkar olunmuşdur [6, 4].



**Şəkil 2. Qızqala kurqanının materialları.**

Kollektiv dəfn adətinə Naxçıvan şəhəri ərazisində olan torpaq qəbirlər və Qızılburun daş qutu qəbirlərində təsadüf olunur. Kollektiv dəfn adətinin bir neçə izahı ola bilər. V.Əliyevin fikrincə müəyyən təbii fəlakət və ya vuruşma nəticəsində ölmüş insanlar eyni tayfadan olduqları üçün bir qəbirdə dəfn edilmişlər. Köhnə qəbirlərin sonradan açılması və başqa birinin dəfn olunması da mümkündür. Bəzi qəbirlərdə uzadılmış skeletlə bərabər, oturdulmuş skeletə də rast gəlinmişdir. Burada uzadılmış skeletin varlı adama, oturdulmuş skeletin isə qula məxsus olduğu düşünülür. Tədqiqatçı bunu Orta Tunc dövrünün sonlarında mülki bərabərsizliyin artması ilə izah edir. Mülki bərabərsizlik, varlı və yoxsul siniflərin yaranması qəbir abidələrinin dəfn adətlərində özünü göstərir [2, 39].

CR4 kurqanının tədqiqi üçün 14x14 m ölçüdə qazıntı sahəsi açılmışdır. Qazıntı sahəsi təmizlənərkən diametri 11,1-11,4 m arasında xarici kromlex aşkar olunmuşdur. Daxili kromlexin diametri isə 9 m olmuşdur. Qəbir kamerası qaba dördkünc formada olub və məzarın künclərinə gil qablar qoyulmuşdur. CR4 kurqanında boz rəngli iri həcmli küpə hissələrinə, onun yaxınlığında iki qulplu tunc qazan, tunc nizə ucu və tunc xəncərə rast gəlinmişdir. Qəbir kamerasının döşəməsindən xeyli muncuq tapılmışdır. Qəbir kamerasında iribuynuzlu heyvanın skeleti aşkar olunsa da, insan skeletinə rast gəlinməmişdir [6, 5]. CR11 kurqanında da aparılan qazıntılar zamanı boz və qırmızı rəngli keramika parçaları, tunc sancaq başlığı tapılsa da, insan skeletinə rast

gəlinməyib [5, 12]. Orta Tunc dövrünə aid bir qrup qəbirdə insan skeleti tapılmayıb. Belə dəfn adətinə Kükü, Şahtaxtı, Nəhəcir [10, 51-87] nekropolunda və Qobustandakı 13 nömrəli kurqanda ikinci və üçüncü qəbirlərdə təsadüf olunur. Qəbirlərin boş olmasını adətən kremasiya adəti ilə əlaqələndirirlər. Ancaq boş qəbirlərdə yanmış skelet qalıqlarına rast gəlinməməsi bu fikri tam təsdiq etmir.

Şahtaxtı nekropolunda qəbirlər kromlexlə əhatə olunmuş və üzərində kurqan düzəldilmişdir. Bu qəbirlərin əksəriyyəti qarət edilmişdir və onların xarekterik cəhətlərindən biri qəbirlərdə insan skeletinin olmamasıdır. 1936-cı ildə Ə.K.Ələkbərovun tədqiq etdiyi qəbirlərdən birində bir ədəd polixrom naxışlı küpə, 29 ədəd sadə qab, at yüyəni üçün qızıl bəzək əşyası və bütöv at skeleti aşkar olunmuşdur. Bütöv heyvan skeletinə Kükü nekropolunda da rast gəlinmişdir. Burada kurqanların birindən bütöv öküz skeleti aşkar olunmuşdur. Qəbirlərdə bütöv heyvan skeletinin olması o biri dünyaya inamla bağlıdır [1, 34].

CR7 kurqanında aparılan qazıntılar zamanı ənənəvi kromlexlərdən fərqli olaraq, bu kromlexin yarımdairəvi şəkildə olduğu aşkar edilib. Kurqanın mərkəzində böyük daş yığınlarının altında torpaqda qazılmış qəbir kamerası olub. Qəbir kamerasından əsası boyalı qablardan ibarət olan gil məmulatı, tunc nizə ucu, tunc biz, obsidian ox ucluqları və insan skeleti aşkar olunub. CR8 kurqanı da yarımdairəvi kromlex formasında idi. Burada da eyniylə CR7 kurqanında olduğu kimi mərkəzi hissədə dairəvi formada iri daş yığınları olmuşdur. Daşlar götürüldükdən sonra torpaqda qazılan oval formalı qəbir kamerasına rast gəlinib. Qəbir kamerasının ölçüsü 4,5x3 m idi. Qəbirdə yaşlı adama məxsus bir kişi skeleti olub və ətrafında 120 ədəd muncuq və heyvan sümükləri aşkar olunub [4, 188-190].

CR12 kurqanının tədqiqi üçün 5x6 m ölçüdə qazıntı sahəsi seçilib. Araşdırmalar zamanı müəyyən olunub ki, yarımdairəvi formalı kromlex CR8 kurqanının kromlexi ilə birləşib. Kromlexin içərisində daş qarışıq torpaq örtüyü oval formalı olub. Qazıntı zamanı bir-birinin üzərində yerləşən dörd iri daş layı götürüldükdən sonra qəbir kamerası aşkar olunub. Qəbir kamerasından iki monoxrom boyalı kasa, bir boz küpə, qulplu kiçik piyalə, qırmızı bazalt daşından hazırlanmış oval daş parçası aşkar olunub. Kameranın cənub tərəfində şərq-qərb istiqamətində insan skeletinin çox pis qalmış qalıqları, kəllə sümüyünə aid parçalar və dişlər aşkar olunub. Kəllə sümüyünün ətrafından sferik formalı korneol muncuqlar tapılıb [5, 13-14].

Tək dəfn adəti Çalxanqala, Qobustan və Plovdağ kurqanları üçün xarakterikdir. Plovdağ kurqanları daş qutu və torpaq qəbirlərdir. Plovdağ kurqanlarının əsas elementlərindən biri qurbangahlardır. Ölülər sol böyrü üstə, bükülü vəziyyətdə, əsasən tək dəfn olunmuşlar. Plovdağ kurqanlarının diqqət çəkən cəhəti xırda buynuzlu heyvanların bütöv və ya baş və ətraf sümükləri ilə bir yerdə qəbirlərə qoyulmasıdır. Plovdağ kurqanlarında ciddi qaydalar əsasında

yerinə yetirilən və uzun müddət stabil qalan dəfn adətinin olduğunu görürük [7, 67-100]. Qobustan kurqanları da daş qutu və torpaq qəbirlərdir. Kurqanların ətrafı dairəvi daş hasar-kromlexlə əhatələnmişdir. Ölülər adətən sol böyrü üstə, bükülü vəziyyətdə, tək dəfn olunmuşlar. Qobustan kurqanlarında yalnız 4№li kurqanda cüt (ana və uşaq) dəfnə rast gəlinir. Diqqət çəkən bir xüsusiyyət də bəzi kurqanların kromlex daşlarından birinin hündür, nişangah daşı olmasıdır. 3№li kurqanda isə bu nişangah daşı insan formasında heykəllə əvəz olunmuşdur. Zaqafqaziya ərazisində ilk dəfə bu cür daş heykəl formalı abidəyə təsadüf olunmuşdur [8, 30,39].

Aparılan araşdırmalardan belə nəticəyə gəlmək olar ki, Orta Tunc dövründə Qızqalası ətrafındakı kurqanlarda dəfn adəti çox müxtəlif olmuşdur. Çünki biz tədqiq edilən qəbir abidələrində sağ və sol böyrü üstə, bükülü vəziyyətdə, müxtəlif istiqamətlərdə, tək, cüt və kollektiv dəfn adətlərinə rast gəlirik. Qəbirlərdə skeletin olmadığına da təsadüf edirik. Ümumiyyətlə, Orta Tunc dövründə qəbirlərdə skeletin aşkar edilməməsi bəzi tədqiqatçılar tərəfindən kremasiya dəfn adətinin olması ilə əlaqələndirilir. Bu fikir uzun illər qəbul olunmuşdur. Qızqalası kurqanlarında, həmçinin Kükü, Şahtaxtı, Qobustan kurqanlarında skelet tapılmayan qəbirlərdə yanmış skelet qalıqlarına rast gəlinməyib. Bu da Orta Tunc dövründə kremasiya adətinin olması fikrini şübhə altına alır.

Qızqalası kurqanlarının qəbir kameralarından zəngin material aşkar olunmuş və heyvan sümüklərinin qalıqlarına çox təsadüf olunmuşdur. Orta Tunc dövründə maldarlığın inkişafı, onunla bərabər ovçuluqla da məşğul olmaları əhalini ət, yun, dəri, süd məhsulları ilə təmin edirdi. Heyvanların sümüklərindən və buynuzundan müxtəlif alətlər hazırlanırdı. Atın əhilləşdirilməsi və ondan minik vasitəsi kimi istifadə edilməsi də olduqca əhəmiyyətli idi. Qəbirlərdə tez-tez heyvan sümüklərinə və bütöv heyvan skeletlərinə rast gəlinməsi insanların həyatında onların önəmli yer tutduğunu göstərir.

Qızqalası kurqanları üçün dəyişilməyən bir qayda onların kromlexlə əhatə olunmasıdır. V.Baxşəliyev qəbirlərin kromlexlə əhatə olunmasını günəşə olan inamla bağlı olduğunu bildirir [3, 181]. Kurqanların kromlexlə əhatə olunması adətinə Azərbaycanın bir çox qəbir abidələrində rast gəlirik.

Naxçıvan ərazisində olan bir çox kurqanlar təsadüf nəticəsində, tikinti işləri aparılarkən, kanal qazılarkən aşkar olunmuşdur. Bu kurqanlar əsasən dağıdılmış, materialları qarışmış, dəfn forması itmiş qəbirlərdir. Bəzi kurqanlar da qarət olunduğu üçün dağıdılmışdır. Bəziləri isə yaxın keçmişdə aşkar olunduğu zaman ətraflı tədqiq edilməmiş, tapılmış materiallar, dəfn adəti haqqında dəqiq məlumat yazılmamışdır. Bugün onlar haqqında bəzi fikirlər demək çətindir. Qızqalası kurqanlarının tədqiqi Orta Tunc dövrü qəbir abidələri və dəfn adətləri haqqında yeni məlumatlar verir. Qızqalası kurqanlarında

arxeoloji qazıntılar yekunlaşmayıb. Növbəti illərdə aparılacaq geniş arxeoloji araşdırmalar bəzi problemlərin həllinə köməklik edə bilər.

## ƏDƏBİYYAT

1.**Bahşaliyev V.** Nahçıvan Arkeolojisi. İstanbul: Arkeoloji ve Sanat, 1997, 150 s.

2.**Əliyev V.** Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti. Bakı: Elm, 1977, 168 s.

3.**Baxşəliyev V.** Azərbaycan Arxeologiyası. Bakı: Elm, 2007, 240 s.

4.**Baxşəliyev V. Ristvet L. Gopnik H. Sverida J. Nugent S.** Qızqalası yaşayış yerində 2015-ci ildə aparılan arxeoloji araşdırmalar. AMEA-nın xəbərləri, 2016 №2, 178-193 s.

5.**Baxşəliyev V. Ristvet L. Gopnik H.** Qızqalasında arxeoloji tədqiqatlar. AMEA-nın Naxçıvan Bölməsi. Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun 2016-cı il üçün Hesabatı. 2016, s. 23-30.

6.**Baxşəliyev V. Ristvet L. Hammer E. Gopnik H.** Qızqalası ətrafında arxeoloji araşdırmalar. AMEA-nın Naxçıvan Bölməsi. Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun 2014-cü il üçün Hesabatı. 2014, s. 16-20.

7.**Baxşəliyev V. Seyidov A. Qədirzadə Q. İbrahimli B.** Qədim Ordubad. Naxçıvan: Əcəmi, 2014, 312 s.

8.**Muradova F.** Qobustan tunc dövründə. Bakı: Elm,1979, 120 s.

9.**Seyidov A. Baxşəliyev V. Məmmədov S. Aşurov S**. Qədim Şərur. Bakı 2012, 466 s.

10. **Seyidov A.Q., Baxşəliyev V.B.,** Nəhəcirdə arxeoloji araşdırmalar., Bakı, “İqtisad Universiteti”, 2002, 201 səh.

**UOT 94(479.242)**

# NAXÇIVANIN ENEOLİT KERAMİKASI ÜZƏRİNDƏKİ RELYEF QURŞAQLARIN MƏNŞƏYİ

***Z.K.Quliyeva***
*AMEA Naxçıvan Bölməsi*
*zeyneb_guliyeva@yahoo.com*

***Açar sözlər:*** *Naxçıvan yaşayış yeri, neolit, eneolit, genezis, relyef qurşaqlar*

Tədqiqatlar göstərir ki, ornamentlər aid olduqları dövrün xüsusiyyətlərinin müəyyənləşdirilməsində əsas atributlardan biri kimi xüsusi əhəmiyyət kəsb edirlər. Azərbaycan ərazisində onların ilk nümunələri Qobustan, Kəlbəcər dağları, Gəmiqaya kimi qayalıqlarda, həmçinin keramika, sümük, buynuz, müxtəlif növ daşlardan hazırlanmış materiallar üzərində tətbiq olunmaqla qədim insanların sənətkarlığı, incəsənəti və ideologiyasını əks etdirmişdir. Keramika üzərindəki ornamentlərin digərlərindən üstün cəhəti onların tapıldığı abidələrin stratiqrafiyasına əsaslanmaqla, tarixlərinin daha dəqiq müəyyən edilməsidir.

Bu cür relyef qurşaqların bənzərinə Şərqi Anadolunun Tülintəpə, Norsuntəpə və Mesopotamiyanın son eneolit dövrünü əks etdirən Uruk keramikasında rast gəlinmişdir.

# ГЕНЕЗИС РЕЛЬЕФНЫХ ПОЯСОВ НА ЭНЕОЛИТИЧЕСКОЙ КЕРАМИКЕ НАХЧЫВАНА

***З.К.Гулиева***

***Ключевые слова:*** *Поселения Нахчыван, неолит, энеолит, генезис, рельефные пояса,*

В статье было исследовано, генезис рельефных поясов на энеолитической керамике Нахчывана. Рельефные пояса, зарегистрированные на энеолитической керамике Нахчывана, можно разделить на 3 группы: рельефные пояса широкой и прямой формы, опоясывающие горлышко посуды; с орнаментацией, выполненной в технике врезки и орнаментированные вдавленными кругами. Первый тип этого орнамента

берет свою началу из орнаментации период Неолита. С точки зрения формы они похожи на материалы памятников того же периода в соседних регионах. Их близкие параллели известны из таких синхронных памятников как Коруджутепе, Тюлинтепе, Норшунтепе, Кул хоюк в Восточной Анатолии, Урук в Месопотамии и Тепе Калешех в Приурмийском бассейне.

Таким образом, исследование релефные поясы на энеолитической керамике позволяют наполнить пробел, появленный между поздним неолитом и поздним энеолитом, а также имеет значение в изучение отношении древних культур Нахчывана.

## GENESIS OF THE RELIEF BELTS ON THE CHALCOLITHIC CERAMIC OF NAKHCHIVAN

***Z.K. Guliyeva***

***Keywords:*** *Settlement Nakhchivan, Neolithic, Chalcolithic, genesiss, embossed belts*

In the article was investigated, the genesis of the relief belts on the Calcolithic ceramics of Nakhchivan. Studies show that this type of ornaments persisted in the Chalcolithic period. This factor demonstrates the continuity of relations between the two cultures. Embossed belts registered on the Nakhchivan Calcolithic ceramics can be divided into 3 groups: belts of wide and direct form, encircling the neck of vessels; with ornamentation in the cutting-in technique and ornamented by embedded circles. As for the form they resemble materials of the synchronous monuments in neighboring regions. Their close parallels are known from the synchronous monuments such as Korujutepe, Tulintepe, Norshuntepe, Cool hoyuk in Eastern Anatolia, Uruk in Mesopotamia and TepeKalesheh in the Near-Urmia basin.

Research of embossed belts on the Chalcolithic ceramics of Nakhchivan allow us to establish connections between late Neolithic and Chalcolithic Age cultures.

I Kültəpə qədim yaşayış yerinin saxsı məmulatı üzərində olan ornamentlər keramikada tətbiq edilən ornamentasiyanın ilkin nümunələrindən olmaqla çox dəyərlidir. İlk vaxtlar relyef, cızma və batıq naxışlarla təmsil olunan ornamentlər içərisində relyef qurşaqlar özünəməxsus xüsusiyyəti ilə fərqlənirlər. Diqqəti çəkən cəhətlərdən biri də neolit keramikası üzərində rast gəlinən bu ornamentlərin bir qrupunun eneolit dövründə də davam etməsidir. Bu da haqqında bəhs edilən hər iki mədəniyyət arasında bağlılığı nümayiş etdirir.

Naxçıvanın neolit keramikası üzərində dörd tiplə təmsil olunan relyef qurşaqların hələik yalnız bir tipi qonşu regionların arxeoloji materialları arasında özünə analogiya tapır və eyni zamanda eneolit dövründə də öz varlığını göstərir. Bu xüsusiyyət neolit mədəniyyəti ilə eneolit mədəniyyəti arasındakı varislik əlaqəsinin əlamətlərindəndir. Lakin eneolit dövründə bu ənənə sadəcə davam etməmiş, yerli sənətkarların yüksək bədii duyumunun nəticəsində onlara yeni naxışlar əlavə edilərək, bir qədər də təkmilləşdirilmişdir.

Naxçıvanın eneolit keramikası üzərindəki relyef qurşaqlar üç tiplə təmsil olunur: düz, qalın formalı, cızma və dairəvi batıq ornamentli relyef qurşaqlar. Birinci tipə aid olanlar neolit dövrünün xüsusiyyətlərini özündə saxlayaraq, konusşəkilli, yuvarlaqlaşdırılmış formada qabların boğazını çevrələyir (Şəkil 1, 1-2). Onlara eneolit dövrünün həm erkən, həm də son mərhələlərinə aid keramika məmulatları üzərində rast gəlinir. Uzunoba yaşayış yerindən aşkar edilmiş erkən mərhələyə aid nümunə gilinin tərkibinə saman qatılaraq, sarı rəngdə, ağız diametri 40 sm olan qaba aiddir (Uz-15, 022). Qabın gövdəsinin bəzi hissələri hislənmişdir. Naxışsız və qalın formalı relyef qurşaq neolit dövründə olduğu kimi qabın ağız kənarının aşağısında tətbiq edilmişdir.

Eneolitin son mərhələsində relyef qurşaqlar tədricən qabların çiyin hissəsinə endirilmişdir. Belə ki, Ovçulartəpəsindən aşkar edilən qablar üzərindəki relyef qurşaq onların boğazını çiyni ilə birləşdirən keçid hissəni çevrələməklə yeni məzmun kəsb etmişdir [3, Tablo. LV-3; 2-XXVIII]. Naxçıvanın eneolit qabları üzərində tətbiq edilmiş düz və qalın relyef qurşaqların bənzərlərinə Türkiyə Cümhuriyyətinin Elazığ-Bingöl yolu üzərində yerləşən Korucutəpə [4, fig. 128-130], Kul höyük, Urmiya hövzəsindəki Təpə Kaleşeh, Çaxmaqlı yaşayış yerlərinin eneolit təbəqəsində də rast gəlinmişdir. Onlar qabın ağız kənarını bəzən bir (tam ağız kənarında), bəzən də iki-üç cərgə ilə sonda az yuvarlaqlaşdırılmış konusvari şəkildə çevrələyir [2, Fig. 3; 4,B,16,18; C,24-24]. Bu tipli qabartma çıxıntıya Təpə Lavinin VII təbəqəsinin keramikasında da rast gəlinir [9, Fig. 10,1219].

Relyef qurşaqların ikinci qrupu maili formada batıq, çərtmə, yaxud cızma xətlərlə naxışlanmışdır. Onlar Uzunoba, Ovçulartəpəsindən aşkar olunan saxsı qalıqları üzərində qeydə alınmışdır. 2017-ci ildə ilk dəfə tədqiqata cəlb edilən Naxçıvan yaşayış yerindən[1] üzə çıxarılmış erkən eneolit dövrünə aid keramika nümunələri üzərində relyef qurşaqların hər 3 tipinə rast gəlinmişdir. Birinci tipə aid olan nümunə naxışsız olub, qalın bant şəklində qabın ağız kənarını çevrələməklə I Kültəpənin neolit keramikası üzərindəki ornamentlər arasında analogiya tapır (Şəkil 1,1-2). Digər nümunə silindirik boğazlı qabın üzərində tətbiq edilməklə, şaquli çərtmələrlə naxışlanmışdır (Şəkil 1,3).

[1] Naxçıvan yaşayış yerində arxeoloji qazıntılar 2017-ci ilin iyul-avqust aylarında AMEA-nın müxbir üzvü V.Baxşəliyievin rəhbərliyi ilə AMEA Naxçıvan Bölməsinin əməkdaşlarının o cümlədən, müəllifin də daxil olduğu arxeoloji ekspedisiya tərəfindən aparılmışdır.

Eneolitin erkən mərhələsini əks etdirən bu ornamentlər digərlərindən fərqli olaraq, kobud şəkildə naxışlanmışdır (NB-17, inv.№2007). Bu cür relyef qurşaqların bənzərinə Şərqi Anadolunun Tülintəpə [6, fig. 10/5], Norsuntəpə keramikasında [7, fig. 6] və Mesopotamiyanın son eneolit dövrünü əks etdirən Uruk keramikasında [10, XXIId, 4] rast gəlinmişdir.

Eneolit dövrünə aid relyef qurşaqların üçüncü tipi neolit dövründəkindən fərqlidir. Belə ki, onların üzərində yastı və bir qədər enli şəkildə batıq dairəvi ornamentlər var. Bu tip ornamentli nümunələrdən biri Naxçıvançay vadisindəki Uzunoba yaşayış yerində sarı rəngli, saman qarışıqlı qab fraqmenti üzərində qeydə alınmışdır (Şəkil 1,4). Ağız diametri 35 sm olan bu qab sarı rəngli gildən keyfiyyətli bişirilməklə, hər iki üzdən hamarlanmışdır. Uçan Ağıl yaşayış yerindən aşkar edilən digər nümunə eyni texnologiya ilə hazırlanaraq sarı rənglə anqoblanmışdır (UA-15, 2019). Arpaçay vadisindən qeydə alınan üçüncü nümunə qıfşəkilli qabın çiyin hissəsində tətbiq edilmişdir. Qabı çevrələyən relyef qurşaq mirvari düzümünü xatırladan batıq dairələr cərgəsi ilə naxışlanmışdır. Bu tip ornamentlər Naxçıvan yaşayış yerində (NA-17, inv.№1076), həmçinin Ağcabədi rayonunda yerləşən Qoşatəpə abidəsinin eneolit keramikası üzərində də qeydə alınmışdır [1, 479]. Onlar Anadolu [5; 6; 7; 8], Urmiya hövzəsi [2] və Mesopotamiyanın [17] həmdövr abidələrinin materialları ilə analogiya yaradır.

Istər neolit istərsə də eneolit keramikasında izlənilən relyef qurşaqlar hər iki mədəniyyət arasındakı varislik əlaqəsini əks etdirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, bu əlamət relyef ornamentlərin digər növlərində də özünü büruzə verir. Qabların boğazında tətbiq edilən yuvarlaq çıxıntılar, dairəvi deşilmə ornamentlər, həmçinin künclərdə yuvarlaqlaşdırılan kvadrat, yaxud aypara şəkilli relyef ornamentlərdə də neolit ənənəsini saxlamışdır.

Göstərilənlərdən bi nəticəyə gəlirik ki:

- Naxçıvanın eneolit keramikası üzərindəki relyef qurşaqların təhlili bəhs edilən dövrün mədəniyyətinin mənşəyini araşdırmağa imkan yaratmaqla, mühüm əhəmiyyət kəsb edir. Son neolit dövrünün düz və qalın formalı relyef qurşaqlarının eneolit qablarında da öz varlığını sürdürməsi Naxçıvanın neolit və eneolit mədəniyyəti arasındakı varisliyin göstəricilərindən biri kimi diqqəti cəlb edir.

- Naxçıvanın eneolit tayfaları neolit ənənələrini davam etdirməklə yanaşı, onu daha da təkmilləşdirmişlər. Bu dövrə aid keramikanın üzərində 3 tiplə təmsil olunan relyef qurşaqların yaxın paralellərini Norsuntəpə, Tülintəpə və Uruk kimi son eneolit abidələrinin materialları içərisində tapması, Naxçıvanın eneolit mədəniyyətində izlənən neolit ənənələrinin qonşu regionlarda da davam etdirildiyini göstərir.

## ƏDƏBİYYAT

1. **Alməmmədov X.İ.** "Qarabağın arxeoloji abidələri toplusu". I kitab. Bakı:"Çap Art" Nəşriyyat evi, 2016, 448 s.
2. **Alibaigi S., Niknami K., Khosravi Sh., Charmchian M.,Hemmati M.** An Impressed Pottery Sherd: A Chalcolithic Newfound in the Southern Highland of Abharroud River Basin/ Iranian Jornal of Archaeological Studies 1: 1 (2011), 24-35.
3. **Baxşəliyev V.B., C. Marro, Aşurov S.H.** Ovçulartəpəsi (2006-2008-ci il tədqiqatlarının ilk nəticələri) // First Preliminary Report: the 2006-2008 seasons.-Bakı: Elm, 2010, 156 s.
4. **Brandt, R.W.** (1978). The Chalcolithic pottery. Studies in Ancient Civilization, Korucutepe II, Ed. Maurits N. van in Loon, Ph. D., Oxford, 57-60.
5. **Duru, R.** (1994). Kuruçay Höyük I: 1978-1988 Kazılarının Sonuçları, Neolitik ve Erken Kalkolitik Çağ Yerleşmeleri, TTK Basımevi, Ankara.
6. **Esin, U. and Arsebük G.** Tülintepe Excavations, 1974 // In Keban Project 1974-1975 Activities, METU, Keban Project Publications, Ankara, 1982 p.127-133.
7. **Gülçur S.** Norşuntepe: die chalkolitischen Keramik (Elazig/Ost Anatolien. İn C. Marro and H. Hauptmann, Chronologie des Pays du Caucase et de L´Eurhrate aux IVéme-IIIéme Millénaires. Actes du Colloque d´ Istanbul, 16-19 décembre 1998. Varia Anatolica XI, 2000, Paris, p. 375-418.
8. **Koşay, H. Z., Akok, M**. (1948). Büyük Güllücek Araştırmaları Üzerine İlk Rapor, Belleten XII/46, Ankara, 471-485.
9. **Nobari A., Binanden A., Nestani J., Nasab H**/Excavation at Lavin Tepe in northwest Iran. / ANES 49 (2012), pp. 95-117.Fig. 10,1219).
10. **Trentin M.G.** Nors-Western Uruk period pottery assamblages, Western Asiatic Department Institute of Archaeology. http://aaatec.or. 1361003/2/508114_VOL2.pdf.




**Şəkil 1. Naxçıvanın neolit və eneolit keramikası üzərindəki relyef qurşaqların tipləri: (1-I Kültəpə (KT-15, №E86); 2-3- Naxçıvan yaşayış yeri (NA-17, inv. №1077; 1027); 4-5-Uzunoba yaşayış yeri (Uz-15, inv. №005; 0016).**

**UOT 32+94(479.24)**

# XX ƏSRİN SON ON İLİNDƏ AZƏRBAYCAN NEFTİNİN DÜNYA BAZARLARINA DAŞINMA MARŞRUTLARININ SEÇİLMƏSİ

***G.Z.Mehdizadə***
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*gunel.mehdizade@mail.ru*

***Açar sözlər:*** *neft, boru kəmərləri, Əsrin müqaviləsi, Bakı-Novorossiysk, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan*

1994-cü il 20 sentyabr tarixində xarici neft şirkətləri ilə bağlanmış müqavilə ölkə tarixində yeni səhifə açdı. Sonradan bu müqavilə Azərbaycanın neft tarixində "Əsrin müqaviləsi" adını aldı. Ötən əsrin 90-cı illərinin ortalarında Azərbaycan öz neftini nəql etmək üçün cəmi bir marşruta imza atmışdı. Bu, Bakı-Novorossiysk neft kəməri ilə Qara dənizin Novorossiysk limanına nəql olunması haqda 1996-cı il 18 fevralda Moskvada imzalanmış müqavilə idi. Azərbaycan nefti xarici bazarlara 1997-ci il oktyabr ayının 25-dən etibarən daşınmağa başladı. Azərbaycan xalqının tarixində daha bir əzəmətli fakt isə 1999-ci il 17 aprel tarixində Azərbaycan nefti Çıraq yatağından qərb istiqamətə - Bakı-Supsa xətti ilə daşınmağa başlaması oldu. Qərb istiqamətinə daha böyük maştabda Böyük İpək Yolunun bərpası konteksində və ya daha dəqiq desək, Avrasiya nəqliyyat dəhlizi adlanan bir layihənin həyata keçməsi fonu kimi baxılır. Əsas ixrac boru kəməri yalnız kommunikasiya sistemi deyil, Cənubi Qafqazın qloballaşmasında strateji siyasətdir. 1999-cu il 18 noyabr ATƏT-in İstanbul Sammitində Azərbaycan Prezidenti Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze, Türkiyə Cümhuriyyəti Prezidenti Süleyman Dəmirəl Azərbaycan neftinin Bakı-Tbilisi-Ceyhan xətti ilə Əsas İxrac Boru Kəmərinin nəqli haqda müqavilə imzaladılar. Bu Azərbaycanın yeni neft strategiyasının vacib uğuru kimi qiymətləndirilir.

# ВЫБОР МАРШРУТОВ ДЛЯ ТРАНСПОРТИРОВКИ АЗЕРБАЙДЖАНСКОЙ НЕФТИ НА МИРОВЫЕ РЫНКИ В ПОСЛЕДНЕЕ ДЕСЯТИЛЕТИЕ XX ВЕКА

***Г.З.Мехтизаде***

***Ключевые слова:*** *нефть, нефтепроводы, Контракт века, Баку-Новороссийск, Баку-Супса, Баку-Тбилиси-Джейхан*

Нефтяной контракт, подписанный с нефтяными компаниями Запада 20 сентября 1994 года, открыл новую страницу в истории страны. Позднее этот контракт, названный Контрактом века, был увековечен в нефтяной хронике независимого Азербайджана. В Москве 18 февраля 1996 года был подписан договор о перевозке Азербайджанской нефти через Россию в Черноморский порт Новороссийск. Ранняя азербайджанская нефть была транспортирована по северному трубопроводу на мировые рынки 25 октября 1997 года. Еще одно знаменательное событие произошло в жизни Азербайджанского народа 17 апреля 1999 года. Нефть Чыраг стала транспортироваться на мировые рынки из порта Супса, открывая, таким образом, новое западное направление транспортировки Азербайджанской нефти. Президент Азербайджанской Республики Гейдар Алиев, президент Грузии Эдвард Шеварднадзе и президент Турции Сулейман Демирель подписали договор о транспортировке сырой нефти по трубопроводу Баку-Тбилиси-Джейхан через Азербайджанскую Республику и Турцию на Стамбульском саммите ОБСЕ по 18 ноября 1999 года. Это должно рассматриваться как важное достижение, достигнутое в новой нефтяной стратегии Азербайджана.

# THE SELECTION OF THE ROUTES FOR THE TRANSPORTATION OF AZERBAIJAN OIL TO THE WORLD MARKETS AT THE LAST DECADE OF THE TWENTIETH CENTURY

***G.Z.Mehdizadeh***

***Keywords:*** *oil, pipelines, The Contract of the Century, Baku-Novorossiysk, Baku-Supsa, Baku-Tbilisi-Ceyhan*

The oil contract signed with the oil companies of the West on September 20, 1994 opened a new page in the history of the country. Later, the said

contract called the contract of the century was perpetuated in the oil chronicle of independent Azerbaijan. A contract on the transportation of Azeri oil via Russia to the Black Sea port of Novorossiysk was signed in Moscow February 18, 1996. According to the initial provisions of the contract Azeri oil was transported by the north pipeline to the global markets on October 25, 1997.One more significant event took place in the life of the Azerbaijani people on April 17, 1999. The Chyrag oil started to be transported to the global markets from Supsa port thus opening the new western direction of the transportation of Azerbaijani oil. President of the Republic of Azerbaijan Heydar Aliyev, President of Georgia Edward Shevarnadze and President of Turkey Suleyman Demirel signed a contract on the transportation of crude oil by Baku-Tbilisi-Ceyhan pipeline via the Republic of Azerbaijan and Turkey at the Istanbul summit of OSCE on November 18, 1999. That must be regarded as the important achievement reached by the new oil strategy of Azerbaijan.

Hər bir ölkə yerləşdiyi bölgədə cərəyan edən hadisələrin bu və ya digər dərəcədə iştirakçısı olur. Suverenlik qazandıqdan sonra Azərbaycan Respublikası Cənubi Qafqazda müstəqil siyasət yeritmək üçün şans əldə etmiş oldu. XX yüzilliyin sonunda dünyada baş verən qlobal proseslər, xüsusən də Varşava Müqaviləsi Təşkilatının ləğv edilməsi, “soyuq müharibə”nin başa çatması, SSRİ-nin dağılması beynəlxalq aləmdə siyasi vəziyyətin ciddi şəkildə dəyişməsinə və regionda yeni geosiyasi mühitin yaranmasına səbəb oldu.

Postsovet məkanında meydana çıxan yeni müstəqil dövlətlərin bilavasitə beynəlxalq münasibətlər sisteminə qatılması və öz maraqlarını ifadə edən xarici siyasət xəttini həyata keçirməyə başlaması dünyada dövlətlərarası münasibətlərin yeni nizamının formalaşmasına gətirib çıxardı [2, 395].

Neft-qaz boru kəmərləri ətrafında XX əsrin 90-cı illərin II yarısında gedən rəqabət açıq şəkildə iqtisadi rəqiblikdən çıxaraq bütün regionun inkişaf strategiyası uğrunda geosiyasi mübarizəyə çevrildi. Bu mübarizəyə Xəzəryani yeni müstəqillik qazanmış ölkələr, regionda maraqları olan Qərb dövlətləri və neft şirkətləri qoşuldular. Xəzəryanı ölkələrin strategiyası xarici investisiyaları böyük ölçüdə cəlb etməklə regionda stabilliyi möhkəmləndirmək və yanacaq-energetika kompleksi sayəsində iqtisadi inkişafa nail olmaq idi.

XX əsrin 90-cı illərində xam neftin ixracı əsasında qurulan bu kurs yalnız SSRİ dövründə tikilmiş boru-kəmərlərini gücləndirmək sayəsində mümkün ola bilərdi. Bu, Xəzəryanı ölkələri neft və qazın nəqli üçün alternativ nəqliyyat yolları axtarıb tapmağa sövq etdi.

Boru-kəmər strategiyası Azərbaycan üçün strateji əhəmiyyət daşıyır. Lakin marşutun seçilməsi çətin geosiyasi proseslərə qoşulmağı qaçılmaz edir. Bura dünya şirkətləri və ölkələri ilə (neft çıxaran, tranzit, layihələri

maliyyələşdirən və s.) əlaqələr sistemine daxil olmalar aiddir. Nəticədə, boru-kəmər məsələsi spesifik geosiyasi status daşımaqla rəsmi Bakıdan asılı olmur. "Boru"-strategiya kimi regionda gedən geosiyasi prosesləri özündə təcəssüm etdirir. Hər cür formada baxsaq, "boru" ölkənin geosiyasi vəziyyətini, ölkənin gələcəyini, iqtisadiyyatını, əhalinin həyat tərzini təzahür edir. Ona görə də, bu strategiyanın düzgün seçilməsi mövcud siyasi reallıqları, bölgədə və regionda baş verən prosesləri nəzərə almağı, ölkənin iqtisadi vəziyyətinin və beynəlxalq nüfuzunun yüksəldilməsi üçün vacib olan bu məsələyə həssaslıqla yanaşmanı, düzgün siyasi uzaqgörənliyi tələb edir.

1992-ci ildə "boru" məsələsinin seçilməsi geniş diapazona malik idi. Son olaraq neftin dünya bazarlarına axması üçün 3 istiqamət müəyyənləşdirildi. I-si Rusiya ərazisindən keçən şimal istiqamət, II-Gürcüstan, Türkiyə ərazisindən keçən qərb istiqaməti, III-cənub istiqaməti- İran, Əfqanıstan və Pakistan ərazisindən keçən istiqamət. Burada mübahisələr, disskusiyalar əsasən qərb istiqaməti ətrafında gedir. Qərb istiqaməti daha böyük maştabda Böyük İpək Yolunun bərpası konteksində və ya daha dəqiq desək, Avrasiya nəqliyyat dəhlizi adlanan bir layihənin həyata keçməsi fonu kimi baxılır. Belə ki, 1993-cü ilin əvvəllərində ARDNŞ-in ekspertləri "boru"ları müxtəlif marşurutlar üzrə çəkilməsi layihələrini müzakirə edirdilər: Azərbaycan-İran-Naxçıvan-Türkiyə, Azərbaycan-İran-Fars körfəzi, Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-Gürcüstan-Qara dəniz, Bakı-Novorossiysk, Azərbaycan-Ermənistan-Türkiyə və s. Bu layihələrin hansının seçilməsindən asılı olmayaraq "boru-kəmərləri" geosiyasi status daşımağa başladı.

Bu dövrdə boru kəmərləri regionda dominantlıq uğrunda əsas istiqamətlərdən birinə çevrildi. Bu, hər şeydən əvvəl ABŞ tərəfindən keçmiş sovet respublikalarında siyasi və iqtisadi prosesləri sürətləndirməklə onların Rusiyadan asılılığına son qoymaq siyasi kimi özünü göstərirdi [7, 307].

20 sentyabr 1994-cü ildə Bakıda tarixi hadisə baş verdi: Xəzər dənizinin Azərbaycan sektorundakı üç neft yatağının müştərək istifadə edilməsi üçün Dövlət Neft Şirkəti ilə dünyanın böyük neft şirkətləri arasında "Əsrin müqaviləsi" imzalandı. Təsadüfü deyil ki, onu "Əsrin müqaviləsi" adlandırırlar. Bu müqavilənin qeyri-adiliyi, nadirliyi ondan ibarətdir ki, on bir böyük neft şirkətinin birləşdiyi konsorsium əsasında yaranıb. Həmin şirkətlər dünyanın neft sənayesi sahəsində böyük nailiyyətlər əldə etmiş altı ölkəsini təmsil edir [1, 451]. Bu müqaviləni dünyanın 8 ölkəsindən 11 iri neft şirkəti imzalamışdır.

Saziş demək olar ki, bütün dünya dövlətlərinin Azərbaycana inamını artırdı və sonradan dünyanın ən böyük və tanınmış neft şirkətlərinin ölkəmizə axınına şərait yaratdı. Bununla da Azərbaycan xarici sərmayələr üçün öz qapılarını açdı. Bu vaxta qədər ARDNŞ və xarici neft şirkətləri arasında "Hasilatın pay bölgüsü" tipli 32 saziş imzalanmışdır [15].

Azərbaycan Dövlət Neft Şirkəti Azərbaycan hökuməti ilə birgə bu böyük layihəyə imza atarkən öz qarşısına Azərbaycan Respublikasının yanacaq-enerji təhlükəsizliyini, neft-qaz və neft-kimya sənayesinin inkişafı üzrə strateji maraqları təmin etmək, qabaqcıl və ekoloji təmiz texnologiyalardan istifadə edərək Azərbaycanın elmi-texniki, iqtisadi və intellektual potensialının artırılmasına dəstək olmaq, regional və beynəlxalq enerji layihələrində həlledici mövqe tutmaq, karbohidrogen ehtiyatlarının və emal məhsullarının daxili və xarici bazarlarda satışından maksimal mənfəət əldə etmək kimi bir missiyanı məqsəd qoymuşdu.

Azərbaycan Respublikası və Qərb şirkətləri arasında imzalanmış bu müqavilə postsovet məkanında birinci idi. "Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk [6, 9-10].

"Çoxvariantlı aksiya" ən əvvəl müvəqqəti olaraq Kremlin ambisiyalarını, strateji diqqətini yayındırmaq məqsədi güdürdü. Beləliklə, Azərbaycan hökümətinin yeritdiyi bu taktiki siyasət uğurlu oldu və Rusiya bu inisiativi təsdiqlədi. 9 oktyabr 1995-ci ildə ABƏŞ-in Bakıda keçirilən iclasında ilkin müqavilə neftinin şimal (Rusiya) marşurutu və qərb (gürcü) marşurutu ilə tranziti qərara alındı.

"Əsrin müqaviləsi"nin imzalanmasından 1 il sonra - 1995-ci ilin oktyabrında Nyu-Yorkda neft konsorsuimuna daxil olan ABŞ şirkətlərinin Azərbaycan Respublikası Prezidentinin şərəfinə təşkil etdikləri rəsmi ziyafətdə qeyd olundu ki, Konsorsium əmin edir ki, ilkin neftin qeyd olunan vaxtda, yəni 1996-ci ilin sonlarına çıxarılması nəzərdə tutulur. Heydər Əliyev bildirdi ki, "İlkin neftin ixracı üçün iki boru kəmərinin çəkilməsi haqqında qərar qəbul edilmişdir. Bu qərar Amerika Birləşmiş Ştatlarında və Konsorsiuma daxil olan bütün şirkətlərdə, onların mənsub olduqları ölkələrdə çox böyük ruh yüksəkliyi ilə qarşılanmışdır. Biz bu qərarın qəbul olunmasını tarixi bir hadisə kimi qeyd edirik. Hesab edirik ki, bu, bizim gələcək işlərimiz üçün yaxşı əsas yaradır." [4, 207].

"Əsrin müqaviləsi"nin imzalanmasından sonra dünyada əsas enerji mənbələrinə nəzarət uğrunda mübarizənin kəskinləşməsi sözügedən müqavilə çərçivəsində hasil olunacaq milyonlarla ton xam neftin hansı əsas marşrutla Qərb bazarlarına nəql ediləcəyi məsələsini də başlıca mübahisə predmetinə çevirmişdi. Bununla bağlı fərqli təklif və ideyalar təkcə layihənin iştirakçısı olan dövlətlərin iqtisadi deyil, həm də təhlükəsizlik maraqlarından irəli gəlirdi. Mümkün marşrutlar içərisində hansının siyasi, kommersiya, iqtisadi, ekoloji və təhlükəsizlik baxımından daha əlverişli olması uzun müddət dünya siyasətinin aparıcı mövzusuna çevrildi.

Ötən əsrin 90-cı illərinin ortalarında Azərbaycan öz neftini nəql etmək üçün cəmi bir marşruta-Şimal marşurutuna malik idi. Azərbaycan nefti əsasən Bakı-Novorosiysk neft kəməri ilə Qara dənizin Novorossiysk limanına nəql olunurdu. Bu kəmərlə neft nəqlinə dair ikitərəfli müqavilə 1996-cı il fevralın 18-də Moskvada imzalandı. Tərəflər həmin müqavilə ilə Rusiya ərazisindən Azərbaycan neftinin nəqlinin hüquqi-texniki məsələlərini razılaşdırdılar. Müqavilənin ilkin şərtlərinə uyğun olaraq 1997-ci il oktyabrın 25-dən Azərbaycanın nefti şimal boru kəməri vasitəsi ilə dünya bazarına çıxarılmağa başladı.

Lap əvvəldən neftin daşınması üçün əsas marşurutu Bakı-Qroznı-Tixoresk-Novorossiysk (Bakı-Novorossiysk) hesab edilir. Onun ötürmə qabiliyyəti ildə 18 mln tondur. Bakı-Novorossiysk neft boru kəmərinin uzunluğu 1330 km, Rusiya ərazisindən 1300 km təşkil edir, onun 270 km-i Dağıstan, 150 km-i Çeçenistan, 18 km-i İnquşetiya ərazisindən keçir. Neft-boru kəmərinin Azərbaycan ərazisindən keçən uzunluğu 231 km-dir.

Bakı-Novorossiysk neft-boru kəməri keçmiş SSRİ dönəmindən qalma bir boru xəttidir. 1994-cü il 20 sentyabrda imzalanan "Əsrin müqaviləsi" ilə Xəzər neftinin dünya bazarlarına hansı yollarla çıxarılacağı məsələsi ortaya çıxdıqda bu xətt Rusiya tərəfindən Azərbaycandakı xarici şirkətlərə və Azərbaycan hökümətinə hazır bir xətt kimi məsləhət görüldü. Rusiya bu xəttin hazır və təhlükəsiz olması məsələsini müdafiyə edirdi və ilkin neftin bu xətt vasitəsilə dünya bazarlarına çıxmasına çalışırdı. Sonradan hətta Bakı-Tbilisi-Ceyhanın gerçəkləşməsinin gücləndiyi bir vaxtda Rusiyanın bu xətt üzərində israrla durduğunu da görürük. Birinci Rusiya-Çeçen müharibəsinin başlanması bu boru kəməri xəttinin güvənli olduğunu təhlükə altında qoydu. Lakin Rusiya neftin daşınma marşrutunda Türkiyəyə önəm verilməsinin qarşısını almaq üçün təşəbbüslərini gücləndirdi və Rusiya Federasiyası ilə Çeçenistan Dövlət Neft Şirkəti YUNKO arasında anlaşma imzaladı. ABƏŞ və Rusiyanın Transneft şirkəti arasında 16 fevral 1996-cı ildə imzalanan anlaşma ilə Bakı-Qroznı-Novorossiysk boru xəttiylə ilkin neftin daşınmasına qərar verilmişdir [11, 90]. Rusiya bu xəttin digər neft-qaz boru kəmərlərindən həm ucuz, həm də daha tez gerçəkləşəcəyi ideyasını müdafiə edirdi [10, 236].

Xəzər neftinin xarici bazarlara çatdırılmasında Rusiya variantına alternativ xətt-Bakı-Supsa oldu. Bu xəttin çəkilməsi RF-nın Çeçenistan subyektində qeyri-stabilliyin yaranması ilə aktiv müzakirə olunmağa başladı. Gürcüstan ərazisindən keçən bu neft boru xətti nefti Qara dəniz Samsun və Frakiya (Türkiyə), Burqas (Bolqarıstan), Odessa (Ukrayna) çatmaqla 850 km-dir. Onun ötürmə qabiliyyəti ildə 10 mln tondur.

Bakı-Supsa boru-kəmərinin yaradılması üçün aktiv fəaliyyətlər 1994-cü ildə Azərbaycanın paytaxtında Azəri-Çıraq və dəniz özüllü Günəşli yataqlarının birgə kəşfiyyatı və işlənməsi haqqında razılığın imzalanmasından sonra başladı.

Bütün siyasi risklərə baxmayaraq, 1996-cı ildə martın 8-də Azərbaycan Prezidenti Heydər Əliyev və Gürcüstan Prezidenti Eduard Şevardnadze Tiflisdə Bakı-Supsa neft kəmərinin çəkilməsi barədə razılığa gəldilər. "Əsrin müqaviləsi"ndə iştirak edən şirkətlərin qurduğu Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ), ARDNŞ və Gürcüstan hökuməti arasında bağlanmış 3 tərəfli müqavilə Azəri, Çıraq, Günəşli yataqlardan çıxan ilkin Azərbaycan neftinin Bakı-Supsa neft kəməri vasitəsi ilə nəqlini nəzərdə tuturdu [12]. Razılıq ilk 8 ildə neftin daşınmasında tariflərə baxılmaması şərtilə 30 illik imzalandı.

Qərb İxrac Boru Kəməri Xəzərin Azərbaycan sektorunda hasil edilən neftin Gürcüstandan keçməklə dünya bazarlarına nəqlini həyata keçirir. Xam neft Gürcüstanın Supsa terminalında tankerlərə yüklənərək Bosfor boğazından keçməklə Avropa bazarlarına yola salınır.

Uzunluğu 833 kilometr olan QİBK Səngəçal terminalından başlayaraq Gürcüstan sahilindəki Supsa terminalına qədər uzanır. Diametri 530 mm olan kəmər 1997-1998-ci illər ərzində tikilmişdir. Bu xətt üzrə boruların doldurulmasına 1998-ci ilin dekabrında başlanmış və 1999-cu ilin martına qədər davam etmişdir. Supsada ilk dəfə neft 1999-cu il aprelin 8-də gəmilərə yüklənmişdir. QİBK obyektlərinə 3-ü Azərbaycanda, 3-ü Gürcüstanda olmaqla 6 nasos stansiyası, 2 təzyiqazaltma stansiyası (hər ikisi Gürcüstandadır), 1 ərzinburaxma stansiyası (Azərbaycanda) aiddir. QİBK Supsada 4 rezervuara malikdir. Rezervuarların ümumi həcmi 1 milyon barreldir. Kəmərin gəmiyükləmə qabiliyyəti 600 000 barreldən 1 milyon barrelə qədərdir [13].

Bu marşrutun ən böyük üstünlüyü Azərbaycan neftinin təmiz halda "Azəri light" markası ilə dünya bazarına çıxarılmasıdır. Şübhəsiz ki, bu neftboru kəməri Bakı-Novorossiysk marşurutuna rəqib idi. Bununla yanası, kəmərin digər üstünlüyü neftin Supsaya Novorossiyskə nisbətən daha ucuz nəql olunmasıdır. Belə ki, neftin Novorossiyskə nəqlinin tonu 15,67, Supsaya nəqli isə 13,14 ABŞ dollarına başa gəlir. Qərb istiqamətində uzanan Bakı-Supsa neft kəmərinin uzunluğu 837 km, diametri 530 mm-dir. Bakı-Supsa kəmərinin isə düşməsi Cənub enerji dəhlizinin əsasını qoyub, Azərbaycan öz müstəqilliyi tarixində ilk dəfə neft nəqlində alternativ marşuruta malik olub [16]. 1997-ci ilin sonlarında Bakıda Bakı-Ceyhan neft boru kəmərinin tikintisi, Azərbaycan neftinin Qərb istiqamətində daşınması haqqında normativ-hüquqi sənədlər seriyasından 2 razılıq imzalandı.

I sənəd layihənin hüquqi və maliyyə məsələlərinin reallaşdırılması haqqında Azərbaycan höküməti ilə AMOK-un tərkibinə daxil olan 7 xarici neft şirkəti arasında, II sənəd isə sponsorlar qrupunun yaradılması haqqında ARDNŞ ilə AMOK-a daxil olan xarici şirkətlər arasında imzalandı [8, 118]. Gələcək boru kəmərinin uzunluğu 1730 km hesablanmışdır. Belə ki, marşurutun dağlıq ərazi hissələrini yan keçməsi nəzərdə tutulurdu, bu neftin vurulması üçün vacib olan nasos stansiyalarının sayının azalmasına imkan verəcəkdi. Layihənin rəsmi

qiymətləndirilməsi 2,4 mlrd dollar təşkil edir. Lakin ekspertlərin qiymətləndirmələrinə görə, bu rəqəm 3,5-4 mlrd dollara çata bilər. Bakı-Ceyhan neft boru kəmər layihəsinin bu qiyməti onun çətin dağlıq şərait olan relyefdə çəkilməsi ilə izah olunur.

İlk dəfə bu kəmərin əsas ixrac kəməri kimi çəkiləcəyi 26 aprel 1998-ci ildə Azərbaycan, Gürcüstan, və Türkiyə prezidentlərinin Trabzon görüşündə qətiləşib. Prezidentlər bəyan ediblər ki, əsas ixrac kəməri Bakı-Tbilisi-Ceyhan kəməri olacaq. 1998-ci ilin aprelində Türkiyənin Samsun şəhərində Türkiyə, Azərbaycan və Gürcüstan prezidentlərinin görüşü keçirildi. Bu görüşdə Bakı-Ceyhan boru kəməri layihəsinə siyasi dəstək haqda Deklarasiya imzalandı.

Bu dövrdə Ceyhan marşurutunun tərəfdarları (Azərbaycan, Türkiyə, ABŞ) daha əminliklə öz layihələrini surətləndirməyə başladılar. 28 oktyabr 1998-ci ildə onun reallaşdırılması üçün Ankara Deklarasiyası imzalandı. Mərasim Rusiyanın iştirakı olmadan keçirildi. 1999-cu ilin noyabrında isə ATƏT-in İstanbul sammitində ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan, Türkmənistan, Özbəkistan Bakı-Tbilisi-Ceyhan layihəsini təsdiqləyən Deklarasiyanı imzaladı. Bu hökümətlərarası razılığı ABŞ, Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri imzaladılar. Bu, əsas ixrac boru kəməri layihəsinin qısa müddətdə həyata keçirilməsi haqqında Bəyannamə idi.

Məhz 1999-cu il noyabrın 18-də, ATƏT-in İstanbul zirvə görüşündə Azərbaycan Respublikası, Gürcüstan, Türkiyə Cümhuriyyəti prezidentləri xam neftin Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəqli barədə hökümətlərarası müqaviləni imzalamaqları bu layihəsinin gerçəkləşdirilməsini labüd etdi [3].

Beləliklə, Azərbaycanın boru-kəmər strategiyasında bütün alternativ marşurutlar (Rusiya, İran və s.) ikinci plana keçdi.

Artıq vəziyyət konkret və aydın geosiyasi çərçivə cızmağa başladı: “boru cəmiyyəti”nə aid olan ABŞ, Türkiyə, Gürcüstan və Azərbaycanın siyasi və iqtisadi sahədə əməkdaşlığının genişləndirilməsi strategiyasının möhkəmləndirilməsi. 2001-ci ilin 11 iyununda Qazaxıstana səfər edən Stiven Men qeyd edirdi ki, “ABŞ administrasiyası Şərq-Qərb dəhlizini dəstəkləyir və Bakı-Ceyhan layihəsi həyata keçirəcəkdir.” O, burada qazax neftinin də Xəzərin energetikasında oynadığı rolu yüksək qiymətləndirdi.

2002-ci ilin avqust ayında Londonda kəmərin tikintisini və gələcək istismarını aparmaq üçün BTC Ko sirkəti yaradılmışdır. Həmin ilin sentyabr ayının 18-də Bakıda Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin, ABŞ-ın energetika nazirinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməli qoyulmuşdur. Boru kəmərinin inşasına 2003-cü ilin aprelində, neftlə doldurulmasına isə mayın 18-də başlandı. 25 may 2005-ci ildə kəmərin Azərbaycan ərazisindən keçən hissəsinin istifadəyə verilməsi mərasimi keçirilərək, Səngəçal terminalından boru xəttinə ilk neft vurulmuş, oktyabr

ayında isə kəmərin Gürcüstan hissəsi istifadəyə verilmişdir. Kəmərin Gürcüstan hissəsinə neft 2005-ci il avqustun 10-da, Türkiyə hissəsinə isə noyabrın 18-də , 28 may 2006-cı ildə isə Azərbaycan nefti Ceyhan limanına çatmışdır.

16 iyun 2006-cı ildə Qazaxıstanın paytaxtı Astana şəhərində Azərbaycan prezidenti İlham Əliyev və Qazaxıstan prezidenti Nursultan Nazarbayev "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında neftin Qazaxıstan Respublikasından Xəzər dənizi və Azərbaycan Respublikasının ərazisi ilə Bakı-Tbilisi-Ceyhan sistemi vasitəsilə beynəlxalq bazarlara nəql edilməsinə dəstək verilməsi və şərait yaradılması haqqında" müqavilə imzalamışlar. 4 iyun 2006-cı ildə Xəzər nefti ilə yüklənmiş ilk tanker Ceyhan limanından Avropaya yola salınmışdır. 13 iyul 2006-cı ildə isə Ceyhanda kəmərin təntənəli açılış mərasimi keçirilmişdir. Həmin günədək Ceyhan limanından 4,8 milyon barrel neft yüklənmiş 7 tanker dünya bazarlarına yola salınmışdır.

Kəmərin uzunluğu 1768 kilometrdir. Boru kəmərinin diametri 46/42/34 düymdür. Ötürmə qabiliyyəti gündə 1 milyon bareldir.

BTC boru kəmərinin obyektlərinə 2-si Azərbaycanda (Səngəçal daxil olmaqla), 2-si Gürcüstanda və 4-ü Türkiyədə olmaqla 8 nasos stansiyası, 3 (1-i Azərbaycanda, 2-si Türkiyədə) ərzinburaxma stansiyası daxildir [14].

Əsas ixrac boru kəməri yalnız kommunikasiya sistemi deyil, Cənubi Qafqazın qloballaşmasında strateji siyasətdir. "Bakı-Tbilisi-Ceyhan neft kəməri geosiyasi xarakter daşıyır və dünya proseslərinə təsir edəcəkdir"[5]. Bu kəmər bütün dünyanın energetika sahəsində yeni standartları cızdı [2, 419]. Bu, Azərbaycan Respublikasının yeni neft strategiyası idi. Beləliklə, Azərbaycanın neft strategiyası beynəlxalq enerji təhlükəsizliyinə yönəlmiş qlobal səylərin tam mərkəzində yer alır. Mövcud ixrac neft və qaz kəmərləri sisteminin diversifikasiya olunması Xəzəryanı ölkələrdə hasil olunan enerji daşıyıcılarının tranziti üçün sabit dəhliz kimi respublikamıza real imkanlar yaradır. Milli neft strategiyasının uğurlarının nəticəsi olaraq Azərbaycanın regionun lider dövləti, eləcə də regional və qlobal iqtisadi layihələrin aparıcı iştirakçılarından biri kimi tanınmasına şərait yaranmışdır.

## ƏDƏBİYYAT

*Azərbaycan dilində:*

1. **Əliyev H.Ə**. Müstəqilliyimiz əbədidir. 3-cü kitab. B., Azərnəşr, 1997.488 s
2. **Əliyev H.Ə**. Iki cilddə. 2-ci cild. Bakı: Turan NPB, 2013.-704 s.
3. **Heydər Əliyevin** Prezident sarayında respublika ictimaiyyəti nümayəndələri qarşısında ATƏT-in İstanbul zirvə görüşünün yekunlarına həsr olunmuş nitqi. "Xalq" qəz, 1999, 26 noyabr

4. **Müstəqillik yollarında,** "Azərbaycan" nəşriyyatı, B.,1997, 534 s.

***Rus dilində:***

5. **Алиев И.Г.** Гейдар Алиев оказался прав. Газ. «Бакинский рабочий», 2006, 1 август
6. **Алиев И.Г**. Каспийская нефть Азербайджана. М.:Известия, 2003, 712 с.
7. **Войтоловский Г., Косолапов Н.** Особенности геополитической ситуации Каспийском регионе// Европа и Россия: проблема южного направления. Средиземноморье - Черноморье - Каспий. -М.,1999.-с.307-323
8. **Жильцов С.С. Зонн И.С., Ушков А.М.** Геополитика Каспийского региона.-М.:Межд.отношения, 2003, -280 с.
9. **Кулиев Г.-**Трубопроводная стратегия Азербайджана: геополитическая реальность «трубы»/ http://www.ca-c.org/journal/2001/journal_rus/cac-03/03.kulru.shtml

***Türk dilində:***

10. **ABD'nin Güney Kafkasya politikası** (1991-2001) Ankara-2004 334 s.
11. **Osman Nuri Aras** Azerbaycan'ın Hazar Ekonomisi ve Stratejisi, Derin yayınları,2008, 298 s

***İnternet resursları:***

12. http://www.azerbaijans.com/content_1030_az.html
13. http://www.socar.az/socar/az/activities/transportation/baku-supsa-western-export-pipeline
14. http://www.socar.az/socar/az/activities/transportation/baku-tbilisi-ceyhan-btc-main-export-oil-pipeline
15. http://www.socar.az/socar/az/company/about-socar/oil-history-in-azerbaijan
16. Azərbaycan Neftinin Nəql Marşurutları (Bakı-Novorossiysk, Bakı-Supsa)"http://www.country.az/_Economy/_OilStrategy/oilStrategy_05_a.html, 25 iyun2010

**UOT 94 (479.24)**

# ŞƏRQ VƏ QƏRBİN DİALOQ MƏRKƏZİ: AZƏRBAYCANIN MULTİKULTURAL DƏYƏRLƏRİ

***A.Ə.Axundov, İ.Y.Əliyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

***Açar sözlər:*** *multikultural dəyərlər, tolerantlıq, adət-ənənələr, dini dəyərlər, fenomen*

Bu məqalədə Azərbaycanda multikulturalizmin hələ lap qədimdən mövcud olduğundan danışılır. Multikulturalizm nə qədər qədim təşəkkül tarixinə malik olsa da, onun tədqiqatına, araşdırılmasına ehtiyac vardır. Tarixin müxtəlif dövrlərində bu məsələyə münasibətin fərqli olduğunu qeyd edən müəllif dünyada Azərbaycan qədər tolerant bir ölkə olmadığını da diqqətə çatdırır.

## ЦЕНТР ДИАЛОГА МЕЖДУ ВОСТОКОМ И ЗАПАДОМ: МУЛЬТИКУЛЬТУРАЛЬНЫЕ ЦЕННОСТИ В АЗЕРБАЙДЖАНЕ

***А.А.Ахундов, И.Ю.Алиева***

***Ключевые слова:*** *мультикультуральные ценности, толерантность, традиции, религиозные ценности, феномен*

В статье говорится о том, что истоки мултикультурализма в Азербайджане, восходить к глубокой древности. Древность формирования мултикультурализма, диктует необходимость глубокого и всестороннего исследования это проблемы. Автор подчеркивал существование различных подходов к исследованию проблемы на определенных периодах истории, акцентирует внимание на том, что в мире нет стран находящийся высоком уровне толерантности как Азербайджане.

# THE CENTER EAST AND WEST OF THE DIALOGUE: THE MULTICULTURAL VALUES OF AZERBAIJAN

***A.A.Akhundov, İ.Y.Aliyeva***

***Keywords:*** *multicultural values, customs and traditions, spiritual values, tolerance, phenomenal*

In this article was talking that multiculturalism existed since ancient times in Azerbaijan. Even though multiculturalism may have the power to do so it needs for exploration and researching. Author noted that at the different times of history the attitude to this issue was different and there is not another country as tolerant as Azerbaijan.

*"Tolerantlıq, dözümlülük çox geniş anlayışdır. O həm insani münasibətlərin, həm insan cəmiyyətində gedən proseslərin, həm də dövlətlərarası, millətlərarası, dinlərarası münasibətlərin bir çox cəhətlərinə aiddir... O, təkcə dinlərin bir-birinə dözümlülüyü deyil, həm də bir-birinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərə dözümlülük deməkdir".*

Heydər Əliyev

Müasir dünyada bəşər övladı insanın yeganə yaşayış məkanı olan planeti qorumaq, öz mürəkkəbliyi və təlatümlüyü ilə fərqlənən qloballaşmanın problemlərini aradan qaldırmaq və həlli yollarını tapmaq üçün axtarır, arayır, ekoloji tarazlığı balanslaşdırmaq, davamlı inkişafı təmin etmək və dayanıqlılığa nail olmaq məqsədilə planlar cızır, layihələr həyata keçirir. Bu istiqamətdə Şərq və Qərbin fonunda təxirəsalınmaz tədbirlərə, prioritet məsələlərə yer verilir. Dünya ümumi məqsədə-planetin gələcəyini təmin etmək hədəfinə doğru irəliləyir.

Qərb dünyası nə qədər bədxah işlərə-müharibələrə, qanlı toqquşmalara, silahlı münaqişə ocaqlarının formalaşmasına cəhd etsə də, Şərq aləmi tolerantlığın, dinc yanaşı yaşamağın, sərhədləri aşmamağın, sülhün və dincliyin tərəfdarıdır. Birmənalı olaraq həm Qərb, həm də Şərq dünyası anlayır ki, bizim bir planetimiz var. Başqa gedəcək yerimiz yoxdur. Yəqin ki, bunu bütün dünyada başa düşənlər, planetin həyatı üçün narahatlıq keçirənlər var. Biz planetimizin insanlarının, bioloji aləminin məhvinə səbəb ola, Napoleonun, Hitlerin səhvlərini (Hitler XX yüzilliyin ortalarında planetin 50 milyondan çox sakininin məhvinə səbəb olmuşdu) təkrar edə bilmərik. Bizim tolerantlığımız, multikultural dəyərlərə tarixin dərin qatlarından gələn inamımız və hörmətimiz,

Hitlerə, Napoleona münasibətimiz, Şərq dünyasının fatehləri Çingiz xana, Əmir Teymura, Sultan Səlimə, Şah İsmayıl Xətaiyə və digər fenomenal şəxsiyyətlərə, dahilərə münasibətimiz onların qərb və ya şərqli olması ilə, xristian və ya müsəlman olması ilə dəyərləndirilməyib. Tarixin ən ilk dövrlərindən üzü bəri Azərbaycan müxtəlif mədəniyyətlərin qovuşuğunda öz ənənlərini yaşatmış, digər mədəniyyətlərlə də müştərək mədəniyyətin formalaşıb inkişaf etdirilməsinə öz töhfəsini vermişdir.

Xalqımız min illərdir ki, Qafqaz xalqları ilə ünsiyyət edir, mədəni əlaqələri bir-birinə qarşılıqlı şəkildə inteqrasiya edərək qovuşur və həm biz digər xalqlardan nümunə götürür, həm də bizim mədəni irsimiz digərləri üçün nümunə olur, onların maddi və mənəvi mədəniyyətinin formalaşmasına təsir edir. Bu sirr deyil ki, Azərbaycan torpağı həmişə müxtəlif mədəniyyətlərə quçaq açmış, müxtəlif etnoslar burada sərbəst olaraq öz mədəniyətlərini, adət-ənənələrini qoruyub saxlaya bilmişlər. Bu mənada ölkəmiz həmişə multi-kultural dövlət səviyyəsində öz mövqeyini bu günə qədər də qoruyub sax-lamışdır. XIV əsrdə qeyd olunmuş bir fakta diqqət edək: "...bu dövrdə əsas dövlət sənədləri 3 dildə-ərəb, fars və türk dillərində tərtib edilir və hər xalqa öz dilində göndərilirdi" [1]. Bu bir fakt olaraq qarşılıqlı münasibətlərin əks olunmasında, multikulturalizmin tarixi köklərinin təsdiqində böyük əhəmiyyət daşıyan dəlildir. Araşdırma aparsaq əmin olarıq ki, başqa xalqların tarixində bu və ya buna bənzər faktın olması qeyri-mümkündür. Tolerantlıq və ya multikulturallıq Azərbaycan xalqının qanında-canında, tarixin dərin qatlarından gələn və davamlı olaraq nəsillərə ötürülən əxlaqında, ailə institutlarında, mənəviyyatında və mədəniyyətindədir. Bu səbəbdəndir ki, bəzən qoynumuzda yer verdiyimiz, qucaq açdığımız digər xalqlar buranı vətən bilmiş, hətta o dərəcədə unutqan olmuşlar ki, doğma varımızı, mülkümüzü, mədəni irsimizi, musiqimizi, milli mətbəximizi özəlləşdirib, "bizimkidir" deməkdən belə çəkinməmişlər.

Tarixin səhifələrində Azərbaycan ərazisində müxtəlif dövlətlər formalaşmışdır. Söz yox ki, bu dövlətlərin tərkibində müxtəlif tayfa və etnik qruplar da olmuşlar. Ağqoyunlu ittifaqına daxil olmuş qəbilə və etnik qruplar da Qaraqoyunlu tayfaları kimi oğuz mənşəlidir [2]. Azərbaycan tarixinin XV yüzilliyinin multikultural dəyərləri Ağqoyunlu hökmdarı Uzun Həsənin və nəvəsi Gödək Əhmədin islahatları daxilində çox uğurla aparılmışdır. Bu islahatlarda ədalət qanunları xüsusi yer tutmuşdu. Vəzir və divan məmurlarına əmr olunmuşdu ki, xalqı incitməsinlər. Osmanlı hökmdarları da öz izdivac-larında qeyri-millətdən olan xanımlara yer vermişlər. Xüsusilə, Sultan Süleyman Qanuninin nikahlı arvadı Hürrəm Sultan böyük rəğbət qazanmış, idarəçilikdə rol oynamış, Sultan üzərində geniş təsirə malik olmuşdur.

Tarixi məlumatlarda Ağqoyunlu hökmdarı Uzun Həsənin əcdadları içində Trabzon hökmdarının qızı ilə evlənən Qutlu bəydən danışılır. Həm də bu

əhvalat "Dədə Qorqud" dastanlarında Qanturalının Trabzon təkurunun qızı ilə evlənməsi hekayəti ilə səsləşir. Uzun Həsənin anası Sara xatunun dövlət işlərində iştirakı da tarixin silinməyən faktlarıdır. Uzun Həsən dövlət siyasətində yaddelli qadınlarla izdivac üsulundan istifadə edərək Trapezund (Trabzon) hökmdarının qızı ilə evlənmişdir.

Tariximizin XVI yüzilliyi də multikultural dəyərlər baxımdan diqqəti cəlb edir. Azərbaycan Səfəvilər dövlətinin yaranması uğrunda mübarizədə İsmayılın qoşununa şamlı, bayburtlu, qaradağlı, zülqədər, ərəşli, ustaclı, qaramanlı, rumlu, təkəli, əfşar, qacar, varsaq kimi türk tayfaları ilə bərabər digər xalqlara məxsus tayfalardan olan döyüşçülər də daxil idi. Bu qədər fərqli qrupları birləşdirib idarə etmək məhz multikultural dəyərlərə hörmət edən insanlara məxsusdur. Səfəvilər sənət adamlarına hörmətlə yanaşır, qayğı göstərir, şeiri, şairi himayə edirdilər. Amma bir həqiqəti də danmaq olmaz ki, multikultural dəyərlərin möhkəmləndirilməsi, tolerantlığın mövqe qazanması dini dəyərlərə də əsaslanmışdır.

Azərbaycan ərazisində müxtəlif dinlərdən olan insanlar bərabər şəkildə yaşamışlar. Tarixən bütün cəmiyyətlərdə dinin rolu yüksək olmuşdur. Çünki din bir növ həm də davranışlar toplusudur və insanın hərəkətlərinin qaydaya salınmasına səbəb olur. Din hüquq, əxlaq və digər sosial normalar kimi insanların davranışlarını tənzim edir və mədəniyyətin bir hissəsi kimi unikallıq daşıyır [1].

Mədəni müxtəlifliyin inikası olan çoxmədəniyyətlilik elə multikulturalizmin əsasını təşkil edən amil kimi rəngarəngliyə, müxtəlifliyə, aboregen xalqların milli dəyərlərinə hörmətlə yanaşmağa xidmət edir. Məsələn, Osmanlı İmperiyası oz əsarətində saxladığı xalqların, etnik qrupların mədəniyyətinə diqqət etmiş, öz siyasətində bu müxtəlifliyin qorunmsına, onların dilinin və dininin, milli dəyərlərinin saxlanmasına çalışmışdır. Amma Rusiyanın tərkibində olan Azərbaycanın və digər xalqların mədəniyyəti, dili, dini dəyərləri 70 il boyunca sovet mədəniyyəti kimi təlqin olunmuş, az qala vahid sovet xalqı ideyası bütün digər xalqları öz ağuşuna almışdır. Bu isə tarixi ədalətsizlik olaraq böyük imperiyaların öz əsarətindəki xalqlara təzyiqindən başqa bir şey deyildir.

Multikulturalizm mühüm tarixi fenomen olaraq hələ də tədqiqatlar, araşdırmalar tələb edur. Tarixi köçlər, əhalinin yerdəyişməsi, fatehlər zamanında insanların sürgün edilməsi, məqsədli izdivaclar, sənətkarların zorla başqa ölkələrə aparılması, zaval göndərmə, girov götürmə kimi tarixi faktlar, işğallar, dinc məqsədlərlə aparılan yerdəyişmələr tolerantlığa, mədəniyyətlərin qovuşmasına səbəb olub. Azərbaycanda da bunun qədim tarixi köklərinin araşdırılmasına ehtiyac vardır.

Bu gün Müstəqil Azərbaycan Respublikası multikultiral ənənələri ilə dünyaya nümunədir desək, səhv etmərik. Bu məqamda Azərbaycanın Birinci

vitse-prezidenti, Heydər Əliyev fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın qeyd etdiyi kimi, Azərbaycanda tolerantlığın, dözümlülüyün, dünya mədəniyyətlərinin rəngarəgliyinə hörmətin tarixi qədimdir və yalnız dialoq və dözümlülük vasitəsi ilə insanları bir araya gətirmək mümkündür. Multikulturalizmi bir dəyər sisteminə çevirmiş, ölkəmizdə çoxmədəniyyətliliyin inkişaf istiqamətində aparılmış məqsədyönlü siyasətin nəticəsində bu gün müxtəlif mədəniyyətlərin təmsilçiləri Azərbaycanın siyasi, iqtisadi və mədəni elitasında  təmsil olunur, onlar ölkənin həyatında əsaslı dəyişikliklər və inkişaf prosesində yaxından iştirak edirlər.

Azərbaycanda mövcud olan ictimai sabitlik, vətəndaş həmrəyliyi və etnik dini tolerantlıq milli siyasətin məntiqi nəticəsidir. Uzun illərdir ki, Azərbaycan ayrı-ayrı dinlərə, irqlərə və dillərə  məxsus insanların azad, sərbəst və heç bir maneə ilə rastlaşmadan yaşadığı bir dövlət kimi tanınır. Məlum olduğu kimi, ölkə prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 2016-cı il Azərbaycan Respublikasında “Multikultiralizm ili” elan edilmişdir. Sərəncamda deyilir: “Tarixi İpək yolunda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mənəvi rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Ölkəmizdə multikultiralizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir. Bakı Beynəlxalq Multikultiralizm Mərkəzinin yaradılması müasir dövrdə respublikamızda gerçəkləşdirilən siyasətin tolerantlıq prinsiplərinə bu gün də sadiq qalmasının bariz nümunəsidir” [3].

Ölkəmiz üçün çox böyük tarixi əhəmiyyəti olan “Multikulturalizm ili” Azərbaycan tolerantlığını bütün dünyaya bəyan etməklə multikulturalizm diyarı olaraq Azərbaycanın humanitar və mədəniyyət sahələrində qlobal əməkdaşlıq üçün əlverişli məkan olduğunu da gündəmə gətirmişdir. Azərbaycan mədəniyyətlərarası dialoq mərkəzinə çevrilmişdir. Bu isə heç də adi bir təsadüf deyil, ölkəmizin dünya arenasına yeni bir siyasi və ideoloji modellə çıxışıdır. Artıq beynəlxalq ictimaiyyət də bunu qəbul edir, dəstəkləyir, Azərbaycan dünya sivilizasiyalarının qovuşmasının və multikulturalizmin nəzərə çarpan nümunəsi kimi dünyada tanınır.

Qanunlarımızda da dinlərə hörmət və dini etiqad azadlığı öz əksini tapıb. Məsələn, hələ 1992-ci ildə “Dini Etiqad Azadlığı” haqqında qanun qəbul edilib.  Ümumilli liderimiz və ulu öndərimiz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra sözügedən qanuna müəyyən əlavə və dəyişikliklər edilib.  Sadaladıqlarımız bir daha sübut edir ki, kifayət qədər demokratik, kifayət qədər başqa xalqlara, başqa dinlərə inanc bəsləyənlərə sayğı ilə yanaşan Azərbaycan artıq bütün dünyada nümunəvi dövlət kimi qəbul olunur. Azərbaycan xalqı həmişə bölgədə dostluğun, qardaşlığın möhkəmlən-

dirilməsinə, insanlar arasında milli-dini mənsubiyyətdən asılı olmayaraq sülh və əmin-amanlıq şəraitinin yaradılmasıa misilsiz tarixi töhfələr verib.

Məlum olduğu kimi, ölkəmizdəki mövcud multikultiralizmi qiymətləndirən Moskva və bütün Rusiyanın patriarxı II Aleksi hələ 2001-ci ildə Bakıda Heydər Əliyevə müqəddəs Moskva Knyazı Daniel ordenini təqdim edərkən demişdi: "Ölkənizdəki tolerantlıq və dini dözümlülük başqa dövlətlər üçün nümunədir". Roma Papası II İohan Pavelin xristianlığın katolik məzhəbinə etiqad edən ölkələrin israrlı dəvətlərinə rəğmən, məhz əhalisinin cəmi 0,5 faizini katoloklərin təşkil etdiyi Azərbaycana səfər etməsi isə azsaylı millət və onların etiqad etdiyi dinlərə də sayğının, xoş münasibətin dönməzliyindən xəbər verir. Burada qeyd olunası vacib məqamlardan biri də Azərbaycanın mədəni irsini Vatikanda nümayiş etdirən ilk islam ölkəsi olmasıdır. Azərbaycandakı nümunəvi dini tolerantlığa heyranlığını gizlətməyən İSESCO-nun baş direktoru Əbdüləziz bin Osman isə Bakının İslam Mədəniyyətinin Paytaxtı elan olunması ilə əlaqədar deyib: "İSESCO bütün dünyaya çatdırmalıdır ki, siz necə də qədim və zəngin mədəniyyətə sahibsiniz. Ölkənizlə əməkdaşlıq sahəsində imzalanan sənədlərin həyata keçirilməsi üçün biz öz tərəfimizdən hər tələbi yerinə yetirəcəyik və bu əməkdaşlıq digər üzv dövlətlər üçün nümunə olacaqdır" [3].

Və düşünürük ki, bütün dünyada dini, milli, irqi ayrıseçkiliyi, çoxkonfensiallığı, zorakılığı, terroru, aradan qaldırmaq gücünə malik multikulturalizmin Azərbaycan modeli siyasi və ideoloji aspektdən problemlər yaşayan Qərbin Şərq ilə nümunəvi dialoqunu təşkil edə biləcək ortaq dəyərləri ilə cəmiyyətə və insanlığa, bəşəriyyətə yeni yaşam tərzi, yeni münasibətlər, yeni nəfəs, yeni ab-hava gətirəcəkdir.

## ƏDƏBİYYAT

1.Aqşin Quliyev // Azərbaycanda multikulturalizmin tarixi-ənənəvi köklərinin siyasi-hüquqi aspektləri.Bakı, 2016. səh.19, 31

2. Azərbaycan tarixi // III cild. Bakı-Elm-1999, səh. 87

3. "Respublika" qəzeti // "Müstəqil Azərbaycan multikultiralizm, tolerantlıq, çoxkonfessiyalılıq ənənələrilə dünyaya nümunədir" 6 mart 2016-cı il

**UOT 908(479.24)**

# XOCALI-GƏDƏBƏY ABİDƏLƏRİNDƏ AZƏRBAYCANIN ERKƏN ŞƏHƏR MƏDƏNIYYƏTİNİN İZLƏRİ

***V.H.Əliyev***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

***Açar sözlər:*** *Xocalı-Gədəbəy mədəniyyəti, Tunc və Erkən dəmir dövrü, yarımköçəri tayfalar, Qarabağ*

Azərbaycanın qərb regionlarında e.ə.XV-VII əsrlərdə yaşamış qədim türk tayfalarının güclü etnik birliyi özlərinə məxsus yüksək mədəniyyət yaratmışlar. Arxeoloji ədəbiyyatda Xocalı-Gədəbəy mədəniyyəti kimi tanınan bu mədəniyyətə aid arxeoloji materiallar ilk dəfə Xocalı və Gədəbəy ərazilərində rast gəlinmişdir. Xocalı-Gədəbəy mədəniyyəti Cənubi Qafqazın şimali və şimal-şərq yaylaqlarını və ona bitişik dağ ətəyi, düzənlik ərazilərdə Kür çayına tökülən çayların vadilərini əhatə edir.

## EARLY URBAN CULTURAL TRACES OF AZERBAIJAN IN KHOJALY-GADABAY MONUMENTS

***V.H.Aliyev***

***Keywords:*** *Khojaly-Gadabay culture, Bronze and Early Iron Age, semicircle tribes, Karabakh*

In the XV-VII b.c. strong ethnic community of ancient Turkic tribes created their own unity. For the first time, archeological materials related to this culture, known as Khojali-Gadabay culture in archeological literature was encountered Khojali and Gadabay regions. Khojali-Gadabay culture covers the northern and north-eastern slopes of the South Caucasus and adjacent mountain foothills, valleys of rivers flowing into the Kura River in the plains.

Tarixi ədəbiyyatda Xocalı-Gədəbəy mədəniyyəti Gəncə-Qarabağ, Mərkəzi Qafqaz mədəniyyəti adları ilə də qeyd olunur. Bu mədəniyyətə aid abidələr Qarabağ və Gəncəçay vadisində çoxluq təşkil edir. Onun yayılma arealı-əhatə coğrafiyası çox genişdir. Xocalı-Gədəbəy mədəniyyəti materialları (keramika, tunc məmulatı) Mil düzü, Abşeron - kurqan abidələrində, Qərbi

Azərbaycan (Ermənistan Respublikası), Araz çayı vadisi, həmçinin Gürcüstan abidələrində də aşkar olunmuşdur. Mədəniyyətin adının yarandığı Xocalı-Gədəbəy əraziləri ilə bağlı olması dəqiq elmi qaynaqlara əsaslanır.

Cənubi Qafqaz yaylaları şimaldan Şahdağ düzənliyi, dağ silsilələri ilə, şərqdən isə Cənubi Azərbaycanın Qarabağ yaylası ilə əhatələnib. Xocalı-Gədəbəy mədəniyyəti abidələri əvvəllər düzənlik ərazidə çoxlu məskən yaratmış qədim oturaq əhali ilə köçəri maldarlıqla məşğul olan yeni əhali axınlarının tədricən düzən ərazidə məskunlaşan tayfalarla qarışması nəticəsində formalaşmış türk mənşəli əhaliyə məxsusdur.

Yarımköçəri maldar tayfalar payız fəslində yay otlaqlarından dağətəyi və düzən ərazilərə qışlaqlara keçərək çay vadilərində daimi yaşayan, əsasən əkinçiliklə və sənətkarlıqla məşğul olan əhali ilə qonşuluqda məskunlaşmışlar. Onlar qışlaqlarda kiçik məskənlərdə yaşamışlar. Bu ərazilərdə yaşayan oturaq əhali ilə müdabilə apararaq lazım olan taxıl, sənətkarlıq məhsulları (keramika, metal və s. məmulatları) əldə etmişlər. Dağətəyi ərazilərdəki yaşayış yerlərində yarımköçəri tayfalar içərisində metal emalı ilə məşğul olan (dəmirçilər) sənətkarlar meydana gəlmişdir.

Dağlıq və dağətəyi ərazilərin təbii şəraitinin yaxınlığı Son Tunc dövründə əkinçi-maldar tayfalarda mədəniyyət ümumiliyinin yaranması və formalaşmasına imkan verdi. Dağlıq və dağətəyi ərazilərdə əhali köçmə maldarlıqla məşğul olduğundan, mədəniyyətin formalaşması düzəndəki aşağı vadilərlə dağətəyi əraziləri əhatə edən təbii şəraitdə məskunlaşan istehsalçı əkinçi –maldar əhali arasında mümkün idi. Qərbi Azərbaycan və Gürcüstanın dağlıq ərazilərində aşkar olunan həmin abidələr Azərbaycanda yaranmış mədəniyyət ocağının abidələri ilə bağlıdırlar. Aşkar olunan abidələr bu mədəniyyətin əsas yaranma arealından ayrılıqda araşdırıla bilməz.

Xocalı-Gədəbəy mədəniyyətinin öyrənilməsinə XIX əsrin 50-80-cı illərində aşkar edilmiş qəbir abidələri və arxeoloji materiallar əsasında başlanmışdır. Arxeoloji qazıntı işləri Gəncə, Xanlar, Gədəbəy, Şuşa, Xocalıda E.Resler, Q.Rozendorf, V.Belk, V.Skinder və A.İvanovski tərəfindən aparılmışdır.

XX əsrin 20-30-cu illərində “Azərbaycanı tədqiq edən və öyrənən cəmiyyət” “Təbiəti, incəsənəti və qədim abidələri mühafizə edən“ Azərbaycan Komitəsi”, Azərbaycan Tarixi muzeyi SSRİ EA-Azərbaycan filialı, sonra Azərbaycan SSR EA tərəfindən qədim Azərbaycanın tarixi xəritəsini yaratmaq üçün müxtəlif xarakterli abidələrin tədqiqi ilə məşğul olmuşlar. Bu tədqiqatlar İ.İ.Meşşaninov, D.Şərifov, B.Q.Latının, T.S.Passek [7, 15-23], İ.M.Cəfərzadə [1, 37-43] və Y.İ.Hummel tərəfindən aparılmışdır. Qədim metallurgiya məsələlərini və Azərbaycanın arxeoloji cəhətdən öyrənilməsini əks etdirən ümumiləşdirici tədqiqat işləri (T.S.Passek və B.A.Latının, A.A.İessen) yazılmışdır.

XX əsrin 40-70-ci illərində Xocalı-Gədəbəy mədəniyyətinə aid qəbir abidələrində, yaşayış yerlərində arxeoloji tədqiqatlar (İ.M.Cəfərzadə [2, 15-26], H.P.Kəsəmənli, V.H.Əliyev [12], H.F.Cəfərov [11], Q.Aslanov, M.Hüseynova [8] və b. tərəfindən aparılmışdır.

Arxeoloji qazıntılar nəticəsində Xocalı-Gədəbəy mədəniyyəti yaşayış yerlərində sitayiş yerləri, məbədlər, sənətkarlıq emalatxanaları aşkar olunmuşdur. Azərbaycanın Son Tunc və İlk Dəmir dövrü abidələrinə həsr olunan monoqrafik tədqiqatlarda Xocalı-Gədəbəy mədəniyyətinin arealı, lokal qurumları xronologiyası, təsərrüfat alətləri, silah növlərinin inkişafı və digər məsələlər elmi səviyyədə şərh edilmişdir.

Xocalı-Gədəbəy mədəniyyəti meydana gəldiyi Kür ətrafi düzənlik və yaxındakı dağlıq ərazini əhatə edən arealın adını daşıyır. Burada ideal ekoloji mühitdə yarımköçəri tayfalar yaşamışlar [5].

Yerli oturaq əhali ilə yarımköçəri əhalinin birgə əlaqələri nəticəsində meydana gələn Xocalı-Gədəbəy mədəniyyəti mərkəzləri Gədəbəy mis emalı mərkəzinə yaxınlığı ilə xarakterizə olunur.

Düzənlik ərazinin qəbir abidələrində, üzəri ağac və daşla örtülmüş kurqan və torpaq qəbirlərdə silahlara, metal məmulatlarına az miqdarda təsadüf edilir. Burada yarımköçəri əhaliyə aid daş qutu qəbirlərə rast gəlinir. Həmin qəbirlərə az miqdarda naxışsız gil qablar qoyulsa da, onlar çoxlu silah və at ləvazimatı ilə zəngindir. Bu tayfaların daha əhəmiyyətli maddi mədəniyyət abidələri Kür çayının sağ sahilində, Şəmkir rayonundakı kurqan qəbirlərində aşkar olunmuşdur. Həmin abidələrdən əldə edilən bədii tərtibatlı gil qabların üzəri 2-4 dişli daraqvari alətlə, gözəl naxışlarla bəzədilmişdir. Xocalı-Gədəbəy mədəniyyəti keramika məmulatları üzərində müxtəlif mövzulu, kompazisiyalı incəsənət nümunələri yüksək zövqlə işlənmişdir.

Gədəbəy və Qarabağın dağlıq hissələrində daş qutu qəbirlərdən tapılan geniş oturacaqlı qara cilalı naxışlı qablar dulus çarxında hazırlanmışdır. Heyvan fiqurlu, zoomorf qablar tək-təkdir. Bu qəbir abidələri tunc əşyalar və silahlarla zəngindir. Arxeoloji tədqiqatlar nəticəsində Xocalı-Gədəbəy mədəniyyətinin xronoloji çərçivəsi müəyyənləşdirilmişdir:

-e.ə. XV əsr-Orta Tuncdan Son Tunca keçid dövrü;

-e.ə. XIV-XIII əsrlər-Son Tuncun erkən dövrü (başlanğıcı);

-e.ə. XII-XI əsrlər-dəmirin meydana gəlməsi;

-e.ə. X-IX əsrlər-Son Tunc dövrünün son mərhələsi, dəmir alətlərdən istifadənin başlanması;

-e.ə. VIII-VII əsrlər-dəmirdən geniş istifadə dövrü;

Dəmirin Azərbaycanda ilk istifadəsi məsələsi Azərbaycanın cənubla əlaqələri ilə bağlıdır. Bu dövr e.ə. XII əsrə aid edilir.

Xocalı-Gədəbəy mədəniyyətinin özünəməxsus xüsusiyyətləri kurqan altı dəfn abidələrinin tikinti formalarında izlənilir. Buraya düzbucaq şəkilli örtüksüz

torpaq quyular, daşla qapadılmış, tirlərlə örtülmüş ayaqlı ağac örtüklü, tirli divarlardan ibarət kameralı daş qutu qəbirlər, bir kurqan altında bir və bir neçə dəfn kameraları (biri əsasdır) abidələr daxildir. Dəfn kameralarının forması ilə dəfn adətləri və keramika bütövlükdə daha aydın təsəvvür yaradır ki, bu da abidələri qruplaşdırmağa, sistemləşdirməyə imkan verir. Üstü daş plitə və ağaclarla örtülmüş kurqanaltı quyu qəbri də maraqlı dəfn adətini əks etdirir. Bu dəfn abidələrinin düzən ərazilərdə aşkar olunan keramika məmulatı oturaq əhalinin gil qabları ilə oxşardır.

Əsas və köməkçi-müşayiətçi dəfnləri birləşdirən, böyük dəfn kamerası olan kurqanların kamerlarının divarlarına ağaclar basdırılmış, üstü dayaqlar (dirəklər) vasitəsilə tirlərlə örtülmüşdür. Kurqanaltı daş qutu qəbirlərin üzəri isə daş lövhələrlə örtülmüşdür. Belə kurqanlar dəfn adətinə, əşyalarına, keramikasına görə dağlıq ərazinin dəfnləri ilə böyük oxşarlığa malikdir. Burada çox heyvan, o cümlədən at dəfn edilmişdir. Xeyli metal əşyalar, əsasən silah var. Keramika yüksək bədii tərtibatlı, qulplu və novçalı-lüləklidir. Belə qabların həm düzən, həm dağlıq ərazilərdə tapılması onların yarımköçəri tayfalara məxsus olduğunu göstərir.

Son Tunc-İlk Dəmir dövrü abidələrinin sistemləşdirilməsi və qruplaşdırılması adət-ənənələrin daha çox seçlldiyi abidələrin əsasında aparılmışdır. Orta tunc dövrü kurqanlarının təpəsinin daşla, qəbirlərin üzərinin ağacla örtülməsi, kamera üzərinə qırmızı oxra səpilməsi, yanıq qalıqları, mərhumun külünün gil qablarda-küpələrdə dəfn olunması adəti Qarabağda Axmaxi və Şəmkirdə Qaracəmirli Orta Tunc dövrü kurqanlarında izlənilərək müəyyən edilmişdir.

Qəbir kamerası daxilində dəfn üçün hündür kürsü tikilməsi adəti Orta Tunc dövrünə aid Qarabağda Dovşanlı və Xocalıda 1№-li kurqanda aşkar edilmişdir. Iribuynuzlu heyvan cəmdəklərinin, heyvan kəllələrinin və müxtəlif hissələrinin Son Tunc dövrü varlı qəbirlərinə qoyulması adəti hələ Orta Tunc dövrünün sonlarında meydana gəlmişdir. Belə dəfn adəti Kürün sağ sahilində Orta Tunc dövrünə aid kurqanlarda izlənmişdir. Çöllük zonanın varlılara mənsub kurqanlarında-Paşatəpə, Mingəçevir, Qarabağın Dovşanlı, Axmaxi, Balluka 1 və 2 №-li Xanlar, 2№-li Xocalı kurqanı, Gəncə ərazisindəki 28№-li kurqanda atın dəfn olunması adəti də Orta Tunc dövrü dəfn adətinin davamıdır. Dəfn olunan atlardan minik vasitəsi kimi yox, qoşqu vasitəsi kimi istifadə edilmişdir. Yalnız 28№-li kurqanda dəfn olunan at minik atıdır. Burada mərhum minik atı üzərində dəfn olunub. Kurqandan aşkar edilmiş xəncər göstərir ki, bu dəfn abidəsi nisbətən sonrakı dövrlərə aiddir. Bütün qəbirlərdən döyüş arabalarına aid olan qoşqu ləvazimatları, tunc əşyalar tapılıb. Nisbətən qədim əşyalar Kür çayının sağ sahil kurqanlarından əldə edilmişdir.

Xocalı-Gədəbəy mədəniyyətinin Azərbaycan ərazisində yaşamış qədim türk nəsillərinə mənsubiyyətini sübut edən mühüm və inandırıcı maddi mənbələrdən biri cızma ornamentli ağ inkrustasiyalı keramika məmulatlarıdır.

Biz ilk dəfə Azərbaycanda cızma naxışların bədii tərtibatlı keramika məmulatı istehsalında ağ pasta ilə inkrustasiya edilməsi texnikasının Orta Tunc dövründə Naxçıvanın II Kültəpə və Qarabağın Üzərliktəpə qədim şəhər mərkəzində dulusçu sənətkarlar tərəfindən tətbiq olunduğunu, inkrustasiya mədəniyyətinin Naxçıvan boyalı qablar mədəniyyətinin əsasında meydana gəldiyini müəyyən etmişik. Son Tunc dövrü Xocalı dulusçuluq mədəniyyəti məhz bu xüsusiyyəti ilə səciyyələnir.

Ağ pasta ilə inkrustasiyalı keramika Orta Tunc dövrü kurqanlarından aşkar olunmuşdur. Xocalı-Gədəbəy mədəniyyətinin ilk mərhələsinə - e.ə.XV əsrə aid abidələrdən tapılan ağ instruksiyalı bədii tərtibatlı keramika Şəmkirin Qaraçəmirli kurqanının Orta Tunc dövrünə aid keramikası ilə eynidir. Şəmkirin Orta Tunc dövrünün əvvəllərinə aid abidələrindən tapılan keramika heyvan təsvirləri, həyat ağacı, xaç şəkilli çərxifələk və həndəsi naxışlarla bəzədilmişdir.

Xocalı-Gədəbəy mədəniyyəti yarımköçəri maldar tayfaların oturaq əkinçi əhalisi ilə qarşılıqlı sosial-iqtisadi təminat əlaqələri nəticəsində tədricən formalaşmışdır.

Xocalı-Gədəbəy mədəniyyətinin qəbir abidələri özünəməxsus keramika nümunələri ilə geniş ərazili Cənubi Qafqaz mədəniyyətindən fərqlənir. Bu, Xocalı ərazisində müstəqil arxeoloji mədəniyyətin yarandığını söyləməyə imkan verir. Bu mədəniyyət Kür çayı ətrafındakı əkinçi və maldar tayfaların mədəni inkişafı əsasında Orta Tunc dövrünün son inkişaf mərhələsində təkamül tapmışdır. Kür çayının orta axarındakı dağətəyi əhali ilə əlaqələr vahid əkinçi-maldar əhaliyə məxsus mədəniyyətin formalaşmasına səbəb olmuşdur. Xocalı-Gədəbəy mədəniyyətinin dağlıq ərazilərdəki qəbir abidələrinin materialları-keramika, metal məmulatı və s. dağətəyi və düzənlik ərazinin əşyaları ilə oxşardır. Qəbir abidələrinin forması və tikinti xüsusiyyətlərindəki fərqli cəhətlər isə yerli tikinti materialları və təbii şəraitin müxtəlifliyi ilə bağlıdır. Dağlıq zonaların qəbir abidələrinin kameralarında ağac tikililərin olmaması burada Alp yaylaqlarında meşələrin yoxluğu ilə bağlıdır. Bu qəbir abidələri iri daş bloklar və lövhələrlə qurulmuşdur. Kurqanın torpaq örtüyünün ətrafını əhatə edən iri daşlar yağıntılar zamanı torpağın yuyulub yayılmasının qarşısını almışdır. Maili relyefli ərazilərdə, yamaclarda yerləşən qəbir abidələrinin hamısının ətrafı belə dairəvi daş qurğu ilə əhatələnmişdir. Kurqan örtüyünün çökək tərəfində daha böyük həcmli daşlardan istifadə edilmişdir. Dağlıq ərazinin kəskin iqlim şəraitinə uyğun olaraq yaşayış və heyvanlar üçün olan tikintiləri daha möhtəşəm qaya daşlarından qurulmuşdur. Bu abidələr siklopik tikintilər adlanır.

Xocalı-Gədəbəy mədəniyyəti üçün səciyyəvi olan tunc əşyaların formaca bütün Cənubi Qafqazın həmdövr tunc məmulatı ilə eyniliyi

metallurgiya bazasının ümumiliyi ilə bağlıdır. Məhz həmin baza ətrafında yerləşən tayfaların metal üzərində işləyən sənətkarları tunc əşyaları hazırlamaqda ixtisaslaşmışlar [9].

Son Tunc və Erkən Dəmir dövründə Xocalı-Gədəbəy mədəniyyətinin meydana gəldiyi areal Kür çayının orta axarının vadisi, sağ və sol sahilboyu dağətəyi əraziləri əhatə edir. Dağlıq, dağətəyi və düzənlik əraziləri birləşdirən bu Xocalı regionu yarımköçəri yaylaq-qışlaq maldarlıq təsərrüfatının təkamülü üçün əhəmiyyətli təbii ekoloji mühitə malikdir.

Dağətəyi ərazinin düzənliklə birləşdiyi yerlərdə əhali sıx məskunlaşmışdır. Maldar tayfalar çoxsaylı olmuşlar. Onların qəbir abidələri həm dağlıq ərazidə, həm də düzən ərazilərdə qışlaqlarda yerləşir. Daha qüdrətli və varlı maldar tayfalar hərbi yürüşlər edərək otlaq sahələri zəbt etmişlər. Onların məxsus abidələrdəki silahların çoxluğu bunu sübut edir. Düzənlik ərazilərdəki qəbir abidələrində silahlar nisbətən azdır. Dağlıq və dağətəyi yerlərin həm varlı, həm də yoxsul tayfa üzvlərinin qəbir abidələrində silahların olması bütün tayfa üzvlərinin hərbi yürüşlərdə iştirak etdiyini göstərir. Onlar yaylaq-qışlaq maldarlığı ilə məşğul olmuş, yarımköçəri həyat tərzi yaşamışlar. Dağlıq və düzən ərazilərin etno-mədəni özünəməxsusluğu Dovşanlı və Axmaxi dəfn abidələri əsasında izlənmişdir. Burada əyan və tayfanın adi üzvlərinin dəfn edildiyi abidələrdə silahlar çoxdur, lakin onlar dəfn adətinə və əmlakın-əşyaların miqdarına görə fərqlənirlər.

Bu dövrdə artıq cəmiyyətdə sosial və sinfi bərabərsizlik mövcud olmuş, tayfalar arasında ayrı-ayrı təsərrüfat formasına görə ixtisaslaşma tam formalaşmışdır. Belə sosial-ictimai tərəqqi, müxtəlif dəfn adətləri, qəbir abidələrinin tikiliş formalarının müxtəlifliyi və keramika məmulatının fərqlənməsində görünür.

Kür çayının orta axarı boyunca, onun qolları vadilərindəki ekoloji təbii mühit Alp meşələri ilə örtülü dağları, dağətəyi ərazi ilə əhatələnən düzənliklər yarımköçəri maldar tayfaların yaşayışı üçün əhəmiyyətli şərait yaratmışdır. Orta Tunc dövrünə aid qəbir abidələrində at sümüklərinin aşkarlamansı göstərir ki, əhalinin bir hissəsi köçəri təsərrüfata daha erkən keçmiş, digər hissəsi isə düzən ərazilərdə oturaq həyat yaşamışlar.

Beləliklə, Xocalı-Gədəbəy mədəniyyəti özü də həm oturaq, həm də köçəri əhalinin mədəniyyət ümumiliyini əks etdirir [4].

Xocalı-Gədəbəy mədəniyyətinin xarakterini abidələr tipinin bənzərliyi, keramika və tunc əşyaların oxşarlığı müəyyən edir. Tunc silah və əşyaların formaları Azərbaycan sərhədlərini aşaraq daha geniş istehsal mərkəzlərini əhatə edir. Xocalı-Gədəbəy mədəniyyətinin abidələri Orta Tunc dövrünün sonlarını, dəmirin erkən meydana çıxdığı və istehsal olunduğu dövrü əhatə edir. Bu dövrdə hələ dəmirdən geniş istifadə olunmurdu. Dəmirdən geniş istifadə Xocalı-Gədəbəy mədəniyyətinin sonuncu dövründən (e.ə. VIII əsrdən-VI

əsrədək) başlamışdır. Nadir tapılan metal kimi dəmirdən erkən dövrdə bəzək əşyaları hazırlanmışdır. Erkən dəmir bəzək əşyaları-sırğa Bayan yaxınlığında Pərsaqa dağı kurqanında (Qara Pərsaqa) əldə edilmişdir. Slavyanka kəndinin yanındakı kurqandan dəmir əşya tapılıb. İlk Dəmir dövrünün II mərhələsində dəmir bıçaq və xəncərlərin tiyələri (Mingəçevirdə III kurqan, və.s) hazırlanmışdır.

Xocalı-Gədəbəy mədəniyyəti üçün tunc məmulatlarının istehsalı üstünlük təşkil etmişdir. Lakin keyfiyyətcə daha möhkəm, əlverişli olan dəmir istifadə olunduqdan sonra tədricən tunc silahlar aradan çıxmışdır. Dəmir alətlərin meydana gəlməssi ilə tunc əşyalar məişətdə öz əhəmiyyətini itirir. Bu dövrdə iki tip qılıncdan istifadə edilmişdir. I tip Gədəbəy qılıncların yoğun əsaslı tutacağına ağac hissə bərkidilmişdir. Tiyə hissəsi ayrıca tökülmüş, enli, düz və novalçalıdır. Belə qılınclar Qarabağ, Şəmkir, Xanlar, Mingəçevirdən tapılmışdır. Onların yayılma arealı istehsal vasitəsi ilə əlaqəli olub Gədəbəy mədənlərindən qaynaqlanmış və Cənubi Qafqazın şərq və mərkəzi hissəsini əhatə etmişdir. II tip qılınclar bütöv tökülmüş (tiyəsi ensiz) çiyni kəmərlidir. Tutacağı əyri formada və burmalı olub, ayrıca tökülmüşdür.

Xəncərlər də müxtəlif tipdə hazırlanmışdır. Bəziləri qılınclar kimi, böyük tutacaqlıdır. Ön Asiya silahlarına (e.ə.II minilliyə aid) bənzəyən bu xəncərlər Gədəbəy istehsalı olub, tökmə üsulla hazırlanmışdır. Digər tip xəncərlərin tiyə hissəsi üçbucaq və ya dalğavari formadadır. Belə xəncərlər Şəmkir və Gədəbəy rayonlarında geniş yayılmışdır.

Təbərzin balta silah növü Xocalı-Gədəbəy mədəniyyəti üçün xüsusilə səciyyəvidir [10]. Bu baltaların kəsər hissəsi yarımdairəvi formada olub küpə doğru qalınlaşır. Varlı döyüşçüyə məxsus təbərzin baltalar xüsusi zövqlə müxtəlif bədii tərtibatda hazırlanmışdır. Ensiz ağızlı və uzunsov küpə malik olan baltalar əmək aləti kimi də istifafə edilmişdir. Belə baltalar Qarabağın çöllük ərazisindəki kurqandan tapılmışdır.

Xocalı-Gədəbəy mədəniyyətinə aid tunc oraq Daşkəsənin Xaçbulaq kurqanından aşkar olunmuşdur [3, 5-22].

Bu mədəniyyət üçün döymə və bütöv tökmə üsulla hazırlanmış, xaç formalı dəstəkli nizələr səciyyəvidir. Ağac dəstəkli çoxsaylı nizələr Xocalı-Gədəbəy mədəniyyəti qəbir abidələrindən əldə edilmişdir. Ox ucluqları, çaxmaqdaşı, obsidian (dəvə gözündən) və tuncdan hazırlanmışdır. Tunc ox ucluqları uzun və qısa qanadlıdır. Xocalı-Gədəbəy mədəniyyətinin at yüyənləri çox yüksək sənətkarlıqla hazırlanmışdır. Oxvari tunc kəmərlərin üzərləri müxtəlif süjetli ornamentlərlə bəzədilmişdir.

Çoxsaylı tunc əşyalar-qolbaqlar (dairəvi və yastı formalı) , sonu bağlanmamış halqalar, ucları ilan heyvan başı fiquru ilə tamamlanan bilərziklər, ilanvari burulmuş üzüklər, asmalar (zəngvari, quş fiquru), çoxsaylı düymələr, zəncirlər, daş asmalar və s. müxtəlif tunc məmulatlar Xocalı-Gədəbəy

mədəniyyətini səciyyələndirir. Bu əşyaların kompleksi abidələrin qruplarının etnomədəniyyətini və sosial fərqlərini müəyyənləşdirir.

Xocalı-Gədəbəy mədəniyyətinin inkişaf dinamikası və səciyyəvi xüsusiyyətləri Son Tunc, İlk Dəmir dövrü keramikasında ardıcıl izlənir. Tarixi inkişaf mərhələləri ilə bağlı olaraq keramika materialları 3 qrupa bölünür. Birinci qrupa boz-qara rəngli, üzəri hamar, geometrik naxışlı, ağ inkrustasiyalı qara, fiqurlu yapma bəzəkli keramika daxildir. Bu keramika əsasən Gəncəçay vadisi və ona yaxın dağətəyi ərazinin abidələri üçün səciyyəvidir. Onlar əl ilə hazırlanmış, zəif bişirilmişdir. Üzərləri heyvan, quş, adam, həndəsi formalı rəsmlərlə naxışlanmışdır. Naxışlar cızma üsulu ilə çəkilmiş və ağ pasta ilə inkrustasiya edilmişdir. Bu keramikanın naxışlanmasında Orta Tunc dövrünün keramika istehsalı ənənəsi saxlanmışdır. Cənub dulusçuluğunun təsiri ilə həyat ağacının təsviri, çərxifələk (xaç qarmaq, çəngəl) nişanlı, gülşəkilli bəzək rozetka və naxışlar tətbiq olunmuşdur. Sürətlə qaçan heyvanların dinamik hərəkətli təsvirləri tunc kəmərlərdə əks olunan təsvirlərlə eynidir.

Müəyyən dövrdə keramika naxışları dişli, daraqvari alətlə işlənmişdir. Bu keramika naxışlanma texnikasına görə Son Tunc dövrünün yekun mərhələsinə-e.ə.XIV əsrə aiddir. Belə keramika məmulatı, əsasən Gəncəçayın aşağı düzən zonasında torpaq kurqanların kameralarından, ağac tirlərlə örtülmüş quyu qəbirlərindən məlumdur. Şəmkir yaxınlığında Orta Tunc dövrü qəbir abidələrindən də həmin tip keramika tapılmışdır.

Naxışların yerləşdirilməsinə, işlənməsi və kompozisiyasına görə bu keramikanın Azərbaycan ərazisində Orta Tunc dövründə meydana gəldiyini söyləmək olar.

Qəbir abidələrinin, kurqanların kameralarının tirlərlə örtülməsi, həmçinin keramika materialları göstərir ki, Xocalı-Gədəbəy mədəniyyəti özündən əvvəlki yerli Orta Tunc dövrü mədəniyyəti əsasında yaranıb təkamül tapmışdır. Ağdam yaxınlığındakı Üzərliktəpədən tapılan keramika ilə, Şəkidə tapılan keramikanın oxşarlığı və sinxronluğu bu mədəniyyətin Şimali Azərbaycanda yarandığını göstərir.

Xocalı-Gədəbəy mədəniyyətinin mənşəyi Azərbaycanın Orta Tunc dövrü şəhər dulusçuluq mədəniyyəti ilə sıx bağlıdır. Xocalı-Gədəbəy mədəniyyəti keramikası Orta Tunc dövrü keramikasından oyma naxışlarına görə fərqlənir. Bu cəhətdən Xocalı keramikasının cənubi Sibirdəki Andronovo mədəniyyəti keramikası ilə uyğunluğu maraq doğurur.

Xocalı-Gədəbəy mədəniyyəti dövrünün çoxnaxışlı keramikası Gəncəçay vadisi arealına daxil olan abidələrdən aşkar edilmişdir. Geniş ərazilərdə bu naxışlar getdikcə azalır və motiv müxtəlifliyi bolluğu itir. Xronoloji dövrdə dəyişiklik qabların qədim və ya sonrakı dövrə aid olduğunu müəyyən etməyə imkan verir.

Xocalı-Gədəbəy mədəniyyətinin qədim keramikasında naxışlar çiyin hissədə aydın təsvir edilir və fiqurlar arası məsafə şaquli şəkildə ayrılır. İnkişaf etmiş dövrün keramikasında naxışlar bütün gövdə üzərinə çəkilir. Həndəsi fiqurlar kiçilir və mürəkkəbləşir. Sonralar təsvirlər sxemləşdirilir və müxtəlifliyi ilə seçilir.

Mərkəzi Qafqaz tipli keramika əvvəlki dövr keramikasının inkişafı nəticəsində yaranıb. Düzən zonaların abidələrində onlar sayca çoxdur. Bunlar dulus çarxında hazırlanmış sarı-qırmızı rəngdə yaxşı bişirilmiş, hündür boğaza malikdir. Şarşəkilli gövdəli, böyük tutumlu, küpələrin bəziləri bikonus formasındadır. Bəzilərinin yapma göbələkvari və heyvan başı fiqurlu zoomorf bəzəyi var. Digər iri həcmli küpələr yumurtavari oturacağa və düz silindr ağıza malikdir. Boğazla gövdənin birləşdiyi hissədə qulpu var. Müxtəlif ölçülü konus formalı kasalar üstünlük təşkil edir. Onların gövdəsi konusvari, boğazı silindrik formadadır. Çiyin hissədə kəmərvari yapma bəzək var. Bəzilərinin üzərinə qara, qırmızı və qəhvəyi rəng çəkilmişdir.

Ştamplama üsulu ilə naxışlanmış keramika xüsusilə zövq oxşayır. Bu keramika dulus çarxında hazırlanmış, üzərinin qara rəng çəkilmiş, həlqəvari oturacaqlıdır. Tağvari və düzbucaqlı yapmalarla bəzədilmişdir. Xocalı-Gədəbəy mədəniyyətini təmsil edən II qrup keramikanın tapıldığı erkən abidələr e.ə.XIV-XIII əsrlərə aiddir. Gürcüstanda tapılan bu növ keramika e.ə.XV-XIV əsrlərə aid edilir. Alalax, Nüzi və Troyanın analoji keramikası e.ə. XVI-XV əsrlərə aid edilir. Xocalı-Gədəbəy mədəniyyətinin III qrup keramikası dulus çarxında yüksək keyfiyyətdə, nazik divarlı hazırlanmış, hündür boğazlıdır. Bu qabların gövdəsinə adam təsvirləri çəkilmişdir.

Xocalı-Gədəbəy mədəniyyəti dövründə – e.ə.XIV-VII əsrlərdə Azərbaycanın ayrı-ayrı regionlarında türk mənşəli etnosların iri və güclü tayfa birlikləri yaranmışdır. Bu tayfalar sosial-iqtisadi cəhətdən intensiv təkamül mərhələləri keçmiş, Azərbaycanın erkən şəhər sənətkarlıq mədəniyyətinin formalaşmasında mühüm rol oynamışlar.

## ƏDƏBİYYAT

1. **Джафарзаде.И.М.** Экспедиция по обследованию циклопических сооружений Азербайджана. Отчеты экспедиций 1937 года Института истории, языка и литературы. Известия Аз. Филиала АН СССР, 1938., 37-43.

2. **Джафарзаде.И.М.** Ходжалинская экспедиций. Земляной курган №5. Известия Азербайджанского филиала АН Азерб. ССР, №2, 1941, с 15-26.

3. **Sadıxzadə Ş.H.** Xaçbulaqda Xocalı-Gədəbəy mədəniyyəti abidələrinin tədqiqi. (1962-1963-cü illər). Azərbaycan tarixinə dair materiallar. Azərbaycan tarix muzeyinin əsərləri. VII cild, Bakı, 1968, s 5-22.

4. **Xəlilov C.Ə.** Qərbi Azərbaycanın tunc dövrü və dəmir dövrünün əvvəllərinə aid arxeoloji abidələri. Bakı 1959., 172 s.

5. **Göyüşov R.B., Martınov A.İ.** SSRİ Arxeologiyası. Bakı, Maarif, 1991, 272 s.

6. **Кесаманлы Г.П.** Археологические памятники эпохи бронзы и раннего железа Дашкесанского района. Баку, 1999, 179 с.

7. **Пассек Т.С., Латынин Б.А**. Ходжалинский курган №11. Известия общества обследования и изучения Азербайджана 1926, с. 15-23.

8. **Гусейнова М.Г.** Керамика Восточного Закавказья эпохи поздней бронзы и раннего железа. Баку. 1990.

9. **Avşarova İ..** Xocalı-Gədəbəy mədəniyyəti tayfalarının bədii tunc məmulatı (e.ə. XIV-XII əsrlər). Bakı, “Nurlan”, 2007. 190 s.

10. **Qədirova N.** Avropa muzeylərində Qafqaz arxeoloji kolleksiyaları. Bakı, 2016, 449 s.

11. **Cəfərov H..** Azərbaycan e.ə. IV minilliyin axrı – I minilliyin əvvəllərində (Qarabağın Qarqarçay və Tərtərçay hövzələrinin materialları əsasında). Bakı-Elm-2000, 187 s.

12. **Əliyev V.H..** Qədim Qarabağ. Bakı 2013, 127 s.

**UOT 930.22**

# ГЕЙДАР АЛИЕВ И РЕЛИГИОЗНАЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНА

***С.А.Гурбанова, Л.А.Аскерова-Сурхализаде***
*НАНА Институт истории им. А.А.Бакиханова*

***Ключевые слова:*** *Азербайджан, Гейдар Алиев, религиозная толерантность*

В этой статье показана роль президента Гейдара Алиева в осуществлении религиозной политики в Азербайджане. Реализована роль Гейдара Алиева в определении стратегического направления этой политики, которая защищает нас от разрушительного влияния радикализма. В статье приводятся конкретные примеры создания условий для людей, принадлежащих к разным религиям

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANIN DİN SİYASƏTİ

***S.A Qurbanova, L.Ə.Əsgərova-Surxəlizadə***

***Açar sözlər:*** *Azərbaycan, Heydər Əliyev, dini tolerantlıq*

Bu məqalədə Azərbaycanda dini siyasətin həyata keçirilməsində Prezident Heydər Əliyevin rolu işıqlandırılır. Radikallığın dağıdıcı təsirindən bizi mühafizə edən bu siyasətin strateji istiqamətlərini müəyyənləşdirən Heydər Əliyevin həyata keçirdiyi tədbirlər göstərilir. Məqalədə müxtəlif dinlərə mənsub olan insanlar üçün şəraitin yaradılması spesifik misallarla diqqətə çatdırılır.

## HEYDAR ALIYEV and RELIGIOUS POLICY of AZERBAIJAN

***S.A.Gurbanova, L.A.Askerova-Surxalizade***

***Keywords:*** *Azerbaijan, Heydar Aliyev, religious tolerance*

In this article shows the role of President Heydar Aliyev in the implementation of the religious policy in Azerbaijan. Implemented by Heydar

Aliyev's role in determining the strategic direction of this policy, which protects us from the destructive influence of radicalism. The article discusses specific examples of creating conditions for people belonging to different religions.

Глобализация углубила религиозные противоречия в мире. Мы живём в эпоху противостояния на религиозной почве. В этих условиях как никогда актуально мирное сосуществование представителей различных вероисповеданий, примером которого является Азербайджан. В Азербайджане, где всегда проживало население исповедующие различные религии, на протяжении всей истории был мир между народами. Эту ценность, необходимо отстаивать всегда. Терпимость, умение жить в мире с представителями иных религий является одной из главных особенностей менталитета азербайджанского народа.

С возвращением Гейдара Алиева к руководству Азербайджаном в 1993 году, в общественно-политической, социальной, экономической, научной и культурной жизни страны произошёл перелом, начался процесс построения независимого государства в соответствии с научными основами, международными нормами и принципами.

Упущения в Законе «О свободе вероисповедания», принятом в 1992 году, не позволил государству обеспечить контроль над ситуацией, связанной с религией. Президент Гейдар Алиев увидел опасность общей стабильности и государственности, исходящей от пропаганды нетрадиционных религий, начал предпринимать шаги по устранению упущений в политике и законодательстве.

Согласно статье 25 Конституции Азербайджанской Республики, принятой в ноябре 1995 года, гарантировано уважение к правам и свободам каждого, независимо от происхождения, расы, религии и языка [1, 10]. Закреплённое в Конституции Азербайджанской Республики равенство всех граждан перед законом, независимо от их религии и языка, является наглядным свидетельством толерантности в стране.

Уже в первые месяцы возвращения к власти, Президент Гейдар Алиев в сентябре 1993 года в своём выступлении в мечети Тезепир отметил, что отныне Азербайджанское государство создаёт все условия для того, чтобы каждый человек смог осуществить свои религиозные обряды и воспользоваться ими.

Событием огромной важности стала встреча Гейдара Алиева с большой группой представителей национальных меньшинств, малочисленных народов и этнических групп, живущих в республике в октябре 1993 года. В своём выступлении он отметил: «… В мире очень мало мононациональных государств, и я лично твёрдо убеждён, что

государство, страна тем богаче, чем больше объединяет народов, ибо каждый из них пусть даже на протяжении веков живущих в пределах одного села, вносит свой вклад в общемировую культуру и цивилизацию» [4, 257]. От имени руководства Азербайджана Гейдар Алиев заверил народ, что каждый житель республики, независимо от национальности, языка, вероисповедания, политических убеждений, будет чувствовать себя полноценным гражданином, пользоваться равными правами и всеми благами. Это явилось одним из основополагающих принципов строительства правового государства в Азербайджане. При этом следует подчеркнуть, что политика толерантности поддерживается и настроениями снизу. Это именно та политика, которая проводилась Гейдаром Алиевым при поддержке широких слоёв азербайджанского населения.

Президент отмечал: «В мире очень много религий. Каждая религия занимает какое-то своё место. Мы, азербайджанцы, гордясь исламской религией, вместе с тем никогда не относились отрицательно к другим религиям, не враждовали, не строили козни, и ни один народ не заставляли исповедовать нашу религию. В целом терпимость к другим религиям, жизнь рядом с другими религиями в условиях взаимопонимания – особенность исламских ценностей [6]. В июле 1994 года Гейдар Алиев совершил малый хадж в Мекку. Он стал первым азербайджанским лидером после 1920 года, совершившим хадж.

По инициативе Президента 16 ноября 1999 года состоялась встреча с руководителями различных общин страны. Тем самым Гейдар Алиев продемонстрировал свою позицию к принципам толерантности, заложил основы прогрессивных тенденций на будущее. Этот день стал отмечаться как день толерантности в Азербайджане.

Гейдар Алиев много сделал для сохранения и развития исламских ценностей, являющихся основным источником национального менталитета азербайджанского народа. При его содействии 9-10 декабря 1998 года в Баку был проведён международный симпозиум «Исламская цивилизация на Кавказе», посвящённый истории ислама на Кавказе. Международный симпозиум был проведён совместно с Национальной Академией Наук Азербайджана. В симпозиуме приняли участие известные учёные из различных стран мира. В своём выступлении Президент на основании академических знаний рассказал о зарождении ислама на Кавказе, его распространении и состоянии в различные времена [2, 363].

Президент создал реальные условия верующим Азербайджана. При его поддержке были восстановлены бакинская мечеть в Биби-Эйбате, Тезепир, святилище Мирмовсум Ага и др. За короткий срок в Азербайджане появились более 1000 мечетей. Восстанавливались не

только мечети, но и церкви. Гейдар Алиев неоднократно встречался с верующими в мечетях, церквях.

Редкий опыт Азербайджана в области межрелигиозного диалога и сотрудничества получил высокую оценку и был известен на международной арене. Наглядным свидетельством этого является исторический визит бывшей главы Римско-католической церкви Иоанна Павла II в мае 2002 года в республику. Тогда же президент передал в дар римско-католическому приходу Баку территорию для строительства нового храма. Находясь в Баку, он отметил исторические традиции толерантности в Азербайджане. В апреле 2003 года с официальным визитом в Азербайджане находился Римский патриарх Варфоломей I.

Вместе с тем, Гейдар Алиев демонстрирует чёткое понимание роли и места религии в государстве светского типа. Он подчёркивал, что никогда не допустит фанатизм в республике.

Указом Президента Гейдара Алиева от 21 июня 2001 года в соответствии с пунктом 48 Конституции Азербайджанской Республики о религиозных свободах: «для контроля деятельности религиозных организаций в стране, а также для того, чтобы защищать, создавать условия и гарантии религиозных свобод граждан и жителей Азербайджана был создан Государственный Комитет по работе с религиозными организациями Азербайджана» [3, 1].

Стратегическое направление, определённое Гейдаром Алиевым, защищает нас от разрушительного влияния радикализма, стремительно распространяющегося по всему миру. Постоянный контроль государственных структур над этим вопросом, сформировавшиеся в обществе толерантные настроения позволили вовремя предотвратить антиконституционные действия в Нардаране под прикрытием религии, попытки нарушения стабильности. Благодаря этому стало возможным уменьшить число азербайджанцев, присоединяющихся к радикальным группам в Сирии и Ираке.

Президент Гейдар Алиев проделал очень важную работу, направленную на сохранение религиозно-духовных и национальных ценностей азербайджанского народа. Благодаря ему были созданы необходимые условия для людей, принадлежащим к другим религиям, проживающим в республике. Следует отметить, что в Азербайджане наиболее высокий показатель в области религиозной терпимости [5, 209]. В республике были созданы необходимые политико-правовые условия для обеспечения свободы совести и вероисповедания. В Азербайджане сложилась уникальная модель государственно-религиозных отношений, основанная на взаимоуважительном диалоге светской власти и традиционно религиозных общин.

## ЛИТЕРАТУРА

1. **Azərbaycan Respublikasinın Konstitusiyası.** Bakı: Qanun, 2006 - 64 s.
2. **Heydər Əliyev.** Müstəqilliyimiz əbədidir. Bakı: Azərnəşr, 2007 – 552 s.
3. **Бакинский рабочий,** 22 июня 2001.
4. **Заплетин Г., Ширин-заде Г.** Русские в истории Азербайджана. Баку: Ганун, 2008-362 с.
5. **Мехтиев Р**. Азербайджан: Вызовы глобализации. Баку: XXI–Yeni Nəşrlər Evi, 2004-584c.
6. http://lib,aliyev-heritaqe.orq/ru/9045952.html

# Mündəricat

***Ф.Р.Джаббаров.*** НАЧАЛО АРМЯНСКОГО ТЕРРОРА В ШУШЕ В 1905 г. .................................................................................... 3
***A.Q.Seyidov, G.Ş. Əlibəyova.*** QƏDİM NAXÇIVAN TAYFALARININ İDEOLOJİ BAXIŞLARININ İZLƏRİ KURQAN ABİDƏLƏRİNDƏ (e.ə.IV-II minilliklər) ........................................................................ 13
***E.Y.Mədətli.*** AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN TÜRKİYƏ İLƏ ƏLAQƏLƏRİ BƏZİ İRAN TARİXÇİLƏRİNİN ƏSƏRLƏRİNDƏ ......................................................................... 21
***R.M. Məcnunov***. AZƏRBAYCAN MƏTBUATININ TƏŞƏKKÜLÜ VƏ TƏKAMÜLÜNDƏ TİFLİS ŞƏHƏRİNİN YERİ VƏ ROLU ................... 35
***E.A. Şıxəliyev.*** BÖYÜK BRİTANİYANIN ARXİV MATERİALLARI ƏSASINDA İNGİLTƏRƏNİN "ERMƏNİ" SİYASƏTİ VƏ NAXÇIVANA TƏSİRİ (1917-1920-ci illər) .................................................................. 54
***Г.С. Алиева-Мамедова .*** НАГОРНО-КАРАБАХСКАЯ ПРОБЛЕМА ВО ВНЕШНЕЙ ПОЛИТИКЕ США ...................................................... 69
***Р.А. Рустамли .*** ГРУППЫ ИНТЕРЕСОВ КАК ПОЛИТИЧЕСКИЙ ИСТИТУТ ......................................................................................... 78
***T.S. Həşimova.*** QIZQALASI KURQANLARININ DƏFN ADƏTİ ..... 86
***Z.K.Quliyeva.*** NAXÇIVANIN ENEOLİT KERAMİKASI ÜZƏRİNDƏKİ RELYEF QURŞAQLARIN MƏNŞƏYİ .................................................. 94
***G.Z.Mehdizadə.*** XX ƏSRİN SON ON İLİNDƏ AZƏRBAYCAN NEFTİNİN DÜNYA BAZARLARINA DAŞINMA MARŞRUTLARININ SEÇİLMƏSİ ......................................................................................... 100
***A.Ə.Axundov, İ.Y.Əliyeva .*** ŞƏRQ VƏ QƏRBİN DİALOQ MƏRKƏZİ: AZƏRBAYCANIN MULTİKULTURAL DƏYƏRLƏRİ ....................... 110
***V.H.Əliyev.*** XOCALI-GƏDƏBƏY ABİDƏLƏRİNDƏ AZƏRBAYCANIN ERKƏN ŞƏHƏR MƏDƏNIYYƏTİNİN İZLƏRİ .................................. 116
***С.А.Гурбанова, Л.А.Аскерова-Сурхализаде .*** ГЕЙДАР АЛИЕВ И РЕЛИГИОЗНАЯ ПОЛИТИКА АЗЕРБАЙДЖАНА ............................. 126

# YAZI QAYDALARI

- Məqalələr **Azərbaycan, ingilis** və **rus** dillərində jurnalın elektron ünvanına – **sevinc0610@mail.ru** göndərilir.

- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.

- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.

- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 11 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.

- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.

- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, 8].

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.

- Məqalələrin həcmi: 5-12 səhifə.

- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.

- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.

- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# Tarix, insan və cəmiyyət

***Elmi-nəzəri və elmi-metodik jurnal***

**2017, 3 (18)**


***Çapa imzalanmış*** *27.*09.2017-ci ***il***
***Kağız formatı*** *60x84 1/16,* ***çap vərəqi 13,5***
***Sifariş*** 428*,* ***sayı*** *200*



***Bakı, Ü.Hacıbə****yli* ***küçəsi****, 68*
Telefon: (+994 12)493 05 85
E-mail: sevinc0610@mail.ru
www.adpu.edu.az